**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**
**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “Tədiyyə balansı və xarici iqtisadi əlaqələrin diversifikasiyası” mövzusunda

**MAGİSTR DİSSERTASİYASI**

**Sadıxov Teyyub Məhəmmədəli oğlu**

**BAKI – 2020**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**
**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**
**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh**

__________________

**“___” ____________ 2020-ci il**

# “Tədiyyə balansı və xarici iqtisadi əlaqələrin diversifikasiyası” mövzusunda

## MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı:** 060401– Dünya İqtisadiyyatı
**İxtisaslaşma:** Beynəlxalq maliyyə və valyuta-kredit münasibətləri
**Qrup:** 878


**Magistrant**
**Sadıxov Teyyub Məhəmmədəli oğlu**

_______________

**Elmi rəhbər**
**i.ü.f.d., dos. Bağırzadə Elşən Rəsul oğlu**

_______________

**Proqram rəhbəri**
**i.ü.f.d., dos Nəcəfova Kəmalə Akif qızı**

__________________

**Kafedra müdiri**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**

__________________


**BAKI – 2020**

## Elm andı

Mən, Sadıxov Teyyub and içirəm ki, “Tədiyyə balansı və xarici iqtisadi əlaqələrin diversifikasiyası” mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

# TƏDİYYƏ BALANSI VƏ XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİN DİVERSİFİKASİYASI


## XÜLASƏ

**Tədqiqatın aktuallığı: Tədiyyə balansı özlüyündə makroiqtisadiyyatın ən vacib və xüsusi sahələrindən biridir. Müasir beynəlxalq iqtisadi sistemi xüsusilədə ölkənin idxal-ixrac əməliyyatlarının strukturunu anlamaq üçün tədiyyə balansı göstəriciləri arasındakı əməliyyatlar haqqında məlumat əldə etmək gərəklidir. Həmçinin tədiyyə balansı ölkənin cari il ərzində xarici dünya ilə apardığı maliyyə və iqtisadi əməliyyatlarının əsas indikatorlarını özündə əks etdirir.**

**Tədqiqatın məqsədi: Tədqiqatın əsas məqsədi xaric iqtisadi siyasətin həyata keçirilməsində tədiyyə balansının həqiqi əhəmiyyətini ortaya çıxarmaqdan ibarətdir. Düzgün iqtisadi siyasətin köməyi ilə ölkə üz ÜDM-ni uzunmüddətli dövr ərzində artıra bilər. Əlavə olaraq qeyd etmək vacibdir ki, tədiyyə balansının ikili yazılış sisteminin göstəriciləri milli iqtisadiyyata yönələn həm daxili həm də xarici investisiyalara birbaşa təsir göstərir. Bu nüans tədiyyə balansının strukturunun tədqiq olunmasını daha əhəmiyyətli edir.**

**İstifadə olunmuş tədqiqat metodları: Analitik və sintetik, Riyazi-statistik və müqayisəli təhlil metodlarına tədqiqat işində yer verilmişdir. Həmçinin iqtisadi analiz metodlarından tədqiqatda geniş istifadə olunmuşdur.**

**Tədqiqatın informasiya bazası: Dissertasiya işində Azərbaycan, Türk və İngilis ədəbiyyatlarından istifadə edilmişdir. Həmçinin BVF-in və digər yararlı internet portallarından burada istifadə olunmuşdur.**

**Tədqiqatın məhdudiyyətləri: Milli ədəbiyyatlarda müvafiq müvzü üzrə bir sıra məhdudiyyətlər mövcuddur. Bu səbəbdən dolayı tədqiqat işində əksərən xarici ədəbiyyatlardan istifadə edilmişdir. Beləliklə tədqiqat işində tədiyyə balansı və onun alt kateqoriyaları ilə bağlı konseptual nümunələr haqqında məlumat verilməmişdir.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Tədqiqata diqqət etdikdə aydın olur ki, müvafiq mövzü üzrə bütün əsas sahələr müəyyənləşdirilmişdir. Burada tədiyyə balansının iki əsas qrupu olan cari hesab və maliyyə hesabı mövcuddur. Həmçinin tədiyyə balansı üzrə tədqiqatlar makroiqtisadiyyatın ən əhəmiyyətli sektorlarını tədqiq etməyi daha da asanlaşdırır.**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: Tədiyyə balansı haqqında müvafiq dissertasiya hər hansı bir ölkənin idxal və ixrac əməliyyatlarını anlamağı sadələşdirir. Bu səbəbdən dolayı tədqiqatın nəticələri iqtisadiyyatda diversifikasiya məqsədi ilə iqtisadi statistik jurnallarda və məqalələrdə istifadə oluna bilər.**

**Açar sözlər: Tədiyyə balansı, cari balans, iqtisadi diversifikasiya.**

# THE BALANCE OF THE PAYMENTS AND DİVERSİFİCATİON OF THE FOREİGN ECONOMİC RELATİONS

## SUMMARY

**The actuality of the subject: The Balance of the payments is one of the most special and important sector of the macroeconomy. To understand modern international economic system especially country's import-export structure need to get information about transactions among the balance categories. Also the balance of the payments shows prime indicators of the country's financial and economic operations with external world during the current year.**

**Purpose and tasks of the research: The main purpose of the investigation is to elicit real importance of the balance of payments for foreign economic policy. The help of the right economic policy country can increase its GDP for long period. For addition it is necessary to emhasize that the indicators of the balance of the payment's double record system effects directly to the both internal and external investments to national economy. This issue makes more important to research structure of the balance of payments.**

**Used research methods: Synthesis and analysis, mathematical-statistical, evolution, and induction-deduction methods were applied in the work of systematics - comparison and factor analysis mechanisms. Also the method of the economic analysises used in dissertation widerly.**

**The information base of the research: Azerbaijani, Turkish, English literature used in dissertation. Official portal of IMF and other well-suited portals used in research too.**

**Restrictions of research: İn local literature there are many obsracts in according term. That is why foreign literature used in chiefly in this research. Therefore in according research there is no information about conseptional examples for balance of the payments and his categories.**

**The novelty and practical results of investigation: Looking to the research all the main sectors of according text had identified almostly. There are current and financial balances which are the main groups of balace of payments. Researches about balance of payments facilitate to explore the vital sectors of macroeconomy too.**

**Scientific-practical significance of results: Dissertation about the balance of the payment facilitate understanding imports and export operations of any country in general. That is why the result of the research can be used in ecocomic statistical journals or texts for diversification ic economy.**

**Key words: The balance of the payment, current balance, economic diversification.**

# İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **BVF** | Beynəlxalq Valyuta Fondu |
| **Aİ** | Avropa İttifaqı |
| **DB** | Dünya Bankı |
| **İEOÖ** | İnkişaf Etməkdə Olan Ölkələr |
| **İEÖ** | İnkişaf Etmiş Ölkələr |
| **KOS** | Kiçik və Orta Sahibkarlıq |
| **MDB** | Müstəqil Dövlətlər Birliyi |
| **ÜDM** | Ümumi Daxili Məhsul |
| **ÜMM** | Ümumi Milli Məhsul |
| **ÜMG** | Ümumi Milli Gəlir |
| **BTC** | Bakı Tiflis Ceyhan |
| **ÜTT** | Ümumdünya Ticarət Təşkilatı |
| **MB** | Mərkəzi Bank |
| **ARDNŞ** | Azərbaycan Respublikası Dövlət Neft Şirkəti |

MÜNDƏRİCAT

**GİRİŞ**.......................................................................................................9
**I FƏSİL. TƏDİYYƏ BALANSI VƏ ONUN TƏNZİMLƏNMƏSİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI**……………………………………13
1.1. Tədiyyə balansının mahiyyəti və əsas xüsusiyyətləri....................................13
1.2. İqtisadi inkişaf baxımından tədiyyə balansındakı tarazlıqların əhəmiyyəti...........................................................................................18
1.3. Tədiyyə balansının tənzimlənməsində iqtisadi diversifikasiyadan istifadənin dünya təcrübəsi…………………………………………………………..25
**II FƏSİL. AZƏRBAYCANDA TƏDİYYƏ BALANSININ TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ**.........................................................................33
2.1. Müstəqillikdən sonra Azərbaycanda tədiyyə balansının formalaşması xüsusiyyətləri.................................................................................33
2.2. Azərbaycanın tədiyyə balansında baş verən proseslərin iqtisadi inkişafa təsirinin qiymətləndirilməsi.........................................................................36
2.3. Azərbaycanda tədiyyə balansının tənzimlənməsi xüsusiyyətləri...................44
**III FƏSİL. POST-NEFT DÖVRÜNDƏ AZƏRBAYCANIN TƏDİYYƏ BALANSININ TƏNZİMLƏNMƏSİ BAXIMINDAN XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİN DİVERSİFİKASİYASININ ƏSAS İSTİQAMƏTLƏRİ**......52
3.1. Azərbaycanın qeyri-neft ixracının artırılması imkanları................................52
3.2. Xarici investisiyaların Azərbaycan iqtisadiyyatına axınının genişləndirilməsi perspektivləri................................................................................................60
3.3. Azərbaycanın xarici turizm gəlirlərinin artırılması yolları.............................67
**NƏTİCƏ VƏ TƏKLİFLƏR**.........................................................................73

**ƏDƏBİYYAT SİYAHISI**…………………………………………………76
ƏLAVƏLƏR.....................................................................................................79
Cədvəllərin siyahısı...........................................................................................80
Qrafiklərin siyahısı.............................................................................................80

# GİRİŞ

**Mövzunun aktuallığı.** Müasir qlobal iqtisadi sistemdə Tədiyyə balansı həm xarici iqtisadi əlaqələrin xarakterizə olunması həm də milli iqtisadi sistemin inkişaf istiqamətlərinin müəyyən olunması nöqteyi nəzərindən kifayət qədər önəmli rola malikdir. Tədiyyə balansı ölkələrarası iqtisadi əlaqələr, onların dəyişilməsi, inkişafı eləcə də Dünya iqtisadi sisteminin öyrənilməsi və makroiqtisadi siyasətin formalaşdırılması və struktur olaraq düzgün qurulması nisbətindən olduqca vacibdir. Ötən əsrdə balansın əhəmiyyəti daim inkişaf tempində olmuşdur. Buna getdikcə qloballaşan beynəlxalq iqtisadi əlaqələr, beynəlxalq ticarətin dərinləşməsi və bazar iqtisadi sisteminin əksər milli iqtisadi sistemlərdə formalaşması fonunda gömrük bariyerlərinin aradan qalxması da müsbət təsir göstərmişdir. Eləcə də müvafiq sahə üzrə beynəlxalq iqtisadi təşkilatların yaranması ( ÜTT, BVF, Dünya Bankı və s.) prosesi daha da sürətləndirmişdir.

Qeyd etmək lazımdır ki, ölkəmizin iqtisadi inkişaf tempini və xarici iqtisadi əlaqələrin ölkə iqtisadiyyatına təsirini, eləcə də cari balansın öyrənilməsi fonunda xarici ticarət əlaqələrinin tədqiqini və araşdırılmasını həyata keçirmək üçün ən səmərəli yol Tədiyyə balansının öyrənilməsidir. Tədiyyə balansının və onun alt qruplarının təhlili cari il ərzində idxal və ixrac əməliyyatlarını, onların dəyişilməsini həmçinin ölkə iqtisadiyyatına və ölkə iqtisadiyyatından kənara kapital və maliyyə axınlarını izləməyə, aydın şəkildə görməyə imkan verir. Xarici iqtisadi əlaqələrin inkişafı hazırda iqtisadi diversifikasiyanın səmərəli həyata keçirilməsi ilə birbaşa əlaqədardır.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi.** Tədiyyə balansı göstəricilərində yaranan kəsrlər və bunların aradan qaldırılması bu sahədə tədqiq olunan ən əsas problem hesab oluna bilər. Tədiyyə balansı və xarici iqtisadi əlaqələr kontekstində hazırkı dönəmə qədər müvafiq sahə üzrə əsas tədqiqat obyekti tədiyyə balansının nəzəri metodoloji əsasları, ölkəmizdə tədiyyə balansının cari vəziyyəti və tərtib olunması olmuşdur. Əksər araşdırmaların əsas mahiyyətini balans göstəricilərinin təhlili, tədiyyə balansı göstəricilərinin tənzimlənməsi sahəsində

dövlət siyasəti və müəyyən ölçüdə bu sahədə beynəlxalq təcrübənin araşdırılması təşkil etmişdir. Buraya həmçinin balans göstəricilərinin tədqiq olunması ilə əlaqədar tarixən formalaşan nəzəri konsepsiyaların yerli ədəbiyyatlarda öz əksini tapmasını da aid etmək gərəklidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas məqsədləri tədiyyə balansının keyfiyyət amili baxımından öyrənilməsi, ölkəmizdə bu sahədə ola biləcək boşluqların aradan qaldırılması yollarının araşdırılması, son illərin balans göstəricilərinə əsasən bir sıra spesifik sahələrin inkişaf istiqamətlərinin müyyənləşdirilməsi, bu sahədə dünya ölkələrinin təcrübəsinin araşdırılması, öyrənilmiş və əldə edilmiş yeni bilik və iqtisadi modellərin milli iqtisadi sistemə tətbiqinin tədqiq olunması hesab oluna bilər.

Qeyd olunan məqsədlərə çatmaq üçün aşağıda qeyd olunmuş əsas vəzifələr müəyyənləşdirilmişdir:

- Tədiyyə balansının formalaşma xüsusiyyətlərinin müəyyənləşdirilməsi;
- Dünya ölkələrinin balans siyasəti təcrübəsinin tədqiq olunması;
- Ölkəmizdə bu sahədə mövcud vəziyyətin araşdırılması və cari il də daxil olmaqla əvvəlki illərə görə tədiyyə balansının xarakterizə olunması;
- Tədiyyə balansının əsas göstəricilərinin xarici iqtisadi əlaqələrin diversifikasiyası nöqteyi nəzərindən yaxşılaşdırılması istiqamətlərinin müəyyənləşdirilməsi;

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat işinin obyekti tədiyyə balansı, onun alt qruplarının təhlil olunması və dünya ölkələrində xarici iqtisadi əlaqələrin inkişaf perspektivlərinin müəyyənləşdirilməsi və ölkəmizə onun tətbiqi yollarının araşdırılmasıdır. Bu sıraya həmçinin dünya ölkələri üzrə tədiyyə balansının formalaşdırılması və tarazlığının təmin olunması istiqamətində həyata keçirilən iqtisadi siyasət, ayrı-ayrı ölkələr tərəfindən tətbiq edilən iqtisadi diversifikasiya modelləri də aid edilir. Tədqiqat işinin predmeti isə təhlil olunan balans göstəricilərinə və dünya üzrə tədiyyə balansı tarazlığının təmin edilməsi yollarına əsaslanaraq milli iqtisadiyyatda tədiyyə balansının tarazlığının təmin olunmasın

optimallaşdırılması və xarici iqtisadi əlaqələrin səmərəliliyinin artırılmasının həyata keçirilməsidir. Eləcə də düzgün iqtisadi diversifikasiyanın qurulması, nəticə etibarı ilə tədiyyə balansında müsbət saldonun yaranması ilə nəticələnən addımların atılması dissertasiyanın predmeti hesab olunur.

**Tədqiqat metodları.** Dissertasiya işinin hazırlanması zamanı öz növbəsində analiz və sintez metodlarından geniş istifadə olunmuş, həmçinin burada riyazi statistik metodlar da daxil olmaqla paralel şəkildə müqayisəli və faktorlu təhlil mexanizmlərinə də istinad edilmişdir.

**Tədqiqatın informasiya bazası.** Dissertasiya işi hazırlanarkən yerli ədəbiyyatlara paralel olaraq ingilis və türk dillərində ədəbiyyatlara da istinad edilmişdir. BVF-in saytı də daxil olmaqla bir sıra xarici saytlara nəzər yetirilmiş və istifadə olunmuşdur. Yerli elektron mənbələrdən isə əsasən Mərkəzi Bankın və Dövlət statistika Komitəsinin məlumat bazasından istifadə edilmişdir.

**Tədqiqatın məhdudiyyətləri.** Tədqiqat işində mahiyyət etibarı ilə balans göstəriciləri ilə əlaqələndirilən ən əsas məsələlərə toxunulmuşdur. Həmçinin qeyd olunmalıdır ki, tədqiqat işi beynəlxalq səviyyədə tədiyyə balansının ilk yarandığı dönəmlərdən bu yana qədər formalaşma istiqamətlərini və balans göstəricilərinin zamanla dəyişməsini özündə ehtiva etmir. Eləcə də dissertasiya işində tədiyyə balansı və onun ayrı-ayrı göstəriciləri üçün gələcək inkişaf perspektivlərinə və mümkün proqnozlaşdırılan dəyişikliklərə toxunulmamışdır. Əlavə olaraq qeyd olunmalıdır ki, müvafiq işdə tədiyyə balansının tədqiq olunması ilə bağlı nəzəri konsepsiyalara və yanaşmalara yer verilməmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Neft ixracından asılılığın azaldılması və qeyri-neft sektorunun daha dinamik inkişaf etdirilməsi fonunda tədiyyə balansı və ixrac da başda olmaqla xarici iqtisadi əlaqələrin şaxələndirilməsi üçün tədqiqat işində araşdırılan beynəlxalq təcrübədən və statistik analizdən istifadə oluna bilər. Eləcə də xarici iqtisadi əlaqələrin diversifikasiyası istiqamətində bir sıra müqayisəli təhlillər aparılmış və ölkəmizdə bu sahədə mövcud vəziyyət araşdırılmışdır.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri.** Tədqiqat işində əldə olunan nəticələrin ən əsas səmərəli tərəfi müvafiq sahədə cari vəziyyətin

araşdırılması ilə paralel şəkildə mövcud problemlərin həlli yollarının da göstərilməsi və bu barədə statistik göstəricilərin təqdim olunmasıdır. Bu nöqteyi nəzərdən nəticələrin əhəmiyyəti yalnız nəzəri deyil həmçinin də praktiki konteksdən önəmlidir. Qeyd olunanlara əsaslanaraq demək mümkündür ki, tədqiqat işindən müvafiq sahə üzrə elmi məqalələrin və jurnalların hazırlanmasında, dərsliklərin yazılmasında, statistik icmal bülletenlərinin formalaşdırılmasında istifadə etmək mümkündür. Eləcə də gələcək dönəm üçün iqtisadi diversifikasiya fonunda inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi istiqamətində tədqiqat işindən geniş ölçüdə istifadə oluna bilər.

# I FƏSİL. TƏDİYYƏ BALANSI VƏ ONUN TƏNZİMLƏNMƏSİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI

## 1.1. Tədiyyə balansının mahiyyəti və əsas xüsusiyyətləri

Tədiyyə balansı makroiqtisadiyyat elmində hazırda kifayət qədər əhəmiyyətli yerə sahibdir. Qeyd olunmalıdır ki, tədiyyə balansının tədqiqi və onun statistik göstəriciləri hazırda ölkələrin xarici iqtisadi siyasəti və makroiqtisadi vəziyyəti haqqında dayanıqlı informasiyanı formalaşdırır.

İlkin olaraq qeyd olunmalıdır ki, tədiyyə balansına bir-birinə bənzər bir çox təriflər verilmişdir. İlk dəfə tədiyyə balansına rəsmi olaraq müasir tərif BVF tərəfindən verilmişdir və orada tədiyyə balansı bir il içində bir ölkənin yerli sakinləri ilə xaricilər arasında aparılan ödənişlərin qeyd olunduğu bir sənəd kimi xarakterizə olunmuşdur. Aydın məsələdir ki, burada həm ölkə daxilində həm də ölkə xaricində aparılan iqtisadi əməliyyatlar xarakterizə olunur. Həmçinin bu sahədə digər mənbələrə diqqət etdikdə isə görünür ki, tədiyyə balansına daha geniş ölçüdə təriflər verilmişdir. Belə ki, tədiyyə balansı geniş mənada bir ölkənin həm xaricə ödənişlərini həm də xaricdən daxilolmalarını özündə əks etdirir (Paul Krugman ,2012: Səh 306). Burada söhbət artıq təkcə ölkə rezidentlərindən getmir. Yəni bu cərgəyə ayrı-ayrı dövlət subyektləri və onların apardığı iqtisadi əməliyyatlar da aid edilir. Nəticə etibarı ilə tədiyyə balansı üçün bu anlam daha geniş mənanı özündə ehtiva edir.

Həmçinin tədiyyə balansı özlüyündə hər hansı bir ölkənin iqtisadi subyektləri ilə digər ölkənin müvafiq iqtisadi və ya biznes subyektləri arasında aparılmış iqtisadi əməliyyatları və onların nəticələrini ifadə edən bir yazılış sistemidir. Yəni qısa olaraq burada iqtisadi əməliyyatların həyata keçirildiyi ölkədə yerləşən rezidentlər və qeyri-rezidentlər ilə aparılan əməliyyatlar qeydə alınır. Eləcə də qeyd olunmalı digər bir məqam oldur ki, yalnız iqtisadi əməliyyatların aparıldığı müvafiq ölkədə yerləşən rezidentlər yox eləcə də həmin ölkədə yerləşən digər ölkələrin müəssisələrinin filialları əgər bu ölkədə daimi fəaliyyət göstərirsə o zaman onlar ilə də aparılan iqtisadi əməliyyatlar nəticə etibarı ilə balansda öz əksini tapmış olur.

Ölkəmizdə tədiyyə balansına verilən rəsmi tərif də bənzər şəkildədir və ölkə rezidentlərinin müəyyən dövr ərzində qeyri-rezidentlərlə aparmış olduğu iqtisadi əməliyyatların məcmusunu özündə ehtiva edən statistik hesabat kimi xarakterizə olunmuşdur. Rezident şəxs anlayışına izah verildikdə görünür ki, rezident şəxslər təqvim ili üzrə üst-üstə olaraq 182 gündən artıq vaxt müddətində Azərbaycan Respublikasının sərhədləri daxilində fəaliyyət göstərən bütün fiziki və hüquqi şəxslərdir. (Azərbaycan Resublikasının Vergi məcəlləsi. Maddə-13.2.5)

Tədiyyə balansının tərkibindəki əməliyyatların strukturundan danışıldığı zaman burada ümumi olaraq oxşar yanaşmaların mövcud olduğu görünür. Tədiyyə balansı müxtəlif ədəbiyyatlarda əsasən aşağıdakı formada hesablara ayrılır: ( R.İ.Xasbulatov.,2015: Səh 119; Ə.H.Ələkbərov,M.Ə.Vəliyev,S.M.Məmmədov.,2010: Səh 250)

- **Cari əməliyyatlar balansı**
- **Kapital və maliyyə hesabı balansı**
- **Ehtiyat aktivlər (rəsmi valyuta ehtiyatları hesabı)**

Ancaq bəzi ədəbiyyatlarda müvafiq yanaşma bir qədər daha fərqlidir. Belə ki, burada tədiyyə balansı *cari hesab* ,*kapital hesabı* və ayrıca *maliyyə hesabı*və *statistik fərqlər hesablarına*bölünür.( Stephanie Schmitt-Grohe,Martın Uribe., 2014: Səh. 1.) Yanaşmamızda əsas meyar olaraq götürəcəyimiz Azərbaycan Respublikası Mərkəzi Bankının rəsmi sənədələrində tədiyyə balansı 5 hissəyə bölünür. (https://uploads.cbar.az/assets/4f9ced2ebffd8b2fb6149f920.pdf. 2020. MB. Tədiyyə balansının tərtibi haqqında metodoloji izahat)

1. Cari əməliyyatlar hesabı
2. Kapitalın hərəkəti hesabı
3. Maliyyə hesabı
4. Ehtiyat aktivlər
5. Balanslaşdırıcı maddələr

Cari əməliyyatlar hesabına əsasən mal və xidmətlərin idxalı və ixracı aid edilir. Həmçinin turizm də cari əməliyyatlara məxsus hesab olunur. Əlavə olaraq buraya göstərilmiş ilkin və təkrar gəlirlər də aid edilir. İlkin gəlirlər dedikdə buraya

əmək haqqı, divident, faiz ,renta və sair bu qəbildən olan ödənişlər aid edilir. Təkrar gəlirlərə isə humanitar yardımlar, qrantlar,pul köçürmələri aid edilir.

Kapitalın hərəkəti hesabı isə özlüyündə ölkə ilə digər ölkələr arasında aparılan istehsal edilməmiş qeyri-maddi aktivlər üzrə əməliyyatları xarakterizə edir. Eləcə də kapital yönümlü digər transfertlər də bu hesabın bir parçasıdır. Nəticə etibarı ilə bu qənaətə gəlmək mümkündür ki, inkişaf etmiş və ya yüksək iqtisadi inkişafda olan ölkələrdə buhesabların ayrıca qeyd olunması iqtisadiyyatın çoxşaxəli və ya keyfiyyətcə dərininə tədqiq olunması ilə əlaqədardır.

Kapitalın hərəkəti hesabı xarici mənbələrdə ölkənin geri qalan ölkələr ilə həyata keçirdiyi bütün kapitalla bağlı əməliyyatları əhatə edən hesab kimi göstərilir. (H.Seyidoğlu., 2009: Səh. 321). Qeyd etmək lazımdır ki, aktivlərin alınıb satılması yuxarıda kapital hesabına aid edilmiş olsa da bəzən yalnış olaraq bu cari hesaba aid edilir. (D.Vəliyev A.Əsədov., 2012: Səh. 258). Aktivlər dedikdə isə burada qiymətli kağızlar, səhmlər nəzərdə tutulur və həmçinin aktivlərin alınıb satılması halında aktivlər formaca əmtəələrə bənzəsələrdə onların idxalı və ixracı əslində kapitalın özünün ölkələrarası hərəkəti ilə bağlıdır. Bu səbəbdən dolayı düzgün yanaşma aktivlərin alqı-satqısının kapital hesablarına qeyd olunmasıdır.

Maliyyə hesabı dedikdə isə burada mərkəzi bankın məlumatlarına əsasən ölkənin cari maliyyə aktiv və öhdəliklərinin əhatə edilməsi nəzərdə tutulur. Həmçinin qisa və uzun müddətli investisiyalar, birbaşa və portfel investisiyalar da bu qəbildən hesablara aiddir.

Ehtiyat aktivlər ölkələrin mərkəzi bankları ilə birbaşa əlaqəlidir. Yəni digər yuxarıda qeyd olunan hesablardakı əməliyyatların məntiqi nəticəsi ehtiyat aktivləri ilə bağlıdır. Bu isə mərkəzi bankın apardığı iqtisadi siyasətin bir parçasıdır. Yəni mərkəzi bank digər hesablardakı kəsrləri maliyyələşdirmək üçün xaricdən kredit alınması yolu ilə valyuta da cəlb edə bilər və ya bu hal mümkün olmadıqda öz rəsmi valyuta ehtiyatlarından da istifadə edə bilər.

Son olaraq balanslaşdırıcı maddələr dedikdə burada tədiyyə balansında qeyd olunmayan əməliyyatlar nəzərdə tutulur. Yəni nəzəri baxımdan tədiyyə balansında xarici dünya ilə olan bütün əməliyyatlar qeyd olunmalıdır. Balanslaşdırıcı maddələr

isə səhvlər və ya qeydə alınması mümkün olmayan statistik balans göstəriciləri ilə bağlı olan bir balans növüdür. Balanslaşdırıcı maddələrin kəmiyyətini sıfıra salmaq qeyri mümkündür. Mərkəzi bankın rəsmi məlumatlarında göstərilir ki, natamam informasiya nəticəsində tədiyyə balansının qeydiyyat sisteminin iki tərəfindən birində (debet və ya kredit) məlumatlar qeyd olunmur və nəticə etibarı ilə tarazlıq pozulur. Yəni debet tərəfi kredit tərəfinə bərabər olmur və fərq yaranır və fərqlərin ümumi toplanması müvafiq olaraq balanslaşdırıcı maddələri yaradır.

Balanslaşdırıcı maddələr bəzi ədəbiyyatlarda statistik fərqlər hesabı olaraq da izah olunur. Statistik fərqlər (H.Seyidoğlu., 2009: Səh. 327) hesabında da oxşar xüsusiyyətlər qeyd olunmuşdur və əlavə olaraq burada yaranan xəta və ya səhvlərin səbəbləri də qeyd olunur. Bura əsasən gömrük idarələrində qeydiyyatın düzgün həyata keçirilməməsi, mal və ya kapitalla bağlı həyata keçirilən əməliyyatlarda qaçaqçılığa yol verilməsi, bəzi əməliyyatların qeydiyyatının təxmini hesablamalara əsasən həyata keçirilməsi və s. aiddir.

Tədiyyə balansının strukturu ilə tanışlıqdan sonra bu struktur maddələrinin tarazlıq hallarını və baş verən əməliyyatların balansda əksini qeyd etmək üçün balansın ikili qeydiyyat sistemi haqqında baza biliklərinə də sahib olmaq gərəklidir. Tədiyyə balansında ikili qeydiyyat sistemi bir növ balans daxilində baş verən əməliyyatların mahiyyətini dərk etməyə və riyazi hesablamalar vasitəsi ilə balansın mövcud statistik durumunu anlamağa yardım edir. Tədiyyə balansındakı əməliyyatlar debet və kredit olmaq üzərə iki yerə ayrılır. Ölkəyə valyuta axını ilə nəticələnə biləcək əməliyyatlar balansın debet hissəsində, ölkədən valyuta çıxışı ilə nəticələnəcək əməliyyatlar isə balansın kredit hissəsində qeyd olunur.

Tədiyyə balansının debet hissəsinin kredit hissəsinə sonda bərabər olması beynəlxalq təcrübədə qəbul olunmuş bir meyardır. Həmçinin debet və ya kredit hissəsində yaranacaq hər hansı artığın əks tərəf hesabına tarazlaşdırılması da ikili qeydiyyat sisteminin elementlərindən biri hesab oluna bilər.

Cari və maliyyə hesablarında ölkəyə valyuta daxil olması aktiv hissəyə qeyd olunur. Ancaq bunun tərsi olan proses baş tutarsa yəni ölkədən valyutanın çıxışı baş verdikdə isə bu müvafiq olaraq passiv hissəyə qeyd olunur. Ancaq rəsmi valyuta

etiyatları hesablarında isə bu hesablaşmalar əks hissəyə qeyd olunmaqla həyata keçirilir. Yəni ölkədən valyuta çıxışı aktiv hissəyə ölkəyə valyuta girişi isə passiv hissəyə qeyd olunur. Balansın ikili qeydiyyat sistemi ilə bağlı bəzi nümunələrə baxıldığı zaman ikili qeydiyyat sisteminin mahiyyəti daha aydın başa düşülə bilər. Məsələn Azərbaycan vətəndaşı Gürcüstana mal ixrac edir və bundan gəlir əldə edirsə bu gəlir cari əməliyyatlar hesabının passiv hissəsinə, ixrac olunan mal isə balansın aktiv hissəsinə qeyd olunur. İdxal zamanı isə qeyd olunan əməliyyatlar əks hesablara qeyd olunur. Yəni malın idxalı passiv hissəyə, əvəzində ödənilən valyuta isə aktiv hissəyə qeyd olunur. Həmçinin dövlət tərəfindən xaricə göndərilən birtərəfli yardım ixrac hesabının aktiv hissəsinə və hesabın birtərəfli transfertinin passiv hissəsinə qeyd olunur.

Tədiyyə balansı ilə əlaqədar xarici iqtisadi ədəbiyyatları araşdırdıqda belə nəticəyə gəlmək olur ki, tədiyyə balansı həmişə tarazlıq halında olur və yalnız onun ayrı-ayrı bölmələrində bu tarazlıq halı pozula bilər. Bu nöqteyi nəzərdən balansda mövcud olan ikili qeydiyyat sisteminin əsas məqsədi balansın debet və kredit hissəsinin bərabərləşdirilməsi üçün yox balansda baş verən əməliyyatların axınını və xarakterini anlamaq üçündür. Həmçinin balansda tarazlaşdırmaların aparılması əslində sonda mövcud olan kəsrin ortadan qaldırılması və ya əgər hansısa hesabda artıqlıq (profisit) mövuddursa bunun digər hesablardakı kəsrlə əvəzləşdirilməsi deməkdir. Əlavə olaraq qeyd etmək lazımdır ki, bəzən elə hallar olur ki, xarici dünya ilə cari il ərzində müəyyən iqtisadi əməliyyatlar aparılsa da və bu əməliyyatlar tədiyyə balansında qeyd olunsa da nəticə etibarı ilə bunlar sonda balansda heç bir dəyişiklik yaratmır. Bu tipdə əməliyyatlara misal olaraq qarşılıqlı ödəmələri, əvvəlcədən müəyyən edilmiş mal partiya və ya növləri üzrə barter ticarət əməliyyatlarını, əvəzləşdirilən texnologiya transfertlərini göstərmək olar.

Tədiyyə balansında tarazlıq hallarından əlavə bir çox durumlarda tarazlıqların pozulması halları da müşahidə olunur. Tarazlıqların pozulması, onları doğuran səbəblər, aradan qaldırılması üçün tənzimləmə mexanizmları və görülən tədbirlərə növbəti paraqraflarda daha geniş yer veriləcəkdir. Tarazlıqların pozulması haqqında qısa olaraq qeyd olunmalı cəhət odur ki, ayrı-ayrı hesablaşmalarda o müəyyən

zamanlarda əməliyyatların yalnış qeydiyyatı və ya arzuolunmaz nəticələri əsasında ortaya çıxan və balansın ümumi tarazlıq halının pozulması ilə nəticələnən hallardır.

Ümumən demək gərəklidir ki, balansdakı göstəricilər imkan verir ki, cari il ərzində ölkənin apardığı əksər iqtisadi əməliyyatlar haqqında statistik informasiya əldə etmək mümkün olsun. Balansın cari vəziyyəti ilə müəyyən bir ölkənin makroiqtisadi durumu haqqında fikir yürütmək günümüzdə kifayət qədər asanlaşmışdır. Bu kimi amillər tədiyyə balansının tədqiqat nöqteyi nəzərindən əhəmiyyətini daha da artırır.

## 1.2. İqtisadi inkişaf baxımından tədiyyə balansındakı tarazlıqların əhəmiyyəti

Beynəlxalq təcrübəyə əsasən demək mümkündür ki, əksər hallarda tədiyyə balansının tarazlıq vəziyyəti təmin edilir. Ancaq bəzi hallarda milli iqtisadiyyatda baş verən müxtəlif iqtisadi və sosial dəyişikliklər tədiyyə balansı tarazlığının pozulnası ilə nəticələnir. Bu kimi amillərə misal olaraq milli valyutanın dəyərinin dəyişməsini, idxal və ixrac əməliyyatlarının həcminin dəyişməsini, orta illik infliyasiyanın səviyyəsinin dəyişməsini və s. göstərmək mümkündür. Bu səbəbdən dolayı ölkələr tədiyyə balanslarındakı tarazlığın qorunması və ya xroniki disbalansların yəni qeyri-tarazlıqların yaranmaması üçün makroiqtisadi sferaya müxtəlif ölçüdə və iqtisadi vasitələr ilə müdaxilələr edir və həmçinin qarşılıqlı iqtisadi əlaqələrinin mövcud olduğu ölkələrin balanslarındakı dəyişiklikləri də tədqiq edirlər. Ancaq bütün bunlarla yanaşı ortaya çıxan əsas məqam budur ki, tədiyyə balansındakı tarazlığın iqtisadi mahiyyəti nədir və səbəbdən dolayı balans tarazlıq vəziyyətində olmalıdır.

Qeyd olunmalıdır ki, bu sahədəki mənbələrə diqqət etdikdə birmənalı olaraq gəlinən nəticə budur ki, makroiqtisadiyyatın və onun fonunda ölkənin iqtisadi rifahının yaxşılaşması üçün tədiyyə balansı tarazlı vəziyyətində olmalı və ya bu duruma gətirilməlidir. Qeyd edilən əməliyyatların həyata keçirilməsi üçün isə tədiyyə balansının tənzimlənməsinə ehtiyac vardır. Tənzimləmənin həyata keçirilməsinin əsas məqsədi balansdakı kəsrin aradan qaldırılması, ölkədən kapital

qaçışının qarşısının alınması iqtisadi inkişafın təmin olunmasıdır. Balansın tarazlıq halına gətirilməsində ən mühüm mərhələ mövcud kəsrin aradan qaldırılması və ya sıfırlandırılmasıdır. Bu məqsədlə balans əməliyyatlarının tərkibində və baş verən proseslərə diqqət edilməlidir.

Tədiyyə balansında tarazlıq halı balansın əsas struktur elementlərində və balansı formalaşdıran amillərin tarazlıq halında olması ilə formalaşır. Tarazlaşdırma həyata keçirilərkən bir sıra əməliyyatlar icra olunur və müvafiq sahədəki əsas mənbələrə diqqət etdikdə balans əməliyyatları ümumilikdə iki yerə ayrılır: (H.Seyidoğlu., 2009: Səh. 316).

1) Avtonom

2) Tarazlaşdırıcı əməliyyatlar

Cari və kapital hesabları avtonom, ehtiyat aktivləri hesabları isə tarazlaşdırıcı əməliyyatlar olaraq təsnifləşdirilir. Bu hesabların tarazlıq halında olmasının tədqiq edilməsi ilə əslində balansın bilavasitə özünün necə tarazlıq halına gətirilməsi aydınlaşdırılmış olacaqdır. İlk əvvəl diqqət olunmalıdır ki, avtonom və tarazlaşdırıcı əməliyyatlar qeyd edilərkən əslində bu əməliyyatların mahiyyəti də qeyd edilməlidir.

Avtonom əməliyyatlar balans tarazlığını pozan və ya tədiyyə balansında qeyri-tarazlıq hallarının yaranmasına səbəb olan əməliyyatlar kimi xarakterizə olunur. Əslində avtonom əməliyyatların balans tarazlığını təmin etmək kimi məqsədi də mövcud deyildir. Tarazlaşdırıcı əməliyyatlar isə avtonom əməliyyatların baş verməsi nəticəsində meydana çıxır (S.Rıdvan Karluk., 2009: Səh. 444). Yuxarıda qeyd olunan cari və kapital hesablarının tərkib elementlərindəki il ərzinda baş verən hesablaşmalar sonda balansda mənfi və ya müsbət saldonun yaranmasına səbəb olur. Tədiyyə balansında yaranan defisit və ya profisit isə ölkə iqtisadiyyatına və iqtisadiyyata qoyulan birbaşa və portfel investisiyalara müxtəlif cür təsir göstərir. Əksər hallarda isə bu iqtisadiyyat üçün arzuolunmaz nəticələrə və iqtisadi qeyri-stabil dalğalanmalara səbəb olur. Bu kimi hallarda tarazlaşdırıcı hesablaşmalar dövriyyəyə girir və mövud disbalans aradan qaldırılır.

Yuxarıda qeyd olunan müvafiq yanaşmanın və əməliyyatların bu tipdə təsnifləşdirməsi balans tarazlığının əhəmiyyətini dərk etməyə kömək edir. Burdan belə bir nəticəyə də gəlmək olur ki, əməliyyatların bu kimi təsnifatı onun istifadə məqsədindən də asılı olaraq dəyişə bilmək imkanına malikdir. Tədiyyə balansı üzrə geniş araşdırmaların qeyd olunduğu ədəbiyyatlarda balans tarazlığının aşağıdakı növləri göstərilir: (S.Rıdvan Karluk., 2009: Səh. 456)

- Əsas tarazlıq
- Xalis likvidlik tarazlığı
- Rəsmi rezervlər tarazlığı.

Burada əsas tarazlığa bütün cari əməliyyatlar və uzunmüddətli investisiya axınlarının tarazlıq vəziyyətində olması aid edilir. Burdan çıxan nəticələrə diqqət etdikdə görünür ki, qısamüddətli sərmayələr əsasən avtonom yox tarazlaşdırıcı əməliyyatlar kateqoriyasında yer alır.

Xalis likvidlik tarazlığı əsas tarazlıqdan fərqli olaraq qısa müddətli likvid olmayan sərmayəni də əhatə edir. Aydındır ki, artıq burada birbaşa olaraq milli iqtisadiyyatın tarazlığı bərpa etmək üçün cari ildə istifadə etdiyi sərmayə bu sinifə aid edilir. Əlavə olaraq qeyd etmək lazımdır ki, dövlətlər və ya makroiqtisadi vəziyyətdən məsul qurumlar cari ildə balans tarazlığını təmin etmək üçün qeyd olunan sərmayə axınlarından geniş istifadə edirlər. Buraya balans kəsrinin örtülməsi üçün alınan borclar iqtisadiyyata qoyulan sərmayələr xaricdən cəlb edilən kapital və s. aiddir.

Rəsmi rezervlərin tarazlığının yaradılmasının əsas məqsədi milli valyutanın və ya ölkə pulunun xarici dəyərinin formalaşdırılması kimi göstərilə bilər. Həmçinin bütün bunlarla yanaşı tədiyyə balansının tarazlıq halında olması üçün kapital balansında və cari hesablar balansında tarazlıq olması hallarına da diqqət etmək gərəklidir. Xarici ədəbiyyatlarda cari hesaba təsir edən səbəblər siyahısında valyutanın mübadilə məzənnəsi və gəlirlər mühüm yer tutur (Paul Krugman , 2012: Səh 424). Yəni valyuta məzənnəsindəki hər hansı bir dəyişiklik idxal və ixrac əməliyyatlarının həcminə birbaşa olaraq təsir göstərir. Gəlirlərdəki dəyişikliklər isə daxili istehlakçıların gəlirlərinin artması və azalması deməkdir. Yəni gəliri artan

istehlakçının təbii olaraq tələbatı da artır və bu müvafiq olaraq ixracatın azalması və ya idxalatın artması anlamına gəlir.

Balans tarazlığının əhəmiyyəti dedikdə burada onun iqtisadi inkişafa təsiri nəzərdə tutulur. Yəni yuxarıda qeyd olunan müddəaları nəzərdən keçirdikdə gəlinən nəticə odur ki, makroiqtisadi stabilliyin təminatı və dinamik sabit iqtisadi inkişaf üçün sonda balans tarazlıq vəziyyətində olmalıdır. Bunu qeyd edərkən yalnış olaraq anlaşıla bilər ki, hər bir ölkə üçün tədiyyə balansının cari il ərzində tam tarazlıq halında olması hər bir iqtisadi model üçün əlverişlidir. Burada çatdırılmaq istənilən və ya aydınlaşdırmaq istənilən əsas fikir odur ki, iqtisadi inkişaf modelindən asılı olaraq balansın ayrı-ayrı maddələrində iqtisadi mənafelərə uyğun disbalans və ya balansın özündə defisit və əksinə profisit cari il ərzində yarana bilər. Ancaq sonda bu hal mütləq şəkildə aradan qaldırılmalıdır. Yəni balans sonda müxtəlif iqtisadi alətlər və ya müdaxilələr, tədbirlər vasitəsi ilə tarazlıq halına salınmalıdır.

Ümumilikdə qeyd olunmalıdır ki, xroniki disbalans halları ya profisit ya da defisit halları ilə müşahidə olunur. Profisit halında balansın daha doğrusu onun ayrı-ayrı hesablarının tarazlıq vəziyyətinə gətirilməsi əslində defisit (kəsr) halı ilə müqayisədə daha asandır. Yəni müəyyən bir hesabda artıqlığın yaranması digər hesablara müdaxilə ilə dövlət tərəfindən ortadan qaldırıla bilir. Kəsrli hallarda isə artıq tarazlıq üçün kəsri qapamaq zəruriəti yaranır və bu da valyuta ehtiyatlarından istifadə və xarici mənbələrdən borc alınması hesabına başa gəlir. Bəlli olduğu kimi hər iki mənbənin müəyyən limitiləri mövcuddur və bu səbəbdən dolayı kəsr halının aradan qaldırılması daha aktual problemdir. Bir çox müvafiq məsələlərə toxunulan ədəbiyyatda kəsrin aradan qaldırılması ya təbii olaraq ya da dövlətin özünün tətbiq etdiyi mexanizmlar sayəsində təmin olunur ( H.Seyidoğlu., 2009: Səh. 441). Yəni hər hansı bir defisit və ya profisit halları yarandığı zaman bu kimi durumları aradan qaldıra biləcək gəlir, qiymət, maliyyə və birbaşa müdaxilə kimi mexanizmlardan bəziləri dövlətin hər hansı bir müdaxiləsi olmadan balansda kəsr yaranarkən bu kəsrin makroiqtisadiyyata siraət etməsi hesabına özlüyündən yaranmağa başlayır.

Müvafiq ədəbiyyatda bu kimi durumlar iki yerə bölünür (H.Seyidoğlu., 2009: Səh. 441). Belə ki, bunlardan ilki qeyd olunduğu kimi özlüyündən formalaşan təsir

mexanizmləridir. Digəri isə dövlətin tətbiq etdiyi balans tarazlığnın təmin olunması mexanizmidir. Bu tipdə təsnifatlaşdırma əslində balans tarazlığının həm əhəmiyyətini həm də formalaşma mənbələrini daha təkmil şəkildə anlamağa yardım edir.

Tədiyyə balansındakı tarazlıq amilinə *cari* və *ticarət* hesabının tarazlığı amilindən yanaşıldığı zaman balansın özünün ümumi tarazlıq halının əhəmiyyəti daha yaxşı başa düşülür. Ticarət hesabının tarazlığı dedikdə bir növ mal və əmtəələrin idxal və ixracı arasındakı rəqəmsal bərabərlik nəzərdə tutulur. Yəni cari il ərzində müəyyən ölkəyə əmtəə idxalı həmin ölkədən əmtəələrin ixracına bərabər olmalıdır. Cari hesabın defisit və profisit halında olması ilə əlaqədar başqa bir xarici ədəbiyyatda profisit halı defisit və ya kəsrli hal ilə müqayisədə daha əlverişli olaraq qiymətləndirilir ( Stephanie Schmitt-Grohe, Martın Uribe., 2014: Səh. 37.). Belə ki, əgər ölkənin xaricə borclanması kimi iqtisadi problemi mövcuddursa cari hesabdakı artıqlıq ilə bu problemin öhdəsindən gəlmək və cari hesabın davamlılığına nail olmaq mümkündür.

Əslində hər hansı bir ölkənin ticarət hesabına diqqət etdikdə həmin ölkənin mövcud iqtisadiyyatı haqqında və iqtisadi modeli haqqında və bu iqtisadi modelin əsas gəlir gətirən sahələri haqqında geniş məlumat əldə etmək mümkün olur. Məsələn Azərbaycanda ticarət balansına diqqət etdikdə neft və neft məsullarının ixracının ümumi illik ixracda böyük paya sahib olduğunu aydın görülür. Yəni ölkə neft ixracatçısıdır.

Həmçinin qeyd olunmalı başqa bir məqam yuxarıda göstərilən özlüyündən formalaşan balans tarazlığı mexanizminin mahiyyətidir. Cari hesabda özünü daha aydın şəkildə büruzə verən bu proses əslində makroiqtisadiyyatda qarşılıqlı əlaqə zəncirinin hesabına baş verir. Cari hesabda yaranmış defisit və profisit halları onun ən önəmli subhesabı olan xarici ticarət hesabından əhəmiyyətli dərəcədə asılıdır. Ticarət hesabında kəsrin yaranması ya idxalatın həcminin artması ya da ixracatın həcminin azalması hesabına baş verir. Bu isə öz növbəsindəölkə daxilində digər sahələrdə istehsalın həcminin azalması və tələbin məhdudlaşması ilə birbaşa əlaqəlidir. Beləliklə burada milli gəlirin azalması baş verir və bu isə idxalın da

azalması ilə nəticələnir. Yəni milli gəlir azaldığına görə ölkə daxilində tələbatda azalır və istehsal olunan məhsullar isə az istehlak olunur. Beləcə yerdə qalan istehlak olunmayan məhsullar ixraca yönəldilir və ixracın həcmi genişlənməyə başlayır (H.Seyidoğlu., 2009: Səh. 485). Bu proses daha çox qisamüddətli dönəm üçün xarakterikdir və əksər hallarda uzunmüddətli dönəm üçün dövlətin müdaxiləsi gərəklidir.

Cari hesabın tarazlıq halı əslində ticarət hesabı ilə əlaqəlidir və cari hesabın tarazlığı öz növbəsində daha geniş anlayışı əhatə edir. Belə ki, cari hesabın tarazlığı birbaşa olaraq ölkə iqtisadiyyatının ümumi gəlirlərinə təsir edən amildir. Cari hesabın profisit, defisit və tarazlı halına malik olması onun strukturunu təşkil edən və daxil olma və ya xaric olma ilə xarakterizə olunan mal, xidmət və transfertlərin məntiqi nəticəsi hesab olunur.

İnkişaf etmiş ölkələr bir çox hallarda kapital ixracatçısıdırlar və buna müvafiq olaraq da inkişafda olan ölkələr əsasən kapitalın idxalatçısı rolunda çıxış edirlər. Kapital idxalının əsas səbəblərindən biri cari balansda tarazlıq halının bərpası ilə bağlıdır. Çünki uzunmüddətli dövr üçün cari hesabında mövcud olan kəsri daxili imkanlar hesabına aradan qaldıra bilməyən ölkələr son nəticədə kapital və maliyyə hesabı daha dəqiq desək alınan investisiyalar vasitəsi ilə bu kəsri aradan qaldırırlar.

Tədiyyə balansının əsas struktur elementlərinin tarazlıq hallarına diqqət etdikdən sonra vurğulanmalı olan digər bir məqam əslində balans tarazlığı pozulan zaman onun ortadan qaldırılmasının iqtisadi əhəmiyyətidir. Yəni balansdakı uzunmüüdətli qeyri-tarazlıq halları getdikcə genişlənərək sonda nəticə etibarı ilə iqtisadi böhrana səbəb ola bilər. Çünki bir çox hallarda tədiyyə balansında olan mövud disbalans ölkədən valyuta qaçışına səbəb olur və ölkənin rəsmi rezerv ehtiyatları sürətlə azalmağa başlayır.

Bu kimi halların qarşısını almaq üçün dəyişkən valyuta məzənnəsinə sahib olan ölkələr əksər hallarda məzənnə spekulyasiyası vasitəsi ilə nisbi tarazlığa nail olurlar. Həmçinin burada tarazlığın təminatı üçün kapitalın cəlb edilməsi prosesi də qeyd olunmalıdır. Ancaq sabit məzənnə siyasəti həyata keçirən inkişafda olan ölkələr balans tarazlığını təmin etmək üçün əsas vasitə kimi xarici kapitalın ölkəyə

cəlb edilməsi prosesini həyata keçirirlər. Alınan uzun və qısamüddətli borclar, qızılın və qiymətli kağızların satışı nəticəsində cəlb edilən vəsaitlər iqtisadiyyata müxtəlif vasitələrlə investisiyaların cəlb edilməsi kimi hallar bu qəbildən hesab olunur.

Beynəlxalq təcrübə göstərir ki, sabit məzənnəni saxlayaraq ancaq xaricdən kapital cəlb etməklə balansdakı qeyri-tarazlıqların qarşısını daima almaq mümkün deyildir (Paul Krugman "International Economics", 2012: Səh 478). Çünki uzun dönəm üçün alınan borclar sonda iqtisadi cəhətdən borc böhranına çevrilə bilər. Həmçinin burada valyuta böhranın yaranması üçün də kifayət qədər zəmin mövcuddur. Nəticə etibarı ilə sabit məzənnə siyasəti həyata keçirən ölkələr bu siyasəti ciddi balans kəsiri hallarında uzunmüddətli dövr üçün davam etdirə bilmirlər və bahalı milli valyuta ölkədən kapital qaçışı prosesini daha da sürətləndirir. Bu amillərin nəticəsində ölkələr milli valyutanın dəyərində devalvasiyaya getmək məburiyyətində qalırlar. Qeyd olunan bu hala Azərbaycan ən bariz nümunədir.

Tədiyyə balansının tənzimlənməsi və onun tarazlıq halının təminatı ilə əlaqəli olan iqtisadi siyasət əslində yüksək inkişafa nail olmuş ölkələr üçün artıq ikinci planda yer tutur. ABŞ da başda olmaqla inkişaf etmiş ölkələrin balanslarının cari durumuna diqqət etdikdə adətən kəsr halları müşahidə olunur. Statistik göstəricilərdə müşahidə olunan bu rəqəmlər onların iqtisadi durumunun pisləşməsini ifadə etmir. Burada artıq tədiyyə balansının sərhədləri bitmiş hesab olunmalıdır. Çünki tədiyyə balansı heç də bir ölkənin dünya ilə apardığı bütün iqtisadi əməliyyatları ifadə etmir və nədə öz statistik göstəricilərində bunu aydın şəkildə göstərmir. Bu səbəblərdən dolayı bu ölkələrin kifayət qədər geniş diversifikasiya olunmuş iqtisadiyyatları onların iqtisadi inkişafının təməlinin bariz sübutudur. Həmçinin bunlarla yanaşı qeyd olunmalıdır ki , yuxarıda söylənilən fikirlər müvafiq ölkələr haqqında fikir yürüdərkən onların təkcə mövcud tədiyyə balansı göstəricilərinə əsaslanmağın nə qədər yalnış olduğunu ifadə etmiş olur.

## 1.3. Tədiyyə balansının tənzimlənməsində iqtisadi diversifikasiyadan istifadənin dünya təcrübəsi

Əvvəlki paraqraflarda tədiyyə balansının mahiyyəti, əsas xüsusiyyətləri və balansın tarazlıq halının iqtisadi əhəmiyyəti qeyd edildikdən sonra bu paraqrafda dünya təcrübəsinə əsasən tədiyyə balansındakı qeyri-tarazlıqların aradan qaldırılması hallarına baxılacaq, bu konteksdə balansın tənzimlənməsi məqsədi üçün bir neçə ölkələrin iqtisadi təcrübə və ya modeli tətqiq ediləcəkdir.

Ümumən qeyd olunmalıdır ki, tədiyyə balansı dövlət tənzimlənməsinin əsas obyektlərindən biridir.Tədiyyə balansının dövlət tənzimləməsi – tədiyyə balansının əsas maddələrini əhatə edən, eləcə də, mövcud kəsirin örtülməsinə xidmət edən iqtisadi dövlət tədbirlərinin məcmusudur, o cümlədən valyuta, maliyyə, pul-kredit tədbirləri də bura daxildir. Ölkənin valyuta-iqtisadi vəziyyəti və beynəlxalq hesablaşmaların səviyyəsindən asılı olaraq tədiyyə balansının tənzimlənməsinin müxtəlif üsullarından istifadə edilir. Bu zaman ya xarici iqtisadi əməliyyatlar məhdudlaşdırılır, ya da, həvəsləndirilir. Tədiyyə balansının kəsiri (defisit) olan ölkələr ixracı həvəsləndirmək, idxalı məhdudlaşdırmaq, xarici kapitalı cəlb etmək, kapitalın ölkədən aparılmasını məhdudlaşdırmaq məqsədilə adətən qənaət siyasəti, devalvasiya, valyuta məhdudiyyətləri kimi tədbirlərdən istifadə edirlər.

Tədiyyə balansının tənzimlənməsi və balansda yaranmış disbalans hallarının qarşısının alınması ölkənin apardığı xarici iqtisadi siyasət ilə birbaşa əlaqədədir. Əslində tədiyyə balansı xarici iqtisadi siyasətin daxilində təmərküzləşir və onun real durumunu əks etdirir. Bu sahədə araşdırma apararkan birdən çox müxtəlif yanaşmalara rast gəlinir və bunlardan ilki xarici iqtisadi siyasətin birbaşa özü ilə əlaqədardır. Xarici iqtisadi siyasət dedikdə tədiyyə balansı siyasəti də bura aid edilir. Bu zaman isə artıq tədiyyə balansı siyasəti daxilində müvafiq olaraq maliyyə siyasəti, ixracın təşviq edilməsi siyasəti, valyuta nəzarəti siyasəti xüsusi olaraq göstərilir (S.Rıdvan Karluk., 2009: Səh. 169).

Maliyyə siyasəti vasitələrinə yanaşma burada investisiyalarn cəlb edilməsi ilə əlaqələndirilir. Yəni xaricdə yaşayan rezident şəxslərdən və hüquqi şəxs statusuna

malik olan iqtisadi subyektlərdən ölkə iqtisadiyyatına investisiya cəlbi bu siyasətin əsas məqsədidir. Burada cəlb edilən sərmayənin növləri və həcmi müxtəlif olsada əsas məsələ uzunmüddətli dövr üçün iqtisadiyyata xarici aləmdən real investisiya qoyulmasını təmin etməkdən ibarətdir. Təbii ki, burada tədiyyə balansının tarazlıq halı onun ayrı-ayrı əməliyyatlarının cari ildəki vəziyyəti mühüm rola malikdir və həmçinin burada makroiqtisadi siyasətin əlverişliliyi onun beynəlxalq səviyyədə investisiya və sərmayə axını üçün qənaətbəxş iqtisadi göstəricilərə malik olması həlledici faktordur.

Burada görülməli olan tədbirlər ölkələrin iqtisadi modelindən asılı olaraq dəyişir. Belə ki, əgər ölkə xammal ixracçısıdırsa bu zaman əsas məqsəd qeyri-xammal və ya istehsal sektorlarına investisiya cəlb edilməsindən ibarət olmalıdır. Ümumi olaraq isə iqtisadi stabillik, əlverişli qanuni baza, ucuz işçi qüvvəsi, ixtisaslı kadr kimi amillər də bu sahədə stimullaşdırıcı xarakter daşıyır.

İxracın təşviqi siyasəti ümumən xarici iqtisadi siyasətdə məncə ən önəmli faktordur. Çünki bu iqtisadi siyasət imkan verir ki, ixrac gəlirlərinin diversifikasiyası vasitəsi ilə tədiyyə balansındakı xroniki disbalansların qarşısını almaq mümkün olsun. Yəni ixrac gəlirləri vasitəsi ilə ölkənin tədiyyə qabiliyyətini gücləndirmək və balansdakı real və ya gələcək üçün  potensial defisitlərin qarşısını almaq mahiyyət etibarı ilə burada əsas iqtisadi meyardır.  Bu iqtisadi siyasət eləcə də balansın özündə həcmcə ən böyük ölçüyə malikdir və onun nəticələri balans əməliyyatlarının böyük bir qismini əhatə edir. Dünya iqtisadiyyatında ayrı-ayrılıqda ölkələr ixracatı genişləndirmək, daha çox gəlir gətirən məhsulların istehsalı və ixracını həyata keçirmək, yerli istehsalçıları və sahibkarları xarici bazarlara mal çıxarmaq məqsədilə əvəsləndirmək üçün ixrac təşviq etmə metodlarına əl atırlar. Bura  əsasən ixrac mallarına xüsusi güzəştlər, bu sahə ilə əlaqəli olan müəssisə və şirkətlərə vergi endirimləri, əlavə ssuda və güzştli kreditlər, xarici bazarlarda dövlət tərəfindən verilən dəstək və bu sahəyə yönəlik digər maliyyə yardımları aid edilir.

Hazırda müasir beynəlxalq iqtisadi münasibətlər sistemində ixrac gəlirləri vasitəsi ilə balansda arzuolunan dəyişiklərin həyata keçirilməsi ixracda sənaye məhsullarının payının artması olduqca önəmli faktor olmaqla yanaşı inkişaf etmiş

ölkələrin həyata keçirdiyi əsas iqtisadi xəttdir. Bu səbəbdən dolayıdır ki, ixracda dünya üzrə yüksək tenologiyalara əsaslanan emal sənayesi yüksələn xətlə inkişaf etməkdədir. Həmçinin xarici ticarətdə xammal ixracının həcminin get-gedə azalan tendensiya ilə irəliləməsinə paralel olaraq qeyd olunan sahənin inkişafı və xidmət və intellektual fəaliyyət sahələrinin ixracının genişlənməsi real durumu daha aydın izah edir (A.Orucov,C.Kərimov,Ü.Qələndərova,Ə.Əhmədova.,2016.,səh.75). Balans tarazlığı üçün valyuta nəzarəti dedikdə balans tarazlığını qorumaq adına ölkəyə girən və ölkədən çıxan valyutalara nəzarət edilməsi nəzərdə tutulur. Burada əsas məsələ idxalla bağlı əməliyyatlardır. Belə ki, bütün ölkələrin balanslarında ixracla bərabər geniş çeşiddə idxal əməliyyatları da yer tutur. Yəni ölkənin əsaslı iqtisadi inkişafı tək ixracdan ibarət deyildir və idxalın həcmi də bura ciddi təsir edən meyarlardan biridir. Məlumdur ki, inkişaf etməkdə olan ölkələrdə idxalın həcmi adətən ixracı üstələyir və öz növbəsində bu isə cari balansda kəsrin yaranmasına səbəb olur. Buna səbəb isə idxal zamanı ölkədən çıxan valyutanın ixrac zamanı daxil olan valyutanı üstələməsidir. Belə olan halda ölkələr bu prosesi tənzimləyə bilmək üçün valyuta axınlarına nəzarət siyasətini həyata keçirməyə məcbur olurlar. Bu siyasət adətən idxal prosesi zamanı idxalçıların valyutanı ölkədən çıxarmaq üçün dövlətdən icazə alması ilə xarakterizə olunur.

Yuxarıda qeyd olunanlar ilə paralel olaraq balans tarazlığının təminatı üçün iqtisadi diversifikasiyadan istifadə barədə beynəlxalq təcrübənin nəzərdən keçirilməsi və bu sahədə ayrı-ayrılıqda ölkələrin təcrübəsinin müqayisəli şəkildə tətqiqi tədqiqat üçün kifayət qədər vacib olan bir amildir. Bu konseptə uyğun olaraq burada ilk olaraq ABŞ-ın tədiyyə balansı tədqiq ediləcəkdir.

ABŞ-ın tədiyyə balansı illik olaraq İqtisadi Tətqiqatlar Bürosu (BEA) tərəfindən tərtib edilir. Bu ölkə özlüyündə tədiyyə balansının cari hesabında uzun illərdir kəsrin xarakterizə olunduğu balansa malikdir. Ümumilikdə isə ABŞ-ın tədiyyə balansında cari hesab ən böyük paya sahibdir. Növbəti yeri maliyyə hesabı tutur və burada maraqlı bir cəhət odur ki, kapital hesabı bu ölkə üçün bir o qədər də əhəmiyyətli yerə sahib deyildir. Bunun da əsas səbəbi bu hesabın ölkə iqtisadiyyatı üçün kifayət qədər kiçik həcmə malik olmasıdır. (Stephanie Schmitt-Grohe, Martın Uribe.,

2014:Səh. 2.). 2017-ci il üçün cari hesabın və ticarət balansının statistikasına diqqət etdikdə görmək olur ki, ABŞ üçün mal və xidmətlər üzrə ümumi ixrac 2.35 trilyon dollar idxal isə 2.9 trilyon dollar olmuşdur. Beləliklə müvafiq il üçün kəsr 550 milyar dollar civarındadır (Balance of Payments (BOP) Basis. 2019) Bu kəsr artıq bir neçə onillikdir ki, ABŞ üçün xarakterik xüsusiyyətdir. ABŞ cari hesabdakı bu kəsri adətəngəlir hesabı və xalis birtərəfli köçürmələr hesabına neytrallaşdırır. Həmçinin burada ölkə iqtisadiyyatı üçün xarakterik olan daxili mənbələrə borclanma və bunun vasitəsi ilə kəsrin ortadan qaldırılması da xüsusi yer tutur.

ABŞ-dan fərqli olaraq Çin cari hesabı üçün son illərdə profisit halı xarakterikdir. Böyük həcmdə mal və xidmətlərin ixracı Çinin tədiyyə balansının cari və ticarət hesabında üstünlüyün yaranmasına səbəb olmuşdur. Bu ölkənin valyuta ehtiyatları artıq dörd trilyon dolları aşmışdır. Sual olunur ki, Çin bu cür iqtisadi inkişafı necə dinamik saxlayaraq balansın daim profisit qalığı ilə nəticələnməsini təmin edir. Bu ilk növbədə Çin iqtisadiyyatına qoyulan iri həcmli sərmayə və böyük ölçülü daxili istehsal ilə bağlıdır. Həmçinin Çin hökuməti ABŞ-dan fərqli olaraq daim öz balans qalığını profisitlə nəticələndirərək valyuta ehtiyatlarının artırılması yolunu tutur və bunun üçün də milli valyutanın məzənnəsinə müdaxilə edərək icra olunan mal və xidmətlərin həcmini daha da artırır. Bu iqtisadi siyasətə görə hazırda dünyada bu ölkəyə qarşı münasibətlər birmənalı deyildir. Belə nəticəyə gəlmək olar ki, burada dövlətin iqtisadiyyata müdaxiləsi mövcuddur və tədiyyə balansının hazırkı durumu da bunu deməyə imkan verir.

Çindən fərqli olaraq Türkiyə cari hesablarında daima kəsrin mövcud olduğu ölkədir. Qardaş ölkədə yeni əsrin başlanğıcından bəri cari hesabın kredit hissəsi debet hissəsini üstələmiş və nəticədə balansın özündə kəsr qalığı yaranmışdır. Türkiyənin 2001-ci ildən bəri cari hesabında defisitin yaranmasının əsas 2 səbəbi göstərilir (B. Erdil Şahin., Ekonomi Bilimleri Dergisi, 2011, No 2, cilt 3.). Birincisi iqtisadiyyatın inkişafı ilə əlaqədar olaraq idxalın həcminin artması, ikincisi isə milli valyutanın gərəyindən çox dəyər qazanmasıdır. Nəticə etibarı ilə birinci səbəb burada daha tutarlıdır. Dəyişkən valyuta məzənnəsinə malik olan qardaş ölkədə milli valyutanın son dövrlər kəskin şəkildə dəyərdən düşməsi də buna tutarlı sübutdur.

Türkiyənin ən böyük iqtisadi problemlərindən biri cari hesabın kəsrinin bağlanmasıdır. Bildiyimiz kimi cari hesabdakı mövcud kəsrin aradan qaldırılması sərmayə hesabı daha dəqiq desək borclanma vasitəsi ilə həyata keçirilir. Amerikada daxili mənbələrin həcminin böyük olması imkan verir ki, balans kəsri bu mənbələr hesabına bağlanılsın. Ancaq qardaş ölkədə mövud vəziyyət tamam fərqlidir. Belə ki, Türkiyə iqtisadiyyatı əslində xarici kapitaldan kifayət qədər çox asılıdır və uzun illərdir ki, cari hesabdakı kəsr xarici mənbələrdən alınmış borc hesabına maliyyələşdirilir. Burada əsas yeri ölkə iqtisadiyyatına qoyulan xarici investisiyalar tutur və hətta demək olar ki, xarici investisiyalar Türkiyə iqtisadiyyatı üçün donor rolunu oynayır. Ancaq nəticədə bu ölkənin xaricə borclanmasına səbəb olur və artıq burada iqtisadi təhlükəsizlik məsəsləsi meydana çıxır.

Ümumiyyətlə qeyd etmək gərəklidir ki, inkişaf etmiş və dəyişkən valyuta məzənnəsinə sahib ölkələr bir çox hallarda tədiyyə balansında yaranan qeyri-tarazlıq halını valyuta məzənnəsinin müvafiq yöndə dəyişdirilməsi ilə də tarazlığa nail olurlar. Həmçinin xaricə qoyulan birbaşa və portfel investisiyalar və ya kapital axını da həm balansı tənzimləyə həmdə gələcəkdə olası defisit hallarında investisiya gəlirlərinin diversifikasiyası baxımından da arzuolunmaz halların qarşısını almağa imkan verir. Böyük Britaniya qeyd olunanlar üçün bariz nümunədir. Əslində Birləşmiş Krallıq özü də cari hesabın kəsr halına malik olsada şimal dənizindən neft hasilatı və ixracatı bu kəsrin tarazlaşdırılmasında mühüm rol oynamışdır.

Digər bir yandan qonşu və həmçinin ölkəmizin də əsas ticarət ortaqlarından biri Rusiya da dünyada əsas karbohidrogen hasilatçılarından və ixracatçılarından biridir. Dünya təbii qaz ehtiyatlarının dördə birinə və dünya qaz ixracının 20 faizinə malik olan Rusiya əslində öz iqtisadiyyatını ixrac etdiyi karbohidrogen ehtiyatları hesabına saxlayır (Morten Anker, Daniel Buikema Fjærtoft, Jouko Rautava, Heli Simola and Laura Solanko., 2009, səh. 4). Son illərdə neftin dünya bazarında qiymətinin düşməsi qonşu ölkəyə də ən az bizim qədər təsir etdi və milli valyutalarının ucuzlaşmasına səbəb oldu. Hazırda Rusiyanın iqtisadi diversifikasiya siyasətinin əsasını ağır sənaye sahələrinin inkişaf etdirilməsi və rəqabətqabiliyyətli emal məhsullarının ixracının

genişləndirilməsi tutur. Xüsusilə avropa bazarlarına inteqrasiya eləməyə çalışan şimal ölkəsi ənənəvi sənaye məhsullarını modernizasiyasına xüsusi diqqət ayırır.

Neft və neft məhsullarının ixracı neft ixracçısı ölkələr üçün balansda böyük profisit qalıqlarının yaranmasına səbəb olur. Ölkəmiz də daxil olmaqla bir sıra ölkələr günümüzdə aktiv şəkildə neft və neft məhsullarını satmaqla böyük həcmdə valyuta ehtiyatları əldə edir və makroiqtisadi artımı stabil olaraq həyata keçirirlər. Ancaq burada yaranan əsas mübahisəli məsələ odur ki bu cür iqtisadi model nə qədər etibarlıdır?

Tarix sübut edir ki, xammala dayanan iqtisadi model sonda iflasla nəticələnir. Burada söhbət geniş mənada *holland sindromundan* gedir. Holland xəstəliyinin mahiyyətini amerikalı iqtisadçılar V.Maks korden və C.Peter Neari iqtisadiyyatı şaxələndirməklə izah etmişlər. Belə ki, onlar iqtisadiyyatı ticari və qeyri-ticari olmaqla iki yerə ayırmışlar. Öz növbəsində isə ticari sektoru enerji və emaledici sektor olmaqla iki yerə ayırmışlar. Onlara görə enerji sektorunda verilən yüksək maaş və əldə edilən yüksək mənfəət bütün investisiyaların bu sahəyə axınına səbəb olur. Nəticədə isə digər sahələr inkişafdan geri qalır.

Müasir dövrdə Holland xəstəliyi milli valyutanın möhkəmlənməsi, nəticədə idxalın güclənməsi və daxili bazarda yerli istehsalçıların rəqabət qabiliyyətinin kəskin azalması, qeyri-ticari sahələrin (xidmət, tikinti və s.) inkişafı, ixracda əsas yeri karbohidrogen ehtiyatlarının tutması ilə xarakterizə olunur (İ.Abbasov, T.Əliyev., 2017.,Səh., 104).

Holland sindromundan həmin dönəm üçün bir çox neft ixrac edən ölkələr əziyyət çəkmişdirlər. Körfəz ölkələrindən Səudiyyə Ərəbistanı birdən birə azalan neft gəlirləri fonunda əsas çıxış yolu kimi dövlətin həyata keçirdiyi iri iqtisadi layihələri təxirə salmaq, cari dövlət xərclərini kəskin şəkildə azaltmaq və əksər hallarda dondurmaq yolunu seçdi.Həmçinin bura əlavə olaraq xarici kapitalın ölkə iqtisadiyyatına cəlb edilməsi siyasəti də aid edilə bilər. Xüsusi ilə neft sektoruna gələcək dönəm üçün əlverişli şərtlərin cəlbediciliyi nəticəsində qoyulan investisiyalar bura aiddir.

Səudiyyə ərəbistanından başqa digər körfəz ölkələrinin iqtisadi diversifikasiya modelləri də kifayət qədər cəlbedicidir. Birləşmiş Ərəb Əmirlikləri burada qeyd olunmalı ilk ölkədir. BƏƏ-nin iqtisadi diversifikasiyasından söhbət açarkən bu ölkə ilə onun ən böyük iqtisadi mərkəzi sayılan Dubay əmirliyini ayrı-ayrılıqda araşdırmaq daha səmərəvericidir. BƏƏ-ərəb körfəzində Səudiyyə Ərəbistanından sonra ikinci böyük iqtisadiyyata sahibdir. Bu ölkə yüksək iqtisadi inkişafa digər Avropa ölkələr kimi uzunmüddətli dönəmdə deyil daha qısamüddətli dönəmdə nail olmuşdur (Daniele Schiliro, University of Messina, 2013., səh., 2). Burada isə təbii ki, ölkənin sahib olduğu böyük karbohidrogen ehtiyatları mühüm yer tutur. Lakin son illərdə BƏƏ neft ixracından olan asılılığın azaldılması üçün elmtutumlu iqtisadi modelə keçmək üçün bir çox tədbirlər görür və iri layihələrə imza atır. Məsələn 2021-ci il üzrə gələcək dönəm üçün iqtisadi inkişaf proqramı özündə elm və innovasiyalara böyük həcmdə imkanlar yaratmağı ehtiva edir. Ancaq qeyd edilməlidir ki, hal-hazırda da BƏƏ-nin ixracında əsas yeri karbohidrogen ehtiyatları tutur. Yəni ölkə bir çox sferalarda həyata keçirdiyi iri layihələri bu ehtiyatların ixracından əldə edilən böyük  neft gəlirləri hesabına həyata keçirir. Birləşmiş Ərəb Əmirliklərinin qeyri-neft sektorunda əsas iqtisadi sahələri turizm, logistika, istehsalat  və ticarətdir. Burada xüsusi yer turizm və ticarət əməliyyatlarına verilir (Daniele Schiliro, University of Messina, 2013., səh., 6).

BƏƏ haqqında danişarkən qeyd olunmalı başqa bir məqam Dubay Əmirliyidir.  Dubay Əmirliyi iqtisadiyyatın şaxələndirilməsində çox böyük uğurlar əldə etmişdir. Beynəlxalq xidmət iqtisadiyyatı üzrə mərkəzə çerilən əmirlik maliyyə, ticarət, ixrac, əmlak alqı-satqısı kimi bir çox sahələrdə kifayət qədər əlverişli şərtlərlə xidmətlər təklif edir (Dubai Economic Council., 2011). Ümumilikdə Dubay Əmirliyi körfəz bölgəsində əsas ticarət mərkəzi olmağı planlaşdırır və havayolları, aviasiya, limanlar, logistika, tikinti, daşınmaz əmlak və maliyyə sahələrində bir sıra əsas şirkətləri ilə dünya səviyyəli xidmətlər göstərməyi planlaşdırır (Ashraf Mishrif and Harun Kapetanovic., 2018, səh., 89). Bu səbəbdən dolayıdır ki, əmirlik BƏƏ-də qeyri-neft sektoru üzrə ən böyük paya sahibdir.

Dubay Əmirliyininin bu səviyyəyə gəlib çatmasında, onun beynəlxalq bir xidmət mərkəzinə çerilməsində qlobal iqtisadi və maliyyə sistemlərinə açıq, yaxşı inteqrasiya olunması və həmçinin kapital və əmək, eləcə də mal və xidmətlər də daxil olmaqla, istehsal amillərinin azad hərəkətini özünün inkişaf strategiyasının təməli etməsi olmuşdur (Ashraf Mishrif and Harun Kapetanovic., 2018, səh., 93). Yəni tam iqtisadi liberallığın mövcudluğunu təmin etməklə əmirlik bir çox beynəlxalq investorların diqqətini cəlb etməyi bacarmışdır.

Bir başqa körfəz ölkəsi olan Küveyt isə ötən əsrin 70-ci illərindən yüksək iqtisadi inkişafa qədəm qoymuşdur. Dünyada neft qiymətlərinin yüksəlməsi təbii olaraq karbohidrogen ixracatçısı olan Küveytin iqtisadi möcüzəsinin təməlini təşkil edir. Adambaşına düşən gəlirlər və ÜDM üzrə lider ölkələrdən olan bu ərəb ölkəsi hazırda da eyni şəkildə xammal ixracatçısıdır. Lakin Küveyt gələcək nəsilləri də düşünərək yüksək neft gəlirlərini bir fondda yığmaq qərarına gəlmişdir və burada əsas məqsəd gələcək dönəm üçün iqtisadi təhlükəsizliyin təmin edilməsi və yüksək rifah səviyyəsinin gələcək illərdə də saxlanılmasıdır. Bu fond Küveyt investisiya idarəsi tərəfindən idarə olunur və həm daxildə həm də xaricdə bir çox aktivlərə sərmayə yatırır (Nadeem A. Burneya, Kamiar Mohaddesb, Ahmad Alawadhiay and Marwa Al-Musallama., 2017., səh. 4).

Yuxarıda qeyd olunanlar neftdən yüksək gəlir əldə edən ancaq yenə də iqtisadi diversifikasiyanı müxtəlif yöndə inkişaf etdirən ölkələrdir. Əslində bu xalis neft gəlirlərinə alışmış iqtisadiyyatın və ya daha dəqiq isə biryönlü sahə üzərində dayaqlarını bərkitmiş iqtisadiyyatın nə qədər risqli bir durumda olduğunu göstərmiş olur. Bu kimi halların qarşısını almaq üçün iqtisadiyyatın müxtəlif yöndə diversifikasiyası nəinki əsas şərtdir hətta məcburidir. Neft ixracından gələn gəlirlər iqtisadi fayda versə də əsas iqtisadi model ixrac gəlirlərinin artırılması və ixrac gəlirləri fonunda da istehsal və mal sənaye sahələrinin ixracına əsaslanan model olmalıdır. ABŞ, Hollandiya, Böyük Britaniya kimi ölkələr neft və ya qaz ixracatçısı olsalarda onlar yüksək iqtisadi rifaha, inkifaşa və daha dayanıqlı balansa iqtisadi diversifikasiyadan səmərəli və dərininə istifadə edərək nail olmuşdurlar.

# II FƏSİL. AZƏRBAYCANDA TƏDİYYƏ BALANSININ TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

## 2.1. Müstəqillikdən sonra Azərbaycanda tədiyyə balansının formalaşması xüsusiyyətləri

Azərbaycan respublikası 1991-ci ildə suverenliyini əldə etdikdən sonra artıq tam müstəqil bir iqtisadiyyata, daxili bazara, xarici iqtisadi əlaqələrə və bu sadalanan göstəricilərin fonunda milli tədiyyə balansına malik oldu. Müstəqillikdən əvvəlki illərdə ölkəmiz imperiya əsarəti altında olduğuna görə tədiyyə balansının araşdırılması və ona təsir mexanizmləri mövcud deyildi.

Müstəqillik əldə etdikdən sonra ilk illər ölkə müharibə və iqtisadi böhran şəraitində idi. Ölkə iqtisadiyyatının böhranlı durumu suverenlikdən dərhal sonra iqtisadiyyatın və sənayenin bütün sahələrində deqradasiya ilə nəticələndi və təsərrüfat əlaqələri köklü şəkildə dağıldı. Nəticə etibarı ilə tədiyyə balansının qeyri-qənaətbəxş vəziyyəti ölkədə dərin iqtisadi böhranın olduğunu açıq-aydın göstərirdi. Ümumilli lider Heydər Əliyevin təşəbbüsü ilə yenidən qurulan mərkəzləşmiş dövlət 1995 və 1996-cı illərdə ilk iqtisadi islahatları həyata keçirməyə başladı. Bunun üçün ölkəmiz ilk dəfə müstəqil şəkildə xaricdən (BVF) güzəştli kredit qəbul edərək makroiqtisadi sferanı stimullaşdırmaq üçün hərəkətə keçdi. Həmin dönəmdə alınan kredit vasitəsi ilə atılacaq iqtisadi addımlar nəticəsində aşağıdakı hədəflərə nail olmaq qarşıya məqsəd qoyulmuşdu:

- ölkəni dərin iqtisadi böhrandan çıxarmaq və iqtisadi canlanmanı bərpa etmək;
- makroiqtisadi sistemi yaxşılaşdırmaq və tədiyyə balansında mövcud olan böyük həcmdə defisitlərin azaldılmasına nail olmaq;
- Azərbaycanın xarici iqtisadi əlaqələrini bərpa etmək və daha da genişləndirmək;
- əhalinin sosial durumunun yüksəldilməsinə nail olmaq və daxili iqtisadi dövriyyəni təmin etməklə ölkənin maliyyə sistemini stabilləşdirmək;

Ancaq anlaşılan idi ki, Azərbaycanın iqtisadi sistemini tam bərpa etmək, iqtisadi artıma nail olmaq və tədiyyə balansının müsbət istiqamətdə dəyişiminə nail olmaq üçün kifayət qədər böyük həcmdə sərmayeyə ehtiyac vardır. Belə bir sərmayeni isə borc şəklində daima ölkə xaricindən cəlb etmək sonda ölkənin özünü xarici borclardan asılı hala salacaqdır və ən optimal yol ölkənin özünün malik olduğu karbohidrogen resursları hesabına investisiya cəlb edilməsinə nail olmaq idi. Bu məsələdə bir çox fikir ayrılıqları olsada həmin dövr üçün belə bir iqtisadi xəttin seçilməsi düzgün atılmış addımdır. Çünki ancaq bu vasitə ilə tədiyyə balansının tərkib elementlərində inkişafa nail olmaq mümkün idi. 1994-cü ildə neft kontraktının bağlanması ilə ölkəyə xarici investisiyanın axını başladı. Belə ki, məhz bu kontraktın imzalanmasına görə ölkə iqtisadiyyatına xarici investisiya qoyuluşunun ümüumi investisiya qoyuluşuna nisbətdə faizlə ifadəsi 1995-ci il üzrə 69%, 1996-cı il üzrə 67%, 1997-ci il üzrə 77%, 1998-ci il üzrə 76%, 1999-cu il üzrə 68%, 2000-ci il üzrə isə 64% təşkil etmişdir. (A.Əliyev, I.Dadaşov, A.Şəkərəliyev, 2003: s. 349)

Ötən onilliyin əvvəllərindən başlayaraq isə ölkəmizdə iqtisadi canlanmadan keçid dövrünə qədəm qoyulmuşdur. Bura artıq xarici iqtisadi fəaliyyətin genişlənməsi neft gəlirlərinin artımı, faizlə ikirəqəmli ÜDM artımının müşahidə olunması (BTC kəmərinin işə düşməsindən sonra ölkəyə daxil olan böyük investisiya hesabına), tədiyyə balansında mövcud olan böyük həcmdə defisitlərin ortadan qalxması və makroiqtisadi sabitliyin təmin olunması aid edilir.

Qeyd olunmalıdır ki, keçid dövrünü bəzi iqtisadçılar 1998-2008 illəri əhatə etdiyini digərləri isə keçid dövrünün 2011-ci ilə kimi davam etdiyini bildirirlər. Ölkəmizdə rəsmi olaraq keçid dövrü 2010-cu ildən bitmiş hesab olunur. Ölkəmizdə tədiyyə balansının tərtibi və onun təqdim olunması funksiyasını Mərkəzi Bank həyata keçirir. Mərkəzi Bank həm illik yekun göstəriciləri və həm də rüblük göstəriciləri tərtib edərkən müvafiq olaraq əvvəlki ilin statistik göstəriciləri ilə müqayisəli təhlilləri də bura daxil edir.

Aşağıdakı cədvəldə tədiyyə balansının ölkəmizdə tərtibatı zamanı istifadə olunan göstəricilərin illər üzrə statistik təsviri verilmişdir (Əlavə 1. **Cədvəl 1**).

***Cədvəl 1***-ə diqqət etdikdə aydın şəkildə görmək mümkündür ki, müstəqillikdən sonrakı illərdə cari hesab defisit halında olmuşdur. Köhnə iqtisadi modelin dağılması və yerinə bazar iqtisadiyyatlı modelin gəlməsi, təsərrüat əlaqələrinin dekonstruksiyası, müharibə, böhran və digər səbəblərə görə cari balans və ticarət balansı kəsrli olmuş ancaq zaman keçdikcə və iqtisadi durum stabilləşdikcə cədvəldən də aydın olduğu kimi müvafiq hesablar da stabilləşmişdir. Həmçinin cədvələ diqqət edilən zaman ixracın və idxalın həcmində də ciddi artımların olduğunu müşahidə edilir. Bunun isə səbəbi kifayət qədər sadədir. Təsərrüfat əlaqələrinin qismən bərpa olması, xarici iqtisadi əlaqələrin yaradılması və inkişafı, iqtisadiyyata investisiyaların cəlb edilməsi və karbohidrogen ehtiyatlarının ixracına başlanılması ixracın həcmini artırmışdır. Paralel olaraq əhalinin rifah halının yaxşılaşması və ümumi iqtisadi durumun yüksəlməsi təbii olaraq daxili tələbatı artıran məqamdır. Bu isə sonda idxalın da artması ilə nəticələnir.

Əvvəlki fəsildən də məlum olduğu kimi tədiyyə balansının formalaşmasında cari hesab və cari hesabın fonunda xarici ticarət hesabı əhəmiyyətli yerə malikdir. Həmçinin Azərbaycan iqtisadiyyatından və tədiyyə balansından danışıldığı zaman müstəqillikdən bəri balansın formalaşmasını daha yaxşı anlamaq üçün xarici ticarət əlaqələrinin dinamikasına diqqət etmək gərəklidir. ***Cədvəl 1***-də rəqəmlərə diqqət etdikdə görünür ki, 2007-ci ildən etibarən ixracın artımında sıçrayış müşahidə olunur. BTC kəmərinin işə düşməsi ilə əgər əvvəlki illərdə ixracda təqribən 10 faizlik artımlar müşahidə olunurdusa sonradan bu artımlar illik 20-25 faizlərə qədər yüksəldi. Yuxarıda da qeyd olunduğu kimi bu neft ixracının hesabına baş verirdi. Ancaq bir məqama da diqqət edilməlidir ki, tədiyyə balansında kəsrin aradan qaldırılmasına və makroiqtisadi sabitliyin iqtisadi artımın yaranmasına baxmayaraq iqtisadiyyat neftdən asılı halda inkişaf etməyə başladı.

Həm neft qiymətlərindəki həm də neft hasilatı və ixracındakı cüzi dəyişmələr dərhal tədiyyə balansının cari vəziyyətində və ölkə ÜDM-nin inkişaf istiqamətlərində özünü göstərməyə başladı. Tədiyyə balansı göstəricilərinə əsasən demək olar ki, Azərbaycanın 2006-2012-ci illərdə ixracının orta hesabla 94,7 faizini

karbohidrogen ehtiyatları tutmuşdur.(MB.https://www.cbar.az/page-43/external-sector-statistics.2019)

Daha sonrakı illərdə isə təəsüf ki, neft ixracının azalması və iqtisadiyyatın da neftdən asılı olduğu səbəblərə görə ölkəmizin ÜDM və adamaşına düşən ÜMM-də durğunluq müşahidə olunmuşdur. Daha dəqiq desək bu sahədə iqtisadi artımlar mövcud olmuşdur ancaq iyirmi birinci əsrin 2-ci onilliyindən etibarən orta illik ÜDM artımı əvvəlki onilliklə müqayisədə birrəqəmli səviyyəyə düşmüşdür. Bütün bunlara baxmayaraq tədiyyə balansı yenə də özünün müsbət saldosunu qoruyub saxlamış və Azərbaycan 2013-ci ildə adambaşına ümumi milli gəlir (ÜMG) 7350 (http://data.worldbank.org, 2013) ABŞ dolları olmaqla özünü sürətlə yuxarı orta gəlirli ölkəyə çevirə bilmişdir. Ümumiyyətlə 2006 və 2014-cü illər aralığında bu illər də daxil olmaqla tədiyyə balansı müsbət saldoya malik olmuşdur. Bu illərdə əmtəə ixracının 90-95 faiz aralığını karbohidrogen ehtiyatları tutmuşdur və buda böyük həcmli profisitə malik olan tədiyyə balansının yaranmasının ən aydın izahıdır.

Beləliklə bu nəticəyə gəlinir ki, ölkəmizdə tədiyyə balansının formalaşmasında malik olduğumuz resurslar əhəmiyyətli yerə malikdir. Müstəqilliyin ilk illərində balansın formalaşması prosesi cox gec getsə də sonradan əldə edilən iqtisadi artımdakı sıçrayış bu məsələdə çatışmamazlıqları aradan qaldırmağa yardım etdi. Hazırda qlobal iqtisadi mühitdə və investisiya axını prosesində ölkə üçün onun iqtisadi sferası haqqında statistik hesabat rolunu oynayan tədiyyə balansının ölkəmizdə ildən-ilə çəkisi artmaqdadır.

## 2.2. Azərbaycanın tədiyyə balansında baş verən proseslərin iqtisadi inkişafa təsirinin qiymətləndirilməsi

Ümumilikdə aparılan tədqiqatlar nəticəsində bu qənaətə gəlinir ki, tədiyyə balansı ölkənin makroiqtisadi sisteminin tərkib elementlərindən biri kimi çıxış edir. Həmçinin araşdırmalar onu göstərir ki, tədiyyə balansı ölkənin xarici iqtisadi fəaliyyəti və mərkəzi bankın apardığı iqtisadi siyasət (monetar, məzənnə, devalvasiya və s.) ilə sıx şəkildə əlaqədardır. Yəni dövlət və mərkəzi bank tərəfindən aparılan hər hansı iqtisadi siyasət və ya görülən tədbirlər ölkəmizin tədiyyə balansına

bilavasitə təsir edir. Burada daha bir maraqlı məqam isə odur ki, tədiyyə balansının tərkib elementlərində baş verən dəyişikliklər də həmçinin ölkə daxilində və ölkə xaricində bütün iqtisadi münasibətlərə öz təsirini göstərir. Xüsusilədə makroiqtisadi göstəricilərə təsir aydın şəkildə özünü göstərir.

Tədiyyə balansı özlüyündə bir növ ölkənin iqtisadi aynası rolunu oynayır. Yəni burada söhbət cari ilin sonundakı nəticələrdən gedir. Bu nəticələrə biz xarici ticarət balansını, xidmətlər balansını, illik idxalı(ixracı), idxal və ixracın strukturunda neft və qaz ixracını və digər sahələri, ilkin gəlirləri, təkrar gəlirləri, kapital hesabını və maliyyə hesabını aid edirik. Bütün bu sadalanan göstəricilər cari il ərzində ölkənin iqtisadi fəaliyyətinin ümumi xarakteristikasıdır. Tədiyyə balansının tərtibi, onun analizi, təhlili ölkə iqtisadiyyatı üçün həm önəmli həm də məcburidir. Çünki yalnız bu yolla əvvəlki illərlə müqayisə apara, hansı sahələrin inkişaf elədiyini, hansı sahələrdə geriləmə və ya durğunluq yaşandığını öyrənə və bu əsasda addımlar ata bilmək olar. Tədiyyə balansının tərtibi zamanı daxil edilən statistik göstəricilər yalnız həqiqəti əks etdirməli və burada heç bir təhrifolma və ya saxtalaşdırma hallarına yol verilməməlidir.

Azərbaycanda tədiyyə balansının tərtibi zamanı ölkə iqtisadiyyatının məcmu xarakteristikasını təhlil etmək üçün gərəkli olan bütün göstəricilərdən istifadə olunur. Həmçinin ölkəmizdə ötən il üçün hesablanan tədiyyə balansı zamanı aşağıdakı əsas göstəricilər nəzərə alını xam neftin faktiki orta qiyməti 64$ olmuşdur.

Ötən ilin tədiyyə balansı göstəricilərinə diqqət etdikdə (***Cədvəl 1***) görmək mümkündür ki, Mərkəzi Bank tərəfindən verilən məlumata görə balansda yaranmış 4,6 milyard dollarlıq profisit sonda ehtiyat aktivlərinin 5,1 milyard dollar artmasına şərait yaratmışdır. Həm Mərkəzi Bank həm də digər iqtisadi institut və ya dövlət qurumları tərəfindən verilən məlumatlara əsasən cari balansda artığın yaranmasını bir neçə halla əlaqələndirmək mümkündür:

- 2018-ci ilin 2-ci rübündən başlayaraq dünya bazarında neftin qiymətinin bahalaşması və bunun fonunda neft və qaz məhsulları üzrə ixracın təqribi 40 faiz artması;

- əsası 2016-cı ildə qoyulmuş strateji yol xəritələri üzrə aparılan islahatlar nəticəsində qeyri-neft sektorunda ixracın ilbəil artması;
- Mərkəzi Bank tərəfindən verilən məlumata görə xidmətlər balansında kəsrin ötən illə müqayisədə təqribən 2 dəfə azalması;

Müvafiq dövr üçün ölkənin xarici ticarət dövriyyəsi ümumilikdə 31 milyard dollar dəyərində olmuşdur. Onun təqribi 20 milyard dolları ixracın, 11 milyard dolları isə öz növbəsində müvafiq olaraq idxalın payına düşmüşdür. (MB. https://uploads.cbar.az/assets/4d1c618e0edb0246f458d9421.pdf, 2019)

Ümumilikdə qeyd olunmalıdır ki, 2018-ci il ərzində Azərbaycan qeyri-neft sektoru üzrə 1,6 milyard dollar dəyərində mal ixrac olunmuşdur (http://iqtisadiislahat.org/export, 2019). Ancaq 2019-cu il ərzində isə Azərbaycanın qeyri-neft sektoru üzrə ixracının həcmi 1,9 milyar dollar olmuşdur. Bu isə 2018-ci ilin müvafiq rəqəmləri ilə müqayisədə 300 milyon dollar və ya 14,4 faiz artım deməkdir ki, bu da kifayət qədər yüksək göstəricidir. Bir çox hallarda ölkəmiz üçün zəif qeyri-neft sektoru artımı xarakterizə olunsada bu rəqəmlər müvafiq sahədə aparılan islahatların köklü və əsaslı olduğunun bariz nümunəsidir.

Ölkəmizin tədiyyə balansında gedən proseslər iqtisadi sistemlə birbaşa əlaqəlidir. 2015-ci ilə qədər ölkəmizin balansında dəyişiklər əvvəlcədən proqnozlaşdırılan səviyyədə olmuş və burada heç bir iqtisadi risk və ya gözlənilməyən dəyişikliklər mövcud olmamışdır. Ancaq yuxarıda qeyd olunan dövr və ondan əvvəlki bir neçə il ərzində tədiyyə balansının strukturunda bir sıra dəyişikliklər qeydə alınmışdır. Bunun da əsas səbəbi 2014-cü ildən etibarən dünya xammal bazarlarında durğunluğun yaranması və neft qiymətlərinin aşağı düşməsidir ki, buda növbəti ildən iqtisadi sferaya öz təsirini göstərməyə başladı. Xüsusi ilə 2015-ci ildə yanvar və dekabr ayları aralığında neft sektoru müsbət qeyri-neft sektoru isə mənfi saldoya malik olmuşdur. Ancaq cari balansda 222 milyon dollarlıq kəsr yaranmışdır. (MB.https://www.cbar.az/page-43/external-sector-statistics, 2019)

Həmin ilin iqtisadi statistik vəziyyətinə əsasən demək olar ki, neft qiymətlərinin dünyada bazarında qiymətinin kəskin düşməsindən dolayı əvvəlki illər ilə müqayisədə tədiyyə balansının cari hesabında defisit halları yaranmışdır.

Makroiqtisadi sabitlik və daimi iqtisadi artım mövqeyindən yanaşsaq bu artıq iqtisadi inkişafda durğunluğun yarandığını və idxal (ixrac) əməliyyatlarında tarazlığın pozulduğunu ifadə edir. Həmin il üçün müvafiq iqtisadi qurumlar tərəfindən ölkədə makroiqtisadi vəziyyəti stimullaşdırmaq üçün bir sıra bəyanatlar verilsə də tədiyyə balansının tərkibində baş verən proseslər nəticəsində əlavə tədbirlərin görülməsi qaçınılmaz oldu. Məsələn Mərkəzi Bankın 2015-ci il üçün pul və maliyyə sabitliyi siyasətinin əsas istiqamətləri barədə bəyənatında "Manatın məzənnəsinin sabitliyi növbəti ildə mühüm prioritetlərdən biri olacaqdır" açıqlamasından qısa müddət sonra milli valyuta dəyər itirdi. (MB.http://www.cbar.az/assets/3665/BEYANAT-2015-SON.pdf.2019)

Aparılan təhlillər nəticəsində gəlinən nəticə budur ki, tədiyyə balansının ilk diqqət edilməli göstəricisi cari hesablar balansı və onun tərkib elementləridir. Xarici ticarət balansının da bu hesaba aid olması və onun altqruplarından biri kimi çıxış etməsi də öz nöbəsində cari hesablar balansının çəkisini artırmaqla onun tədqiqinin nə qədər önəmli olduğunu aydın şəkildə ifadə etmiş olur. Eləcə də 2014 və 2018-ci illər aralığında bu hesaba və kapital və maliyyə hesabının dinamikasına diqqət etdikdə aydın şəkildə iqtisadi durumu, dəyişimi və onun real səviyyəsini anlamaq mümkündür.

2015-ci ildə xaricə cəmi 12.8 milyard dollarlıq xam neft və neft məhsulları ixracı həyata keçirilmişdir. Ümumilikdə isə xaricə olan ixracımızın 90 faizini əvvəlki illərdə də olduğu kimi yenə təbii ehtiyatlar tutmuşdur. Dünya neft qiymətlərindəki azalma, neftin qiymətinin gözlənilmədən aşağı düşməsi əsas gəliri neft və neft məhsulları olan ölkəmizin təbii olaraq cari hesabına və onun alt qruplarına müvafiq şəkildə öz təsirini göstərmişdir. Bu ilin hesabatında baş verən dəyişikliklər, ölkəyə daxil olan neft gəlirlərinin azalması, tədiyyə balansının göstəricilərində müşahidə olunan kəsr halları son illərdə Azərbaycanın yaşadığı iqtisadi çətinliklərin əsas səbəbidir. Hal-hazırda da dünya xammal bazarında analoji hal yaşanmaqdadır. Qlobal pandemiyanın geniş şəkildə yayılması və bunun beynəlxalq iqtisadi sistemə mənfi təsir göstərməsi, eləcə də dünya iqtisadiyyatının özündə yaşanan iqtisadi durğunluqlar neftin qiymətini kəsgin aşağı salmışdır.

**Cədvəl 2: 2014-2019-ci illər ərzində tədiyyə balansının dəyişimi**

| İllər | Cari hesab | Ümumi ixrac | Ümumi idxal | Xarici ticarət balansı | Kapital hesabı | Maliyyə hesabı |
|---|---|---|---|---|---|---|
| **2014** | 10431 | 28.26 | -9.33 | 18927.6 | -7 | 3419.1 |
| **2015** | -222.5 | 15.58 | -9.77 | 5812.4 | -44 | 9.02 |
| **2016** | -1363.4 | 13.21 | -9.004 | 4206.3 | -40 | 2.76 |
| **2017** | 1684.5 | 15.15 | -9.03 | 6114.7 | 10.0 | 2.01 |
| **2018** | 5088.1 | 20.79 | -10.95 | 7335.1 | 1.4 | -3.19 |
| **2019** | 4364.9 | 19.9 | -11.34 | 8.54 | -18.6 | 134.8 |

**Mənbə:** cədvəl müəllif hesablamaları əsasında Mərkəzi Bankın statistik məlumatlarına əsasən tərtib edilmişdir.

***Cədvəl 2.***-də qeyd olunan statistik rəqəmlər dünyada baş verən son proseslərin ölkəmizə ard-arda 2 il ciddi ziyan vurduğunu göstərir. Bunun səbəbi isə çox sadədir və əvvəldə də deyildiyi kimi makroiqtisadiyyatın neft gəlirlərinə qarşı olan həssaslığı mövcud vəziyyətin mahiyyətini bizə aydınlaşdırır. Müvafiq olaraq 2014-cü ildə ölkəmiz xaricə 25 milyard dollarlıq neft, neft məhsulları və qaz ixrac etmişdir və təkcə neft və qaz sektorunda olan 18 milyard dollarlıq profisit qeyri-neft sektoru da dail olmaqla əksər sahələrdəki kəsrləri örtmüşdür. Həmçinin hesabat ilində ixrac olunan əmtəənin də 94 faizini karbohidrogen ehtiyatları tutmuşdur. (MB.https://uploads.cbar.az/assets/682c7511a37817ca3d9ee499d.pdf, 2019)

2016-cı ildə makroiqtisadi durum və tədiyyə balansı hesabatlarında vəziyyət əvvəlki il ilə müqayisədə daha mənfi yöndə özünü göstərmişdir. Buna səbəb 2015-ci ildə ölkə mədaxilinin həcmindəki kəskin azalmanın nəticələrinin növbəti ildə hiss olunması ilə əlaqədardır.

2018-ci ildə ölkəmiz xaricə ümumi olaraq 20 milyard dollarlıq əmtəə ixracını həyata keçirmişdir. Ixrac olunan ümumi əmtəənin 91 faizini bir daha neft və qaz sektoru tutmuşdur. Halbuki əvvəlki ildə əmtəə ixracı 15 milyard dollardan çox idi.

Beləliklə aparılan islahatlar ötən ildə öz müsbət nəticəsini vermişdir. Bu tendensiyaya həmçinin dünya neft qiymətlərindəki artım da təsir göstərmişdir.

Ümumiyyətlə isə 2015-ci il ölkə iqtisadiyyatı üçün çalxalanma ili olmuşdur. Milli valyutanın məzənnəsinin il boyu qeyri-stabil olması və dəyərini itirməyə meylliliyi, bank və maliyyə sektorundakı geriləmə (əksər bank və boktların iflas elan olunması) və s. bu il üçün xarakterik olmuşdur. Həmçinin illərlə milli valyutanın məzənnəsinin sabit saxlanılması həm biznes subyektlərini həm xarici və daxili investorları həm də ayrı-ayri fiziki və hüquqi şəxsələrdə arxayınlıq yaratmışdır. Buna görə də birdən birə üzən məzənnə rejiminə keçid daxili iqtisadi sferada böyük səs-küyə səbəb oldu və iqtisadiyyata dəyən ziyan proqnozlaşdırılandan da yüksək səviyyəyə çıxdı.

2017-ci ildə isə artıq həm dövlət həm də mərkəzi bank tərəfindən görülən tədbirlər öz səmərəsini vermişdir. Buna ən bariz nümunə isə əvvəlki il ilə müqayisədə bu ilin cari hesabında profisitin yaranmasıdır (***Cədvəl 2.***). Milli valyutanın əlverişli məzənnəsi hesabat ilində həm qeyri-neft sektorundan gələn gəlirləri artırmış həm də ölkə turizminə də müsbət təsir göstərmişdir. Bu ildə isə xaricə ixrac olan əmtəənin həcmi 15 milyard dollar təşkil etmişdir. Əvvəlki il ilə müqayisədə qeyri-neft sahəsində dövlət tədbirlərinin gücləndirilməsi və köklü iqtisadi islahatların həyata keçirilməsi bu sektordan gələn gəlirlərin həcmində 27 faizlik artıma səbəb olmuş və hesabata görə isə ümumilikdə 1.5 milyard dollarlıq ixrac həyata keçirilmişdir.(MB.https://www.cbar.az/page-43/external-sector-statistics) Başqa bir diqqətə çatdırılmalı məqam isə odur ki, əvvəlki illərdə idxalın həcminda azalmada ciddi dəyişikliklər olmasada bu hesabat ilində neft və qaz sektoru üzrə idxalın həcminin azaldılmasında irəliləyişlərə nail olunmuşdur.

Tədiyyə balansının ayrı-ayrı hesablarında baş verən dəyişikliklər aydın olduğu kimi ilk növbədə ölkənin iqtisadi göstəricilərinə təsir edir. Bu dəyişikliklərin ölkə iqtisadiyyatına, daha dəqiq desək ölkənin ÜDM-yə təsirini daha aydın şəkildə anlamaq üçün ***Diaqram 1*** və ***Diaqram 2***-yə diqqət etmək gərəklidir. ÜDM-in dəyişim tempi Tədiyyə balansının nə qədər əhəmiyyətli olduğunu və iqtisadi durumla birbaşa olaraq qarşılıqlı sıx əlaqədə olduğunu bir daha sübut edir.

**Diaqram 1: İllər üzrə ölkənin ÜDM-nin dəyişimi ( AZN-ilə )**




**Mənbə:** Diaqram müəllif hesablamaları əsasında Mərkəzi Bankın statistik məlumatlarına əsasən tərtib edilmişdir.

***Diaqram 1***-ə diqqət etdikdə yuxarıda da qeyd olunduğu kimi karbohidrogen məhsullarının dünya bazarına çıxarılmasının kütləviliyinin təmin edilməsi nəticəsində ÜDM-də ciddi artışların olduğu aydın şəkildə nəzərə çarpır. Göstərilən dəyişikliklər illər üzrə sabit şəkildə müsbət yöndə artmaqda davam etmişdir. 2009-cu ildə Dünya Maliyyə böhranı fonunda digər ölkələr ilə paralel müvafiq şəkildə Azərbaycanda da müəyyən iqtisadi durğunluq yaşanmışdır. Həmin ildə ***Diaqram 1***-də göstərildiyi kimi bu ÜDM-in orta illik göstəricisi əvvəlki illə müqayisədə daha aşağı olmuşdur. Növbəti illərdə isə ÜDM-in həcmindəki artım saxlanılmış və bu tendensiya 2015-ci ilə qədər davam etmişdir.

Nəticə etibarı ilə 2015-ci ildə dünyada baş verən hadisələr fonunda devalvasiya həyata keçirilmişdir və ölkənin makroiqtisadi sferada yeni bir dönəm başlamışdır demək mümkündür. Burada əsas məsələ milli valyutanın dollar qarşısında dəyərinin dəyişməsidir ki, bu səbəbdən dolayı ÜDM-in dəyişimini dollar və AZN olmaqla iki ayrı diaqram formasında göstərmək zəruridir. Bu eləcə də müvafiq məsələyə daha kompleks yanaşmanı özündə ehtiva etməklə həm milli iqtisadi çərçivədə həm də

beynəxalq standartlar və göstəricilər çərçivəsində ölkə ÜDM-nin inkişaf istiqamətləri haqqında daha geniş təsəvvür yaratmağa imkan verir.

**Diaqram 2: İllər üzrə ölkənin ÜDM-nin dəyişimi ( Dollar-ilə )**




**Mənbə:** Diaqram müəllif hesablamaları əsasında Mərkəzi Bankın statistik məlumatlarına əsasən tərtib edilmişdir.

***Diaqram 2.***-ə nəzər yetirdikdə aydın olur ki, müstəqillik illərimizdən bu yana ölkə iqtisadiyyatında ÜDM-in ən yüksək həcmi 2014-cü ildə olmuşdur. Müvafiq diaqrama əsaslanaraq demək mümkündür ki, 2015-ci ildə tədiyyə balansında baş verən dəyişiklik nəticəsində növbəti il ərzində ÜDM-in həcmində kəskin azalma olmuşdur və 2016-cı ildə ÜDM-in səviyyəsi 2008-ci ildəkindən də aşağı səviyyəyə düşmüşdür. ÜDM-in həcmindəki dəyişikliklər aparılan islahatlar nəticəsində növbəti illərdə yüksələn xətlə inkişaf etməyə başlasa da birinci onilliyin ilk illərində mövcud olan büyük həcmli iqtisadi artıma və ÜDM-ə çatmamışdır. Bu istiqamətdə görülən tədbirlərin ən böyük hədəfi əvvəlki yüksək templi iqtisadi artımı təmin etmək və həm ümumi həm də adambaşına düşən ÜDM-in səviyyəsinə çatmaqdan ibarət olmaldır.

Turizm sektorundakı canlanma isə iqtisadiyyat üçün pozitiv proqnozlar verir. Çünki 2018-ci il ərzində müvafiq sahədən əldə olunan gəlirlərin həcmi 350 milyon

dolları keçmişdir. Burada təbii ki, mübadilə məzənnəsinin əlverişli olması və mövcud daxili potennsial mühüm rol oynayır. Turizm sektoru və ölkəmizdə inkişaf istiqamətləri haqqında növbəti paraqraflarda daha geniş araşdırma aparacağıq.

Beləliklə 2017-ci ildə artıq çevik iqtisadi tədbirlər tədiyyə balansının müsbət yöndə formalaşmasına yardım etdi. manatın qeyri-neft sektoru üzrə real effektiv məzənnəsinin 36% ucuzlaşması həm qeyri-neft ixracını artırdı həmdə buna paralel olaraq idxalın həcmini aşağı saldı. Cari ildə balansda profisitin yaranması ilə əlaəqdar olaraq nəhayət valyuta ehtiyatlarının həcmində artım müşahidə olundu və ölkəmizin valyuta ehtiyatları 42 milyarda dollara kimi yüksəldi.Qeyd olunmalıdır ki, əvvəlki iki ildə balansda yaranan defisitə görə strateji valyuta ehtiyatlarının həcmində azalma baş vermişdir (MB.https://www.cbar.az/page-14/main-directions-of-the-monetary-policy, 2019).

Hazırda davam edən 2020-ci ildə tədiyyə balansının tərkibində baş verən müsbət dəyişikliklərin davam edəcəyini və hətta bu il daha böyük profisitə malik olan balansın formalaşacağını proqnozlaşdırmaq müəyyən qədər çətindir. Çünki dövlət büdcəsinin hesablanması zamanı neft qiymətləri aşağı rəqəmlə götürülməsinə baxmayaraq bu il dünya bazarında neftin qiymətinin yüksəlməsi tendensiyasını özünü qiymətlərdə kəsgin düşmə xarakterizə etmişdir (hazırda neftin bir bareli 20 dollara yaxındır). Buna görə də proqnozlaşdırmaq olar ki, həm neft ixracından artan gəlirlərimiz, həm qeyri-neft sektorunun böyüməsi, həm də xidmətlər sektorundan (turizmdan) gələn gəlirlərimiz ümumilikdə 2020-ci gözlənilən nəticəni verməyəcəkdir. Buna həmçinin Koronavirus pandemiyasının da mənfi təsir göstərdiyi kifayət qədər aydın məsələdir.

### 2.3. Azərbaycanda tədiyyə balansının tənzimlənməsi xüsusiyyətləri

Tədiyyə balansının tərkib elementlərinə, strukturuna və iqtisadiyyata təsir imkanlarına diqqət etdikdən sora ortaya çıxan bir digər amil isə tədiyyə balansının tənzimlənməsi ilə əlaqədardır. Tədiyyə balansı və onunla bilavasitə əlaqəsi olan digər sahələr üzrə əksər məsələlərdə ölkəmizdə məsul olan orqan Mərkəzi Bankdır. Dünyanın əksər ölkələrində də bu rolu mərkəzi banklar oynayır. Həmçinin

ölkəmizdə tədiyyə balansının və onun tərkib elementlərinin cari vəziyyəti haqqında statistik göstəriciləri və ictimaiyyət üçün maraqlı olan informasiyanı da məhz Mərkəzi Bank verir. Bunun üçün müvafiq qurum tərəfindən illik hesabatlar statistik cədvəllər tərtib olunur, bəyanatlar dərc olunur və vaxtaşırı ictimaiyyəti maraqlandıran suallarla bağlı kütləvi informasiya mənbələrinə səlahiyyətli şəxslər tərəfindən açıqlamalar verilir. Eləcə də yuxarıda sadalanan göstəricilərdən çıxan əsas nəticə odur ki, ölkəmizin tədiyyə balansının tərtibindən əlavə tənzimlənməsində də Mərkəzi Bank əsas rol oynayır.

Əvvəlki bölmələrdə də qeyd olunduğu kimi ölkəmizdə mərkəzi bank tərəfindən aparılan iqtisadi siyasət, atılan addımlar tədiyyə balansının cari vəziyyətinə təsir göstərə bilir. Məsələn 2015-ci ildə mərkəzi bank tərəfindən 2 dəfə devalvasiya həyata keçirilməsi bu təsirlərdən biridir. Belə ki, artıq idxal və ixrac əməliyyatları və ölkənin illik gəliri milli valyuta ilə ifadə olunduğunda bu birbaşa olaraq həm xarici ticarət balansına həm də kapital hesabına təsir edir. Devalvasiya siyasəti daxili iqtisadi sferada həyata keçirildiyi ilk illərdə müəyyən dərəcədə iqtisadi tarazlıqların pozulmasına səbəb olsa da mahiyyət etibarı ilə əgər manatın ucuzlaşdırılmasının doğru əmsalı müəyyən edilərsə o zaman bu düzgün atılmış addımdır. Çünki neft gəlirlərin azalması fonunda daxili iqtisadi durumu stabil saxlamağın və cari xərcləri ödəməyin alternativ yolları içərisində ən səmərəlisi bu hesab olunur. Məsələn 2014-cü ildə cari əməliyyatlar hesabında 10,4 milyard dollar (MB.https://uploads.cbar.az/assets/682c7511a37817ca3d9ee499d.pdf) profisit mövcud idisə bu 2015-ci ildə defisitlə əvəz olunmuşdur. Bu səbəblərdən dolayı tədiyyə balansının tənzimlənməsi və makroiqtisadi stabilliyin qorunması üçün mərkəzi bank tərəfindən həyata keçirilən tədbir (gözlənilmədən üzən məzənnə rejiminə keçilməsi) məcburi iqtisadi addım kimi qiymətləndirilməlidir. Çünki müvafiq qurum tərəfindən cari hesabın tənzimlənməsi üçün mövcud valyuta ehtiyatları və qızıl ehtiyatlarının satışından istifadə olunması yetərsiz qalmışdı.

Ümumiyyətlə belə nəticəyə gəlinir ki, tədiyyə balansının tənzimlənməsində ölkədə aparılan monetar və məzənnə siyasəti mühüm rol oynayır. Qeyd olunmalıdır ki, bir sıra iqtisadçılar ölkədə yaranmış bu vəziyyəti mərkəzi bankın real durumu

dərk edə bilməməsi və zamanında çevik reaksiya verməməsi ilə əlaqələndirsə də burada qeyri sabitlik yaradan məsələlərdən biri də bank sektorunun fəliyyətinin düzgün təşkil olunmaması ilə əlaqədar idi.

Ölkənin tədiyyə balansının tənzimlənməsinin dövlətin mənafeyinə cavab verəcək şəkildə olması üçün hökumət tərəfindən zəruri olduqda xarici təşkilatlardan və ya digər ölkələrdən borc kreditlərinin götürülməsi prosesi  baş verir. Ancaq bu proses mərhələli şəkildə olmalıdır. Dünya təcrübəsində tədiyyə balansının tənzimlənməsi üçün həm mərkəzi bank həm də müvafiq qurumlar tərəfindən bir sıra iqtisadi tədbirlər mövcuddur. (V.Ə.Nəzərov.,2011: s.18-22) Az əvvəl yuxarıda qeyd olunan devalvasiya (revalvasiya) daha sonra mərkəzi bank tərəfindən faiz dərəcələrinin dəyişdirilməsi, birbaşa nəzarət və s. bu qəbildən islahatlara aid edilir.

Mübadilə məzənnəsinin dəyişdirilməsi və devalvasiya əslində xarici ticarəti stimullaşdıran bir addımdır. Bu siyasət yerli istehsalı gücləndirir və yerli sahibkarların ixraca olan maraqlarını daha da artırır. Çünki əvvəlki məzənnə ilə müqayisədə istehsalla məşğul olan və ixrac əməliyyatlarını həyata keçirən hüquqi və fiziki şəxslər daha yüksək məbləğdə milli valyuta ilə ifadə olunmuş vəsait əldə edirlər.

Son bir neçə ildə Azərbaycanda tədiyyə balansının tənzimlənməsində yuxarıda da deyildiyi kimi mərkəzi bank tərəfindən aparılan  monetar siyasətdən geniş şəkildə istifadə edilmişdir. Çünki ilk əvvəllər mərkəzi bank malik olduğu valyuta ehtiyatlarından istifadə etsə də daxili iqtisadiyyata iri həcmli maliyyənin buraxılması belə prosesi nəzarət altına almağa imkan vermirdi. Bu səbəblərdən dolayı  pul siyasətinin həyata keçirilməsi əsas strateji xətt olaraq qəbul edilmişdir.

Mərkəzi bank tərəfindən pul siyasəti həyata keçirilərkən burada illik infliyasiya normasının aşağı həddə olmasına nəzarət edilir (MB.https://www.cbar.az/page-14/main-directions-of-the-monetary-policy, 2019). Bu qəbildən nəzarətin həyata keçirilməsi balansın tənzimlənməsi yönündə aparılan birbaşa nəzarət mexanizminə aiddir. Bildiyimiz kimi  birbaşa nəzarət bir növ inzibati metodlarla həm makroiqtisadiyyata həm də illik cari balansa təsir göstərilməsi metodudur ki, bu da sonda həm daxili müəssisə və biznes subyektlərinə həm də

investisiya qoyuluşlarına mənfi təsir göstərir. Birbaşa nəzarətə gömrükdə idxal məhdudiyyətlərinin qoyulması, ölkəyə və ölkədən kənara valyuta və pul köçürmələrinin qarşısının alınması və s. aid edilir.

Aydın məsələdir ki, bazar iqtisadiyyatı və üzən məzənnə rejiminin tətbiq olunduğu liberal iqtisadi sferada bu kimi tənzimləmə tədbirlərinin tətbiqi düzgün atılmış addım deyildir.

Mərkəzi bankla paralel olaraq  hökumətin bu istiqamətdə apardığı iqtisadi siyasətə də diqqət etmək gərəklidir. Bildiyimiz kimi 2015-ci il ölkəmiz və milli iqtisadiyyatımız üçün müstəqillikdən bəri yaşanılan ağır iqtisadi durumlardan biri kimi xarakterizə olunmuşdur. Dünya iqtisadi sistemində baş verən gözlənilməz dəyişikliklər, neftin qiymətinin birdən-birə yüksək həcmdə aşağı düşməsi bu proseslərin əsas yaranma səbəbidir. Ancaq dünya neft bazarında baş verən bu proseslər  iqtisadiyyatımıza ziyan vursa da, neft gəlirlərimizi və onun fonunda milli iqtisadi gəlirlərimizi ciddi şəkildə azaltsa da, iqtisadi strategiyamızın dəyişməsində mühüm rol oynadı. Neft qiymətlərindəki  böhran əyani şəkildə ixracda yalnız neft və neft məhsullarınn ixracına əsaslanmağın nə dərəcədə təhlükəli olduğunu göstərdi. İqtisadiyyatda tez-tez səsləndirilən holland sindromunun iqtisadiyyata vurduğu ziyanın bariz nümunəsi oldu. Bu nöqteyi nəzərdən qeyd etmək mütləqdir ki, böhranın mənfi təsirləri ilə yanaşı müsbət təsirlərinin də olması danılmaz faktdır.

2015-ci ildən etibarən ölkəmizdə aparılan islahatların içərisində ən mühüm yeri strateji yol xəritələrinin işlənib hazırlanması və qəbul edilməsi tutur. Ölkə iqtisadiyyatının davamlı inkişafını təmin etmək və tarazlı tədiyyə balansına nail olmaq üçün ard-arda çox sayda proqramlar hazırlanmışdır.

Qısa müddətdə hazırlanan və təsdiq olunan strateji yol xəritələrinin qəbul olunmasında əsas məqsədləri aşağıdakı kimi sadalamaq məqsədəuyğundur :

- emal sənayesinin inkişaf etdirilməsi və müvafiq olaraq qeyri-neft ixracının artırılması;
- kənd təsərrufatı məhsullarının istehsalının genişləndirilməsi müvafiq sektor üzrə idxalın əvəzləşdirilməsi və ərzaq təhlükəsizliyinin təmin olunması;

- biznes mühitinin əlverişliliyinin və səmərəli fəaliyyətinin təminatı və bu sahəyə xarici investisiyanın cəlb olunması;
- kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyəti üçün stimullaşdırıcı tədbirlərin daha da genişləndirilməsi və istehlak mallarının xaricdən idxalının daxili istehsal ilə əvəzləşdirilməsi;
- sənayenin müxtəlif sahələrində diversifikasiyanın dərininə inkişafı və strateji əhəmiyyətli sənaye sahələrinə xüsusi dövlət dəstəyinin göstərilməsi;
- turizm sektorunda geniş islahatçı tədbirlərin həyata keçirilməsi və bu sahədən əldə olunan gəlirlərin həcminin artırılması üçün bura əlavə investisiyaların cəlb olunması;
- ixrac gəlirlərinin artırılması üçün ixracatda daxili mənbələr hesabına formalaşan və yaradılan məhsulların ixracının artırılmasına dövlət dəstəyinin gücləndirilməsi və xarici bazarlarda da müvafiq dəstəyin uyğun yolla davam etdirilməsi;

2015-ci ildən əvvəl də ölkəmizdə iqtisadi diversifikasiya ixracın genişləndirilməsi qeyri neft sektorunun inkişafı istiqamətində hökümət səviyyəsində bir çox qanunlar və qərarlar qəbul edilmişdir. Bu istiqamətdə həmçinin bir sıra iqtisadi və strateji proqramlar da qəbul edilmişdir. Həmçinin müvafiq istiqamətdə beynəlxalq hesabat da işlənib hazırlanmışdır. Bu hesabatlardan birində qeyd olunur ki, Azərbaycanın 2024-cü ilədək neft və qaz sektorundan əldə edəcək gəlirləri təxminən 200 milyard dollar olacaqdır və bu qısa müddətli dönəmdə əhalinin gəlirlərinin artmasına müsbət təsir edəcək və bu bir sıra sosial layihələrin reallaşdırılmasına imkan verəcəkdir. Ancaq sənəddə həmçinin qeyd olunur ki, yüksək neft gəlirləri fonunda büdcə xərclərinin artırılması sonda həm infliyasiyaya həm də manatın real effektiv məzənnəsinin artmasına səbəb olur. Bu isə kənd təssərrüfatı və digər sənaye sahələrində iqtisadi diversifiyasiyanın reallaşdırılmasını çətinləşdirəcəkdir (http://documents.worldbank.org/curated/pt/531321468221991045.2020).

Başqa bir beynəlxalq hesabatda isə göstərilmişdir ki, Azərbaycan iqtisadiyyatının yüksək həddə xammal ixracından asılılığı müxtəlif iqtisadi sahələrdə diversifikasiyaın həyata keçirilməsini ləngidir. (M.Rasulova, S.Aybar,

F.Qasimli., 2015,s. 40). Yəni bu həm milli valyutanın bahalaşması ilə həm də iqtisadi artım mənbələrinin effektsizləşməsi ilə nəticələnir. Əlavə olaraq burada ölkəmizlə Norveçlə müqayisə edilmiş və göstərilmişdir ki, Norveçin resurslardan səmərəli istifadə edə bilməsinin sirri birbaşa olaraq burada ictimai nəzarətin güclü olması və şəffaflıq meyarlarının yüksək səviyyədə olması ilə bağlıdır.

2015-ci ildə ölkəmizdə holland sindromuna bənzər hal yaşansa da hökumət çevik davranaraq bu vəziyyətin uzun müddət davam etməsinin qarşısını almağı bacarmışdır.

Beynəlxalq təcrübəyə əsaslanaraq deyə bilərik ki, iqtisadi diversifikasiyanın əsas məqsədi təbii resurslardan asılılığın azaldılmasıdır. Buna müvafiq olaraq ölkəmizdə biznes mühitinin əlverişliliyinin və səmərəliliyinin artırılması ən əsas və mühüm tədbirlər sırasına daxildir. Müvafiq gərəkli infrastruktur mühitinin yaradılması, biznesin təşviqi üçün ictimai sahələrin inkişaf etdirilməsi və əmək məhsuldarlığının artırılması məqsədi ilə sosial sahələrə diqqətin gücləndirilməsi bu istiqamətdə görülməli tədbirlərdir.

Ölkəmizdə investorların ölkə iqtisadiyyatına kapital sərf etməsi və ya qısa olaraq inestisiya qpyması üçün bir sıra əlverişli şərtlər yaradılmışdır. Bunlardan diqqət çəkən bir neçəsinə diqqət  yetirək (http://iqtisadiislahat.org/columns, 2019) :

- 7 il ərzində əldə edilən gəlirin 50 faizə qədərinin vergidən azad edilməsi;
- 7 il ərzində torpaq və əmlak vergisindən azad edilmə;
- 7 il ərzində idxal vergi və rüsumlarından azad edilmə;

Son illərdə Azərbaycanda tədiyyə balansının tarazlığının təmin edilməsi nisbətində görülmüş işlərin içində kənd təsərrüfatı məhsullarının ixracının həcminin artırılması mühüm yerlərdən birini tutur. Bu sahədə institusional bazanın yaradılması, innovativ islahatların müafiq sahədə tətbiqi, elmi əsaslara malik texnoloji yeniliklərin kənd təsərrüfatı məhsullarının ilkin istehsalı və istehsalında istifadə olunması və aqrar sahənin ixrac qabiliyyətinin artırılması bura daxildir (https://agrotrade.gov.az/az/). Həmçinin MDB məkanında geniş ölçüdə istehlak bazarlarının mövcud olması və ixrac qabiliyyəti imkanlarının daha əlverişli olması bu sahəyə yeni imkanlar açır və bu imkanlardan yararlanmaq gərəklidir.

Həmçinin ölkəmizdə ixracçı iqtisadi subyektlər üçün sərbəst satış sertifikatlarının verilməsi prosesinə başlanılmışdır (http://iqtisadiislahat.org/export, 2018). Azexport tərəfindən verilən sertifikat ixracçıların yeni xarici bazarlara çıxış imkanlarını genişləndirir. Qeyri-monetar tədbirlər çərçivəsində ixrac subyektləri üçün yaradılan imkanlar kifayət qədər mühüm yerə malikdir.

Qeyd olunanlar fonunda 2015-2018-ci illərdə görülən tədbirlər nəticəsində Azərbaycan Dünya Bankı Qrupunun "Doing Business" hesabatında 2017-ci ildə 190 ölkə arasında 57-ci yerdə qərarlaşmışdısa artıq 2018-ci ildə 32 pillə irəliləyərək 25-ci yerdə qərarlaşmışdır. Bu onu göstərir ki, aparılan islahatlar səmərəli olmuş və həm milli iqtisadiyyatın real iqtisadi durumu nəzərə alınmış həm də beynəlxalq iqtisadi arenada baş verən proseslər düzgün qiymətləndirilmişdir. Ən islahatçı ölkələrdən hesab olunan ölkəmiz son illərdəki baş verən prosesləri dərk etməkdə çətinlik çəkmir. Eləcə də enerji təhlükəsizliyi baxımından heç bir maneə mövcud olmasa belə və hətta avropanın enerji təhlükəsizliyinin təminatında çəkimiz artsa belə tarazlı tədiyyə balansına və profisitli cari balansa malik olmaq üçün bunlar kifayət etmir. Yəni aparılan islahatlar davamlı olmalı və iqtisadiyyatın bütün sahə və sektorlarını əhatə etməlidir.

Azərbaycanda tədiyyə balansının strukturu, xüsusiyyətləri və tənzimlənməsinin mahiyyətinə diqqət etdiyimiz zaman bir sıra dəyişikliklərin baş verdiyi aydın olur. Bu dəyişikliklər təbii olaraq son illərdə daha geniş vüsət almışdır. Xüsusilə qeyri-neft sektorunda ildən-ilə böyümə müşahidə edilmişdir. Ancaq qeydə alınan artımlar kifayət qədər geniş ölçüdə deyildir. Böyük həcmdə iqtisadi artımlar üçün görülən tədbirlər yuxarıda qeyd olunsa da cari artım tədiyyə balansında tarazlığı tənzimləyəcək səviyyədə deyil. Yəni neft ixracından əldə olunan gəlirlər nəticəsində tarazlı vəziyyətində saxlanılan balans üçün gələcəkdə daha ciddi qeyri-neft sektoruna ehtiyac vardır.

Nəticə olaraq demək olar ki, tədiyyə balansının tarazlığının təminatı baxımından neftdən olan mövcud asılılığın aradan qaldırılması əsas iqtisadi priorioritetdir. Bu asılılıq son illərdə müəyyən qədər azalsa da və gələcək illər üçün

azalan tendensiya proqnozlaşdırılsa da hələki neft ən böyük tənzimləyici iqtisadi alət rolunu oynayır. Ancaq gələcək illərdə aparılan islahatlar daha çevik olsa və cəsarətli iqtisadi addımlar atılarsa bu nisbət qeyri-neft sektorunun xeyrinə dəyişmək imkanına malik ola bilər.

# III FƏSİL. POST-NEFT DÖVRÜNDƏ AZƏRBAYCANIN TƏDİYYƏ BALANSININ TƏNZİMLƏNMƏSİ BAXIMINDAN XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİN DİVERSİFİKASİYASININ ƏSAS İSTİQAMƏTLƏRİ

## 3.1. Azərbaycanın qeyri-neft ixracının artırılması imkanları

Azərbaycan müstəqillik əldə etdikdən sonra makroiqtisadi vəziyyəti yaxşılaşdırmaq və ölkədəki iqtisadi-sosial böhranı aradan qaldırmaq üçün ilk növbədə karbohidrogen ehtiyatlarının istismarına və ixracına başladı. Bu siyasət isə tezliklə öz müsbət təsirini (xüsusilə BTC kəməri işə düşdükdən sonra) göstərməyə başladı. Belə ki, makroiqtisadi durum stabilləşdi, ölkənin adambaşına düşən ÜDM və ÜMM-sı yüksək templə artdı, ölkə böhranlı vəziyyətdən tez bir zamanda çıxmağı bacardı.

Ancaq ölkə iqtisadiyyatını daima xammal istismarından asılı halda qalmasının yarada biləcəyi təhlükələri nəzərə alaraq bu əsasda bir sıra tədbirlər görülmüşdür. Təbii ki, burada söhbət qeyri-neft ixracından, bu konteksdə ölkənin ixrac qabiliyyətinin artırılmasından, neft gəlirlərindən olan asılılığın azaldılmasından gedir. Bu məsələ ölkə iqtisadiyyatı üçün ən əsas prioritet məsələlərdən biri olmuşdur. Bu səbəbdən dolayı ölkə prezidentinin sərəncamı əsasında 2011-ci ildə orta və uzunmüddətli iqtisadi dönəm üzrə 2020-ci il üçün gələcəyə baxış inkişaf konsepsiya hazırlanmışdır. Müvafiq konsepsiya ölkənin gələcək iqtisadi inkişaf istiqamətlərini müəyyən etməklə yanaşı qeyri-neft sektorunun inkişafını və bu xüsusda görüləcək işləri özündə ehtiva edir. Həmçinin bu konsepsiyada qeyri-neft sektoruna aid olan sahələr üzrə aparılacaq islahatlar da öz əksini tapmışdır.

Qeyd olunan müddət ərzində bərpaolunan və alternativ enerji mənbələrindən istifadənin genişləndirilməsi və səmərəliliyinin artırılması, qeyri-neft sahəsinin yüksələn xətlə və daimi inkişafını təmin edə biləcək kənd təsərrüfatı və qida sektorunda ən təkmil idarəetmə mexanizmlərinin qurulması və elmi-texnoloji inkişafın sürətləndirilməsi, eləcə də müvafiq sahədə rəqabətə davamlı məhsul istehsalını həyata keçirə bilən müasir elmtutumlu istehsal komplekslərinin yaradılması və gərəkli infrastrukturun yaxşılaşdırılması, regionlarda məşğulluğun

artırılması üçün yerli xammaldan istifadə edilməsi şərtləri daxilində istehsal müəssələrinin yaradılması və müvafiq sferalarda yüksək ixtisaslı kadrların yetişdirilməsi və onlardan səmərəli istifadə olunması qarşıya qoyulan əsas məqsədlərdəndir.

Qeyd edilməlidir ki, burada həmçinin turizm sektoru ilə bağlı inkişaf istiqamətləri müəyyənləşdirilmiş və bu sektorda gərəkli infrastruktur bazasının formalaşdırılması, əlverişli iqtisadi şərtlərin və rəqabət mühitinin yaradılması əsas məqamlardan hesab olunmuşdur.

Ümumiyyətlə ölkədə aparılan iqtisadi siyasət elə bir hal almalıdır ki, bu sonda ölkə iqtisadiyyatını xammal ilə deyil yüksək texnologiya və keyfiyyətli istehsal(ixrac) ilə gücləndirməyə imkan versin. Dünya təcrübəsi göstərir ki, xammal və yarımfabrikat məhsullarının hasilatı və ixracından əldə olunan gəlir hazır məhsulun özündən əldə olunan gəlirdən qat-qat aşağıdır. Bu onu göstərir ki, qeyri-neft məhsullarının istehsalının genişləndirilməsi və ixracı kifayət qədər önəmli məsələdir və burada struktur elə qurulmalıdır ki, həm məhsuldarlıq həm də mənfəət maksimal dərəcədə yüksək olsun.

Beləliklə ölkədə xammal ixracından asılı olan makroiqtisadiyyatdan yüksək sənaye və texnologiyaya malik olan rəqabətədavamlı iqtisadi sistemə keçmək üçün aşağıda qeyd olunan bir sıra addımlar zəruridir:

- Ölkəyə ən müasir texnologiya və yüksək ixtisaslı kadrların cəlb edilməsi;
- Elmi-texnoloji tədqiqatlara sərmaye qoyuluşunun təşviq edilməsi;
- İqtisadiyyatın elmlə qarşılıqlı və bir vəhdət şəklində əməkdaşlığının formalaşdırılması üçün ən təkmil konsepsiyaların tətbiq edilməsi;
- Makroiqtisadi sistemdə resursların istifadəsi və istehsalın daha səmərəverici formada təşkilinin təmin edilməsi üçün mövcud olan idarəetmə və istehsal sistemlərinin təkmilləşdirilməsi ve modernləşdirilməsi (E.Bağırzadə., 2013., səh., 87-89);

Sadalanan meyarlar yüksək elmtutumlu istehsal müəssisələrinin və yeni istehsal sahələrinin yaradılmasında önəmli faktordur və bura makroiqtisadi cəhətdən

bənzər olan daha inkişaf etmiş ölkələrin təcrübəsinin öyrənilməsini də aid etmək olar.

Sevindirici haldır ki, ölkəmizdə bu sahədə artıq həm dövlət proqramları həm də inkişaf konsepsiyaları durmadan işlənir və tətbiq olunur. Ancaq xammal ixracçısı olan bir ölkə kimi qalmaq və ölkə iqtisadiyyatının artımını bu amil vasitəsi ilə həyata keçirmək ciddi təhlükədir və məlum olduğu kimi ölkəmiz xammal ixracından asılı olmağın mənfi təsirlərini 2015-ci ildən etibarən aydın şəkildə hiss etməyə başlamışdır.

Ümumiyyətlə ölkə iqtisadiyyatının karbohidrogen ehtiyatlarından asılı qalması müasir dünya iqtisadi sistemində risqlidir. Çünki elm və texnologiyanın sürətlə inkişaf etdiyi dövrdə bu sahələrin ölkədə mövcud olmaması sonda ölkəni texnoloji autsayderə çevirə bilər. Bunun qarşısını almaq üçün isə elm və biliyə əsaslanan iqtisadi modelə keçmək mütləqdir.

Eləcə də qeyd olunmalıdır ki, ölkəmizdə də bu sahədə xeyli işlər görülmüş və qeyri-neft sektorunun genişləndirilməsində bir sıra nailiyyətlər əldə olunmuşdur. Ötən on illiyin əvvəllərində sənayedə qeyri-neft sektorunun həcmi kiçik olsada sonradan aparılan düzgün siyasət əsaslı inkişafa səbəb olmuşdur. Buna misal kimi demək mümükündür ki, 2000-ci il üzrə qeyri neft sənayesinin milli iqtisadiyyatda xüsusi çəkisinin 2,5% olmasına baxmayaraq bu rəqəm artaraq 2015-ci ildə 69,3% çatmışdır (İ.Abbasov, T.Əliyev, 2018., Səh., 6). Qeyri-neft sənayesinin inkişafı və qeyri-neft ixracının artırılması ölkənin apardığı xarici ticarət siyasətindən də olduqca asılıdır. Bu məsələdə diqqət yetirilməli olan məqam həm onun yerləşdiyi iqtisadi-coğrafi mövqe həm də gömrük siyasətində üstünlük verdiyi cəhətdir. Azərbaycan kimi gənc qeyri-neft sənayesinə malik olan ölkələr üçün ən əsas problem satış bazarlarının tapılması və beynəlxalq səviyyədə rəqabət qabiliyyətli məhsulların istehsalının həyata keçirilməsinin mümkünlüyüdür.

Əvvəlki fəsillərdə də qeyd edildiyi kimi, 2015-ci il ölkə iqtisadiyyatında müəyyən dəyişikliklərin zəruri olduğunu göstərən bir il olmuşdur. Buna müvafiq olaraq bütün sahələrdə və eləcə də iqtisadiyyatın ayrı-ayrı sektorlarında gələcək dönəm üçün dayanıqlı inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi məqsədi ilə

strateji yol xəritələri hazırlanmış və ölkə prezidentinin fərmanı ilə 2016-ci ildə təsdiq olunmuşdur. (https://static.president.az/pdf/38542.pdf.2019).

Qısa müddətdə hazırlanan və təsdiq olunan müvafiq strateji yol xəritələrinə istinadən demək olar ki, ölkəmizdə iqtisadiyyatın müxtəlif sahələrində inkişaf gələcək dönəm üçün 3 yerə ayrılır. Yaxın dönəm üçün strateji baxış, orta müddət üçün 2025-ci ilə qədər davam edən və sonda 2025-ci ildən sonra üçün uzunmüddətli dönəm üzrə baxış. Buna müvafiq olaraq ölkənin qeyri-neft sektoru üzrə orta müddətli dövr üçün müəyyən hədəflər müəyyənləşdirilmişdir (https://static.president.az/pdf/38542.pdf , səh 52). Orta müddət üçün hədəflər ilk növbədə yeni dünya iqtisadi sisteminə uyğunlaşmaq, aşağı neft qiymətləri səviyyəsində iqtisadi inkişafın dinamikliyini və əvvəlki sürətini bərpa etməkdir. Uzun müddətli dönəm üçün isə qeyri-neft sektorunun adambaşına düşən ixrac həcminin artırılması (2025-ci ilə qədər adambaşına düşən ixrac həcminin 450 dollara qədər artırılması. Bu rəqəm 2015-ci ildə 170 dollar olmuşdur), eləcə də qeyri-neft sektoruna istiqamətləndirilmiş birbaşa xarici investisiyaların qeyri-xammal ümumdaxili məhsulundakı payının artırılması əsas hədəflərdəndir (2019-cu ildə mövcud olan 2,6 faizlik göstəricinin 2025-ci ildə 4 faizə qaldırılması).

Əlavə olaraq Azərbaycanın qeyri-neft sektorunda dayanıqlı və sabit iqtisadi inkişafın təmin edilməsi üçün bir sıra gərəkli tədbirlər görmək lazımdır. Belə ki, bu sahədə mövcud olan təməl problemləri həll etmək üçün qeyri-neft sektoruna xarici investisiyaların fəal cəlb edilməsi prosesinə xüsusi diqqət ayırmaq gərəklidir. Həmçinin istehsalda müasir texnologiyaların istifadəsinə münbit şərait yaradılması və mütərəqqi menecment metodlarının istehsala tətbiqinin stimullaşdırılması mütləqdir. Bura həmçinin beynəlxalq maliyyə bazarlarına çıxış imkanlarının genişləndirilməsini, mövcud qanunvericilik bazasının təkmilləşdirilməsini və sahibkarlıq subyektlərinin maliyyə təminatının yaxşılaşdırılmasını da aid etmək olar. Emal sənaye müəssələrinin yaradılması bu islahatlara aiddir və ölkəmizdə bu sahədə görülən işlər qənaətbəxşdir.

Müvafiq sahənin ölkəmizdə inkişaf perspektivlərini, mənfi və müsbət tərəflərini görmək üçün bu sahənin GZİT (SWOT) təhlilinin aparılması çox

önəmlidir (https://static.president.az/pdf/38542.pdf,2019). Ölkəmizin qeyri-neft ixracı sahəsində əsas güclü tərəfləri aşağıdakılar hesab oluna bilər:

- Sahibkarlıq sahəsində gərəkli qanunvericilik bazasının formalaşdırılması;
- Sahibkarlıq subyektləri üçün biznesə başlamaq şərtlərinin və imkanlarının asanlaşdırılması;
- Əlverişli bazar infrastrukturun yaradılması və inkişaf etdirilməsi;
- Xarici ticarət və məhsul ixracı üzrə mövcud olan qaydaların sadələşdirilməsi və gərəkli dövlət dəstəyinin göstərilməsi;
- Orta və kiçik biznes subyektlərinə ölkə daxilində dövlət tərəfindən müxtəlif üsul və vasitələr ilə yarana biləcək iqtisadi maneələrin qarşısının alınması üçün zəruri dəstəyin göstərilməsi;
- Digər qonşu ölkələr ilə müqayisə edildiyi zaman ölkədə enerji daşıyıcılarının qiymətlərinin daha aşağı olması;

Müvafiq sektor üzrə ölkəmizin zəif tərəflərinə gəlincə aşağıdakı sadalanan meyarlar əsas çatışmamazlıqlar hesab oluna bilər:

- Ayrı-ayrı sahələr üzrə ixtisaslı işçi qüvvəsinin gərəkli səviyyədən az olması;
- İstehsal olunan müxtəlif növ məhsulların xarici bazarlarda analoji məhsullar ilə müqayisədə rəqabət qabiliyyətliliyi əmsalının aşağı olması;
- Müxtəlif ölçülü sahibkarlıq subyektləri arasında qarşılıqlı iqtisadi əməkdaşlığın və sosial əlaqələrin zəif olması;
- Dövlət tərəfindən ayrı-ayrı sahələrdə fəaliyyət göstərən biznes subyektlərinə göstərilən müxtəlif ölçülü dəstəyin şaxələndirilməsinin müəyyən qədər zəif olması;
- Beynəlxalq standartların tələbini ödəyən maliyyə xidmətlərinin lazımi səviyyədə olmaması;

Ümumilikdə emal sənayesi qeyri-neft sektorunun aparıcı sahəsidir və burada yaradılacaq komplekslər və istehsal sahələri zamanı həm daxili tələbat həm də dünya iqtisadiyyatında əsas tələb olunan meyarlar və beynəlxalq standartlar əsas götürülməlidir. Həmçinin xarici satış bazarlarının təhlili də burada kifayət qədər

mühüm amildir. Sənayenin inkişafı və strateji sənaye sahələrinin dövlət tərəfindən dəstəklənməsi, güzəştli kreditlərin verilməsi, maliyyə yardımlarının edilməsi, bu sahədə əlverişli lizinq imkanlarının yaradılması, xarici investisiyaların bu sahəyə təşviqi mexanizminin yaradılması dövlət tərəfindən qəbul edilən sənayenin inkişaf konsepsiyasına daxil edilir (http://www.e-qanun.az/framework/28964).

Müasir dövrdə xarici ticarətdə qeyri-neft məhsullarının ixracının genişləndirilməsi üçün həmçinin aşağıdakı tədbirlər görülməsi gərəkli hesab oluna bilər:

-müasir texnologiya tətbiq edilməli və nəticədə qeyri-neft sektoru tarazlı şəkildə böyüməli;

- ixrac olunan karbohidrogen ehtiyatlarından əldə olunan gəlirdən səmərəli şəkildə istifadə edilməli və beləliklə sənayenin davamlı inkişafına nail olunmalı;
- emal müəssələrinin içərisində yerli xammal ilə fəaliyyət göstərən müəssisələrə xüsusi diqqət göstərilməli, orta və kiçik müəssisələrə isə daha geniş çeşiddə köməklik göstərilməli;
- qeyri-neft sektoruna cəlb olunan xarici və yerli sərmaye, investisiya və maliyyə yardımları stimullaşdırmalı;
- emal müəssisələri içində müasir texnologiyalar istehsal edən müəssisələrin sayının artırılmasına nail olunmalı;
- aqrar sahənin inkişafına xüsusi diqqət ayrılmalı və bu sektorda fəaliyyət göstərən fiziki və hüquqi şəxslərin mənfəət əldə etməsinə mane olan əngəllər aradan qaldırılmalıdır;
- istehsalın beynəlxalq standartlara cavab verən səviyyədə qurulmasına nail olunmalı və bu sahəyə xarici investisiyaların cəlb olunması nail olunmalıdır.

Xarici ticarət əlaqələrinin inkişaf etdirilməsi, eləcə də bu sahədə həyata keçirilən siyasətin düzgün qurulmasının gərəkliliyinin əhəmiyyəti dinamik iqtisadi inkişaf üçün kifayət qədər yüksəkdir. Ölkəmizin müstəqillik illərindən bu yana xarici ticarət dövriyyəsinin dinamikasını, ümumilikdə ixrac və idxal əməliyyatlarını və onların illər ərzində dəyişimini, eləcə bu prosesə dünya iqtisadiyyatında baş verən

dəyişikliklərin təsirini aydın şəkildə görmək üçün ***Diaqram 3***-ə nəzər salmaq gərəklidir.

Həmçinin qeyd olunmalıdır ki, müəyyən illərdə yüksək həcmli ticarət dövriyyəsinin ölkəmiz üçün xarakterik olmasına baxmayaraq aydın olduğu kimi ixracda əsas yeri xammal və yarımfabrikatlar, idxalda isə əsas yeri texnoloji avadanlıqlar, emal və maşınqayırma sənayesinin məhsulları tutmuşdur.

**Diaqram 3: Müstəqillikdən bəri Azərbaycanın ticarət dövriyyəsinin həcmi. (mlrd. ABŞ dolları ilə)**




**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. www.stat.gov.az.

***Diaqram 3***-də də vizual şəkildə göründüyü kimi karbohidrogen ehtiyatlarının geniş həcmli ixracının başlanması ilə əlaqədar həm ixrac həm də idxal əməliyyatlarının həcmində ciddi artım qeydə alınmışdır. Xarici ticarət dövriyyəsinin həcmindəki ən böyük artım beynəlxalq maliyyə böhranı dönəmindəki üçrəqəmli neft qiymətləri dönəminə təsadüf edir. İkinci onilliyin başlanğıcından etibarən xarici ticarət dövriyyəsinin  həcmində kiçik dalğalanmalar müşahidə olunsa da 2015-ci ilə qədər ümumi proses yüksələn xətlə inkişaf etmişdir.

Ümumiyyətlə emal sənayesi qeyri-neft sektorunda xüsusi yerə malikdir. Müasir dünya iqtisadi sistemində əksər ölkələr emal senayesinin düzgün qurulması hesabına yüksək iqtisadi inkişafa çatmışlardır. Ölkəmizdə də bu sahədə işlər görülür

və görülən işlərin həcmi daha da artırılmalıdır. Əlavə olaraq qeyd olunmalıdır ki, emal sənayesi qurularkan həm daxili iqtisadi tələbat həm də mümkün xarici satış bazarları ətraflı şəkildə təhlil edilməli və müvafiq sənaye sahəsi buna uyğun olaraq qurulmalıdır. Elmtutumlu emal sənayesinin yaradılması və məhsul istehsalının həyata keçirilməsi və satışı beynəlxalq iqtisadiyyatda ən gəlirli sahələrdən biridir. Gələcək illərdə Azərbaycanda müvafiq sənaye sahəsinin həcminin artırılması və səmərəliliyinin yüksəldilməsi, eləcə də rəqabətqabiliyyətli məhsulların istehsalının təşkili və ixracının genişləndirilməsi təmin edilməlidir ki, ölkəmiz dünyada baş verən texnologiya inqilabından geri qalmasın.

Qeyri-neft ixracının artırılması və qeyri-neft sektorunun inkişafı dövlətin strateji hədəfi olmaqla yanaşı aydın məsələdir ki, bilavasitə iqtisadi təhlükəsizlik və tarazlı tədiyyə balansı üçün bir növ sığorta rolunu oynayır. Təbii ki, ölkədəki müvafiq sahə üzrə məsul olan iqtisadi qurumlar və institutlar bunu dərk edir və bu yöndə fəaliyyətin həyata keçirilməsinin nə qədər vacib olduğunu anlayırlar. Bu isə bu gün yəni hazırki durum üçün yox gələcək dövr üçün də tədbirlərin həyata keçirilməsini zəruri edir. Beləliklə 2020-ci ilə qədər qeyri-neft sənayesində aşağıdakı hədəflərə çatmaq qarşıya məqsəd qoyulmuşdur (https://president.az/files/future_az.pdf ):

- ÜDM-in həcmində orta illik artımın əvvəlki dövr ilə müqayisədə iki dəfədən çox olması və bunun qeyri-neft sektoru üzrə həyata keçirilməsi;
- Həmçinin əhali üzrə adambaşına düşən ixracın həcminin 1000 dollara qədər artırılması və bunun qeyri-neft sektoru üzrə həyata keçirilməsi;
- ÜDM-in ölkə üzrə orta illik real artım tempinin qeyri-neft sahəsi üzrə təqribən 7%-dən çox artırılması;
- Qeyri-neft sektoruna investisiya qoyuluşlarının iki dəfə qədər artırılması və iqtisadin inkişafın davamlılığının təmin edilməsi;
- Bu sektor üzrə mövcud olan potensialın təhlili və iqtisadi səmərəliliyin artırılması yollarının araşdırılması;
- qeyri-neft sektorunda diversifikasiyanın həyata keçirilməsi və innovativ islahatların aparılması;

Sonda isə qeyd etmək lazımdır ki, qeyri-neft ixracı istiqamətində görülən işlər və qeyri-neft sənayesinin inkişafı 2015-ci ildən sonra daha əhəmiyyətli və intensiv xarakter almışdır. Bu tədbirlərin səmərəsi özünü göstərməyə başlasa da daha köklü dəyişikliklər gələcək illərdə özünü göstərəcəkdir. Çünki qeyri-neft sektoru və ixracı heç də qısa müddət ərzində tam formalaşacaq bir sahə deyildir və dinamik, eləcə də dayanıqlı inkişaf üçün bütün digər birbaşa və dolayı təsir mexanizmlərinin formalaşması ancaq müəyyən zaman intervalında təmin edilə bilər. Uzun illər ərzində xammal ixracından asılı halda olan iqtisadiyyatı birbaşa olaraq emal sənayesi üzərinə keçirmək kifayət qədər çətin olsa da qarşıya qoyulmuş hədəflər və iqtisadi islahatlar bu istiqamətdə müsbət yönümdə dəyişikliklərin olacağı fikrini formalaşdırır.

## 3.2. Xarici investisiyaların Azərbaycan iqtisadiyyatına axınının genişləndirilməsi perspektivləri

Dünya iqtisadi sistemində müasir dövrdə xarici investisiyalar ayrı-ayrılıqda ölkələr üçün mühüm əhəmiyyətə malikdir. Ölkə daxili iqtisadiyyata xarici investisiyaların qoyuluşunu stimullaşdırmaq hər bir ölkə üçün mühüm amilə çevrilmişdir. Bunun əsas səbəbi isə xarici investisiya yatırımı nəticəsində ölkə iqtisadiyyatının sürətlə böyüməsi və yüksək inkişaf səviyyəsinə çatması ilə əlaqədardır. Həmçinin bura sosial-iqtisadi durumun yaxşılaşması və ölkənin beynəlxalq səviyyədə rəqabət qabiliyyətliliyinin artması da daxildir. Bu konteksdə isə dövlət ölkəni beynəlxalq iqtisadi sistemə daha çox inteqrasiya etmək, xarici investisiyaların makroiqtisadiyyata cəlb edilməsini təmin etmək, iqtisadiyyatın şaxələndirilməsini və davamlı müsbət tendensiyada artımını təmin etmək üçün çalışır. Çünki dövlətimiz də xarici investisiyaların ölkəyə axının stimullaşdırılmasının nə qədər vacib olduğunu anlayır və fəaliyyətini o yöndə inkişaf etdirir. Bu səbəblərdən dolayı kənd təsərrüfatı, turizm, emal sənayesi, nəqliyyat, informasiya və kommunikasiya kimi iqtisadiyyatın bir sıra sferalarında iqtisadi islahatların aparılması və beləliklə tədricən neft və qaz ixracından asılılığın azaldılması qarşıya məqsəd qoyulmuşdur.

Dünya təcrübəsinə əsasən demək olar ki, xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsinin bir sıra şərtləri mövcuddur. Bu şərtlərə əməl olunmaması və bu yöndə islahatların həyata keçirilməməsi sonda nəticə etibarı ilə investisiya və maliyyənin ölkədən qaçışına səbəb olacaqdır. Bu proses bir sıra hallarda ölkə iqtisadiyyatının böhrana düşməsi ilə nəticələnir. Belə ki:

- ✓ Makroiqtisadi səviyyədə ciddi iqtisadi problemlər müşahidə olunur.
- ✓ Tədiyyə balansının tarazlığı ilk növbədə pozulur və bank və maliyyə sektoruna ciddi ziyan dəyir.
- ✓ İqtisadi artım zəifləyir və adambaşına düşən ÜDM və ÜMM azalır.
- ✓ Ölkənin iqtisadi reytinqi dünya səviyyəsində daha aşağı pillələrə düşür.
- ✓ Əhalinin sosial rifahında pisləşmə meyilləri müşahidə olunur.

Qeyd olunmalıdır ki, Azərbaycan üçün hazırda xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsi dövlət üçün prioritet istiqamətlərdən biridir. Müstəqillik əldə etdikdən sonra neft və qaz resurslarının xarici bazarlara çıxarılması nəticəsində ölkəmizə çox geniş həcmdə xarici investisiya axını baş vermişdir. Bu proses ötən onilliyin ortalarından daha intensiv hal almışdır. Bu isə nəticə etibarı ilə ölkə iqtisadiyyatında və ÜDM-da hər il böyük artımlara səbəb olmuşdur. Lakin bir neçə il əvvəl dünya bazarında neft qiymətlərinin kəskin aşağı düşməsi göstərdi ki, karbohidrogen ehtiyatlarından əldə olunan sərmaye heç də güvənilir deyil və əksinə hər hansı bir zamanda makroiqtisadi stabilliyi və təhlükəsizliyi tədiyyə balansının tarazlığını poza bilər. Bu səbəbdən irəli gələn məsələlərə görə də Azərbaycan dövləti qeyri-neft məhsullarının ixracı hesabına inkişafa və xarici investisiyaların ölkəyə cəlb edilməsinə çalışır. Bunun üçün həmçinin investisiya bazarının makroiqtisadi səviyyədə öyrənilməsinə və tədqiq olunmasına ehtiyac vardır. Ölkədə investisiya mühitinin real vəziyyətinin araşdırılması və öyrənilməsi istiqamətində investisiya bazarının makroiqtisadi təhlili zamanı aşağıda qeyd olunan proseslər ardıcıl şəkildə tətbiq olunur (M.C.Atakişiyev, R.N.Nuroliyeva, H.N.Abbasova., 2012, səh.,14):

- ➢ ÜDM-in, ÜMM-nin və milli gəlirin ölkə üzrə orta illik artım dinamikasının təhlili;

- Dövlətsizləşdirmə və özəlləşdirmə üzrə iqtisadi tədbirlərin mövcud vəziyyəti və gələcək dövr üçün perspektiv inkişafı;
- İnvestisiya fəaliyyəti üzrə mövcud olan qanunvericilik fəaliyyətinə səmərəliliyin artırılması məqsədi ilə hüquqi və iqtisadi tənzimlənmənin həyata keçirilməsi;
- Milli iqtisadi sistem çərçivəsində investisiya bazarlarının müxtəlif növlərinin mövcud vəziyyətinin araşdırılması və inkişaf etdirilməsinin perspektivlərinin müəyyənləşdirilməsi;

İnvestisiya bazarının inkişaf etdirilməsinin ardından diqqət edilməli digər məqam ölkə iqtisadiyyatına qoyulan sərmayedir. Çünki iqtisadiyyata yönəldilən birbaşa və dolayı investisiyalar ölkə iqtisadiyyatının inkişaf etdirilməsi nöqteyindən kifayət qədər əhəmiyyətlidir. Azərbaycan iqtisadiyyatına qoyulan investisiyaların həcmini, investisiya muhitinin real vəziyyətini və qoyulan ümumi investisiyanın illər üzrə dəyişməsinin dinamikasını anlamaq üçün aşağıda tərtib olunmuş diaqrama istinaq oluna bilər. ***Diaqram 5***-də müstəqillik dönəmindən bu yana ayrı-ayrılıqda illər üzrə həm daxili həm də xarici mənbələr hesabına ölkə iqtisadiyyatına qoyulan ümumi investisiyalar təsvir olunmuşdur.

**Diaqram 4: 1995-2016-cı illər ərzində Azərbaycana qoyulmuş investisiyalar ( mlrd. ABŞ dolları)**




**Mənbə:** Diaqram müəllif hesablamaları əsasında Dövlət statistika komitəsinin məlumatlarına əsasən tərtib edilmişdir.

***Diaqram 5***-dən aydın şəkildə görmək mümkündür ki, ölkəyə investisiya axını enerji sektorunda ixracın artması ilə birbaşa bağlıdır. Yəni neft və qaz ehtiyatlarının xarici bazarlara ixracı daxili inestisiya mənbələrinin formalaşmasına, neft sektorunda yüksək mənfəət isə bu sahəyə marağın yaranmasına və nəticədə xarici investisiya mənbələrinin formalaşmasına səbəb olmuşdur. Diaqramda ən yüksək investisiya qoyuluşları 2010-2014-cü illərə təsadüf edir. Ölkənin ən yüksək iqtisadi səmərə və gəlir əldə etdiyi müvafiq illərdə belə iqtisadi böyümənin yaranmasına investisiya qoyuluşlarının birbaşa təsiri vardır. Müvafiq araşdırmanın ardı olaraq investisiyaların struktununa diqqət edilərsə burada iki əsas təsnifatı görmək mümkün olar. Xarici və daxili investisiyalar. ***Diaqram 6***-da eyni illər üzrə iqtisadiyyata yönəldilən investisiyalar iki yerə ayrılmış və illər üzrə proporsional dəyişikliklər aydın şəkildə təsvir olunmuşdur.

**Diaqram 5: 1995-2016-cı illər ərzində iqtisadiyyata yönəldilən xarici və daxili investisiyaların dəyişimi**




**Mənbə:** Diaqram müəllif hesablamaları əsasında Dövlət statistika komitəsinin məlumatlarına əsasən tərtib edilmişdir.

Diaqrama diqqət etdikdə 2001-2006-cı illər arasında xarici investisiyaların payında üstünlük görünür.(***Diaqram 6)*** Bunun əsas səbəbi həmin illərdə müvafiq sahədə gərəkli infrastrukturun yaradılması üçün enerji sektoruna yönəldilən investisiyalardır. Sonrakı illərdə daxili investisiyaların həcmində artım müşahidə olunur. Təbii olaraq bunun əsas səbəbi də öz nöbəsində yüksək neft gəlirlərinin əldə

olunması nəticəsində ölkənin valyuta ehtiyatlarının artmasıdır. Digər vurğulanmalı məqam isə 2015-ci ildən sonra ümumi investisiyanın həmində azalmadır. Burada xüsusi ilə daxili mənbələr hesabına formalaşan investisiyaların daha kəskin şəkildə məhdudlaşması özünü göstərir. İnvestisiyaların, ən önəmlisi də xarici investiyaların gələcək iqtisadi inkişaf nöqteyindən əhəmiyyəti kifayət qədər önəmlidir.

Ümumi olaraq qeyd olunmalıdır ki, yuxarıda sadalanan nüansların həyata keçirilməsi sonda nəticə etibarı ilə xarici ticari əlaqələri stimullaşdırmaqla yanaşı ölkəyə daha dayanıqlı, etibarlı və davamlı investisiya axınını da təmin edəcəkdir. Təbii ki, sadalanan xüsusiyyətləri həyata keçirməkdə dövlət bilavasitə məsuldur. Bu cəhətdən də bu fəaliyyəti həyata keçirən dövlət və müvafiq iqtisadi qurumlar öz fəaliyyətlərini məsuliyyətlə və şəffaf şəkildə həyata keçirməlidirlər. Çünki yalnız bu şəkildə həqiqi iqtisadi inkişafa və qarşıya qoyulmuş məqsədlərə nail olmaq və ölkəni yüksək emal məhsulları ixracatçısına çevirmək mümkündür.

Bir məsələni də nəzərə çatdırmaq lazımdır ki, ölkəyə xarici investisiyanın cəlb edilməsi üçün bir sıra vacib məsələlər mövcuddur. Bura ilk növbədə aşağıda qeyd olunan məqamlar aid edilir:

- ölkə dailində makroiqtisadi stabilliyin olması;
- xarici investorların fəaliyyətini yüngülləşdirən və onların tələblərinə cavab verən qanunvericilik bazasının mövcudluğu;
- ölkə infrastrukturunun lazımi səviyyədə olması;
- ölkədə həm ucuz işçi qüvvəsinin həm də ixtisaslə işçi qüvvəsinin mövcud olması;
- ədalətli rəqabət mühitin mövcudluğu;
- əlverişli investisiya mühitinin mövcud olması və dövlət tərəfindən xarici investorlara daxili bazarda “isti” yanaşılması;
- iqtisadi təhlükəsizlik ilə yanaşı ölkədə sosial və siyasi stabilliyin və təhlükəsizliyin mövcud olması;

Xarici investisiyalar özlüyündə kifayət qədər geniş anlayışdır və geniş coğrafiyaya malikdir. Belə ki, Azərbaycana dünyanın bir çox ölkələri investisiya

yatırmışdır. Bu isə aydın olduğu kimi daha çox xammal sektoruna yatırılmış və bu sahənin inkişafına səbəb olmuşdur. Ancaq qeyri-neft sektoruna investisiya ayırmaları özünü göstərmişdir və burada daha ABŞ, Almaniya, İngiltərə, Fransa kimi dünyanın qabaqcıl sənaye ölkələri ön plana çıxmışdır. (Xarici investisiyalar və qeyri-neft ixracının təşviqi strategiyası (2015-2020)

Bu siyahı təbii ki, daha da genişlənməkdədir ancaq bir nüansı da qeyd etmək gərəklidir ki, yuxarıda sadalanan ölkələrin bir çoxu ilə əlaqələrimiz hələki daha çox xammal ixracı və satışı üzərində qurulmuşdur və ölkəmizə qoyulan investisiya da əksərən bununla əlaqədardır. Ancaq ölkə üçün ən əsas məsələ emal sənayesi məhsullarının ixracının artırılmasıdır. Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələrin həyata keçirilməsi vacibdir:

- ölkə daxilində mövcud olan biznes mühitinin böyüdülməsi və kiçik və orta biznes subyektlərinin fəaliyyətinə dəstəyin verilməsi;
- xarici investisiyaların milli iqtisadi sistemə cəlb edilməsi üçün zəruri tədbirlərin gecikdirilmədən görülməsi;
- Milli iqtisadiyyatın qeyri-neft sektoruna yatırılan investisiyalar üçün həvəsləndirici tədbirlərin həyata keçirilməsi;
- Azərbaycanda investisiya sektorunun cəlbediciliyinin artırılması üçün daxili iqtisadi sistemdə yeni innovativ layihələrin dəstəklənməsi;
- digər bazarlar (maliyyə, valyuta və s.) vasitəsi ilə ölkəyə cəlb olunan investisiyanın həcminin artırılması;

Ölkəyə investisiya cəlb edilməsini stimullaşdıran daha bir vacib amil əlverişli biznes mühitidir. Bu amil həm daxili həm də xarici sahibkarlar və investorlar üçün cəlbedici faktordur. Sahibkarlıq fəaliyyəti özlüyündə sadə və əlverişli biznes mühitindən bilavasitə asılıdır.

Ümumiyyətlə makroiqtisadi sferada investisiyalar 2 əsas rola malikdir. Qısa və uzun dövr ərzində iqtisadiyyata təsir göstərməklə qeyd olunan rollar özünü göstərir (İ. İbrahimov, K.Kərimov., 2017., Səh., 64). Belə ki, qısa dönəmdə investisiyanın həcmində dəyişmə məcmu tələbə təsir göstərir və bu da öz növbəsində istehsala, məşğulluğa mənfi təsir göstərə bilir. Uzun dönəmdə isə investisiyanın həcmində

artım kapital yığımına səbəb olur və iqtisadiyyatda uzubmüddətli artım təmin edilmiş olur.

Xarici investisiyaların ölkə iqtisadiyyatına cəlbinin önəmi zaman keçdikcə daha da artır və öz əhəmiyyətini nəzərə çaracaq dərəcədə hiss etdirir. Əvvəlki fəsil və paraqraflarda neft və qaz ehtiyatlarının ixracı nəticəsində ölkəmizə gələn isti pulların etibarlı olmadığını və zaman keçdikcə bunun daha güvənilir xarici sərmayə ilə əvəz edilməsinin əhəmiyyətini vurğulanmışdır. Beynəlxalq təcrübəyə diqqət etdikdə də bunu aydın şəkildə görmək mümkündür. Yeni sənaye ölkələrinin iqtisadi inkişafda sıçrayış etməsi və güclü ixracyönümlü sənaye sahələrini yarada bilməsi onların iqtisadiyyata xarici investisiyaları cəlb etmələri ilə birbaşa bağlıdır. Burada əsas diqqət edilməli məqam xarici investisiyaları iqtisadiyyata əlb edərkən milli iqtisadi təhlükəsizliyin qorunması və ölkə iqtisadiyyatının xarici sərmayedən asılı hala düşməsinin qarşısının alınmasıdır.

Xarici sahibkarların öz sərmayelərini ölkəmizə yatırmaları üçün atılmış vacib addımlardan biri də “bir pəncərə” prinsipinin tətbiq olunmasıdır. Bu prinsip birbaşa olaraq Vergilər nazirliyinin nəzarəti altındadır. Azərbaycan Respublikası prezidentinin 25 oktyabr 2007-ci il tarixli sərəncamına əsasən ölkədə biznesə başlama prosedurlarının sadələşdirən “bir pəncərə” prinsipi tətbiq edilmişdir. Bu prinsip mahiyyət etibarı ilə vahid dovlət qeydiyyatı sistemidir və burada tələb olunan müddət əvvəllər 30 gün olasa sonrada bu müddət 3 günə qədər azaldılmışdır. Buna paralel olaraq tələb ounan kriteryaların sayı da 30-dan 15-ə qədər azaldılmışdır.

“Bir pəncərə” prinsipindən başqa Azərbaycan İnvestisiya Şirkətinin İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) da ölkənin qeyri-neft sektorunun inkişaf etdirilməsində biznes mühitinin yaxşılaşdırılmasında və yeni sahibkarlıq subyektlərinin yaradılmasında önəmli rolu vardır. Məhz onlar ölkə sahibkarlarının ixrac potensialının artırılmasında investisiya imkanlarının genişləndirilməsində, potensial tərəfdaşların tapılmasında və birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsində sahibkarlara dəstək verir. AZPROMO hazırda da İqtisadiyyat nazirliyinin nəzarəti altında fəaliyyətini davam etdirir (www.azromo.az).

Ölkəmiz hazırda ÜTT-nin üzvü olmasada gələcək dövrdə bu təşilata üzvlük nəzərdən keçirilməlidir. Çünki bu beynəlxalq təşkilat dünya ticari əlaqələrində mühüm yerə malikdir və bu yöndə də ölkəmiz üçün faydalı olacaqdır. Ancaq ölkə bu barədə yalnız kifayət qədər daxili istehsala və emal sənayesinə malik olduqdan sonra düşünməliyik. Bu sahədə kifayət qədər irəlilədikdən sonra təşkilata üzvlük Azərbaycan üçün böyük bazarlar və imkanlar açacaqdır.

## 3.3. Azərbaycanın xarici turizm gəlirlərinin artırılması yolları

Qloballaşan dünyada ən gəlirli və prestijli sahələrdən biri hal-hazırda turizm sektoru hesab olunur. Turizm sektoru bir çox sahələr və ya sektorlar kimi qədim tarixə malik deyildir. Ancaq dünyada baş verən tendensiyalar və inkişaf istiqamətləri insan həyatı standartlarının dəyişməsi, yaranan yeni iqtisadi meyllər turizmi və onunla əlaqəli olan digər sahələri dünyada populyarlaşdırmışdır. Həmçinin Turizm sektoru dünyada hal hazırda xüsusi yerə malik olmaqla yanaşı beynəlxalq xidmətlər ticarətinin dinamik inkişaf edən sahələrindəndir. Dünya ölkələrinin bir çoxu turizmə iqtisadi səmərə və ya mənfəət kimi yanaşırlar. Turizm isə özlüyündə əhalinin istirahətə, bu yöndə tələbatının ödənilməsinə həmçinin onun həyat səviyyəsinin keyfiyyətinin yüksəldilməsinə yönəldilən xidmət sahələrindən biridir.

Ümumiyyətlə həm qeyri-neft sektorunda həm də ölkəyə valyuta axının genişləndirilməsində turizm sektorunun payı danılmazdır. Yəni əgər ölkə daxilində əlverişli şərait və keyfiyyətli turistik komplekslər mövcuddursa və həmçinin bu sahədə köklü islahatlar aparılırsa o zaman turizm ölkəyə böyük iqtisadi fayda verir. Məsələn qonşu və qardaş ölkə sayılan Türkiyənin turizm sektorundan götürdüyü illik orta gəlir milyardlarla dollardır. Bu ölkə turizm sektorunda böyük inkişafa nail olmuş və eləcə də dünyaca məhşur turistik ölkəyə çevrilmişdir. Bu səbəblərdən dolayı da, Azərbaycanda turizm sektorunun inkişaf etdirilməsi və gəlirli sahəyə çevrilməsində üçün Türkiyə təcrübəsindən istifadə etməkdə və bu təcrübəni mənimsəməkdə faydanın əldə edilməsi mümkündür.

Ölkəmizdə bu sahədə kifayət qədər əlverişli şərtlər mövcuddur. Yəni həm təbii şərait həm əlverişli iqlim mühiti həm də ölkədə multikulturalizm dəyərlərinin yüksək səviyyədə olması (multikulturalizm dövlət siyasəti elan olunmuş və 2018-ci il multikulturalizm ili elan olunmuşdur) turizm sektorunun inkişafı üçün çox böyük imkanlar açır. Həmçinin Azərbaycanda ictimai stabilliyin mövcud olması və xalqın tarixən formalaşmış qonaqərvərlik kimi milli dəyərləri də bu sektorun fəaliyyəti və inkişafına müsbət təsir göstərən amillərdən biridir.

Bütün sadalanan bu göstəricilərdən düşünülmüş və rasional şəkildə istifadə edilsə ölkəmiz xarici vətəndaşlar və əcnəbilər üçün kifayət qədər cəlbedici bir ölkəyə çevrilə bilər. Bünün üçün isə xeyli işlər görülməli, bu sahədə bir sıra tədbirlər həyata keçirilməli, ölkəyə müxtəlif  turlar təşkil olunmalı və ya bənzər şəkildə proqramlar həyata keçirilməli və ölkəmizin turistik məkanları xaricdə geniş çərçivədə tanıdılmalıdır. Turist resursları turizm komplekslərinin, turistik müəssisələrin və digər infrastruktur obyektlərinin yaradılmasının mənbəyi rolunu oynayır.

Ümumimilikdə isə ölkəmizdə turizmin maddi-texniki bazası, infrastrukturu, turizm komplekslərinin yerləşməsi yetəri qədər qənaətəxş deyildir və bu çərçivədə görülməli işlər kifayət qədər çoxdur. Çünki ölkədə mövcud turistik komlekslərin xidmət səviyyəsi müvafiq beynəlxalq standartları ilə müqayisədə geri qalır və bu sahədə mövcud olan inhisarlaşma, rəqabət mühitinin zəif olması da bu sahənin dinamik inkişafını ləngidir.  Bunun üçün də dövlət tərəfindən bir sıra addımlar atılmışdır və atılmaqda da davam edir. Bu yöndə görülən işlərdən biri kimi  ölkədə turizmin səmərəli təşkili, idarə olunması və koordinasiyası məqsədilə ölkə prezidentinin 01 sentyabr 2016-cı il tarixli sərəncamı əsasında Azərbaycan Respublikasında  Turizm Şurasının yaradılması haqqında qərar qəbul olunmasını göstərmək olar. Bu qərar özlüyündə bu sahədə görülməli olan tədbirləri  həm koordinasiya həm də səmərəlilik baxımından nizama salmaqda əhəmiyyətli rol oynayır.

Azərbaycanda 2015-ci ildə qəbul edilmiş turistlərin sayı 2 006,2 min nəfər, göndərilmiş turistlərin sayı isə 4095,8 min nəfər olmuşdur. Öncəki illərə nisbətən artan meyl ilə müşahidə olunsa da, 2014-cü illə müqayisədə (qəbul edilmiş 2 297

min nəfər, göndərilmiş 4244,3 min nəfər) turizm sektorunda qəbul edilmiş turistlərin sayı azalmışdır (Qərb Universiteti.Elmi Xəbərlər. 2017., Səh. 96). Aydındır ki, Buna səbəb dünyanı bürüyən qlobal maliyyə böhranın dərinləşməsi ilə manatın dollara nisbətdə dəyərinin aşağı düşməsidir.

Turizm sektoruna təsir elementlərinin öyrənilməsi zamanı yerli əhalinin tələbatına, yaşam tərzinə xüsusi diqqət etmək gərəklidir. Buna əsas səbəb turizmin davamlı olması prosesində yerli əhalinin həlledici rola malik olmasıdır. Bir başqa yöndən baxdıqda isə görünür ki, turizm bəzən həm yerli mühitə həm də əhalinin yaşayış tərzinə də mənfi təsir( burada söhbət neqativ dəyişikliklərdən gedir) göstərmək imkanına da malikdir. Ona görə də bu məsələdə məsul olan dövlət qurumları və ictimai təşkilatlar diqqətli olmalı və yarana biləcək mənfi meyllərin qarşısını zamanında almalıdırlar.

Turizm sektorunda baş verən prosesləri müşahidə etmək və bu sektora təsir etmək üçün təhlillərin aparılması mütləqdir. Yəni mövcud şəraitdə turizmin inkişafı üçün turizm sisteminin cari vəziyyəti müəyyənləşdirilməlidir. Bu mərhələdə zəruri informasiya bazası toplanmalıdır ki, bu məlumat əsasında alternativ seçim həyata keçirilsin. Bu baxımdan regionda turizmin inkişaf səviyyəsinin təhlili müxtəlif istiqamətlərdə həyata keçirilir və turist sahəsinin vəziyyəti kompleks qiymətləndirilir. Qeyd olunan təhlilin əhəmiyyətli istiqamətlər üzrə həyata keçirilməsinə aşağıdakıları aid etmək olar:

- turizm üçün yararlı ola biləcək infrastrukturun təhlili;
- bu sahədə mövcud potensialın araşdırılması;
- müvafiq sahə üzrə yerli sakinlərin tələbatının analizi;
- gələn xarici turistlərin ölkədə hansı sahələrə maraq göstərməsinin təhlili;
- cari il ərzində tədiyyə balansının müvafiq alt bəndlərinə əsasən bu sfera üzrə mövcud olan statistik göstəricilərin təhlil olunması;

Qeyd olunmalıdır ki hal-hazırda ölkədə 218-dən çox turizm müəssisəsi mövcuddur, halbuki 2012-ci ildə onların sayı yalnız 170 idi (Azərbaycan Turizm və Menecment Universiteti. Turizm və Qonaqpərvərlik tədqiqatları., 2015., səh. 9). Bu isə onu göstərir ki, müvafiq sahəyə tələbat artmışdır və ölkəyə turist axının həcmində artıma

nail olunmuşdur və beləliklə demək olar ki, aparılan işlər heç də az olmamış və bu sahədə irəliləyişə nail olunmuşdur.

Ölkəmizdə müvafiq sektorun inkişafı üçün görülən tədbirlərdən biri də ASAN viza portalının yaradılması ilə əlaqədardır. Bu portal ölkəmizə viza ilə daxil olan xarici turistlərin və əcnəbilərin işini olduqca asanlaşdırır. Belə ki, bu portal vasitəsi ilə əcnəbilər evlərindən çıxmadan, növbə gözləmədən, sənədlər toplamadan onlayn müraciət edərək viza əldə edə biləcəklər. Bütövlükdə isə "ASAN Viza" sisteminin yaradılması ilə elektron vizanın alınması vahid sistemdən həyata keçiriləcəkdir və bu proses 3 addımdan ibarət olacaqdır. Elektron vizaların təqdim edilmə müddəti isə 3 iş günü olacaqdır. Həmçinin ölkədə qalma müddəti 30 günədək müəyyən edilən və birdəfəlik elektron viza almaq üçün portala müraciət edən şəxs müvafiq ödəniş etdikdən sonra onun vizası 3 iş günü müddətində elektron poçt ünvanına göndəriləcəkdir.

Həmçinin Azəraycanda gələcək illərdə xarici turizm gəlirlərinin artırılması üçün geniş çərçivədə işlər həyata keçirilir, müvafiq proqramlar qəbul edilir və iqtisadi istiqamətlər müəyyən edilir. Burada qarşıya qoyulmuş məqsədə əsasən 2025-ci ilə qədər turizm infrastrukturunun yaxşılaşdırılmasına paralel şəkildə qış turizminin daha da inkişaf etdirilməsi, bu sektorda təqdim edilən xidmətlərinin sayının genişləndirilməsi, xaricə birbaşa uçuşların sayının ən azı iki dəfə artırılması üzünmüddətli iqtisadi dövr üçün proqnozlaşdırılmışdır. (Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi).

Xarici turizm gəlirlərinin artırılması yollarından biri də bu sahəyə qoyulan investisiyaların səmərəliliyinin artırılmasıdır. Turizmə qoyulan investisiyaların səmərəliliyinin artırılması və yüksək mənfəətin əldə edilməsi üçün dövlət aşağıdakı mexanizmlərdən istifadə edə bilər:

- Bu sektorun fəaliyyət istiqamətlərini nəzərə alaraq güzəştlərin(vergi) tətbiq edilməsi;
- Turizm sektorunun fəaliyyətini stimullaşdıran qanunvericilik bazasının tətbiq edilməsi;
- Müvafiq sahə üçün yüksək səviyyəli ixtisaslı işçi qüvvəsinin hazırlanması;

- Turizm sahəsində qeyri-qanuni fəaliyyətlərin qarşısının alınması və təhlükəsizliyin yüksək səviyyədə təmin olunması;
- Ölkəyə gələn turistlərin gəliş-gedişinə mane olan və onlara əngəl törədən bürokratik amillərin aradan qaldırılması;

Turizm sektoruna xarici gəlirlərin artırılması  üçün ənənəvi təhlillər kifayət etmir. Yəni burada əsas məqsəd müxtəlif təhlil üsullarından istifadə etməklə daha faydalı olanını müəyyənləşdirməkdir. Xarici turistik gəlirlərin artırılması yönündə fəaliyyətin qiymətləndirilməsi üçün turizm sektorunun SWOT təhlilindən istifadəyə ehtiyac duyulur. (Azərbaycan Turizm və Menecment Universiteti. Turizm və qonaqpərvərlik tədqiqatları. Bakı- 2015) Bu metod daha təkmil təhlil olmaqla yanaşı müvafiq sahədə olan real vəziyyəti öyrənməkdə də kifayət qədər səmərəli olacaqdır.

SWOT(GZİT) analizi Turizm sektorunun inkişafına imkan yaradan amillərin analizi əsasında həyata  keçirilir. Bu üsulla aparılmış təhlil əsasında həm də Azərbaycanın beynəlxalq turist cəlbediciliyini müəyyənləşdirmək mümkündür. Turizm sektorunda  Azərbaycan Respublikasının əsas güclü cəhətləri aşağıdakılardır:
- Ölkə kifayət qədər zəngin qədim tarixi abidələrə və tarixən formalaşmış milli dəyərlərə malik olması;
- Əhalinin multikultural dəyərlərə malik olması və qonaqpərvərliyi;
- Bakı və regionlarımızda son illərdə istifadəyə verilən və yüksək keyfiyyətli xidmətlər göstərilən otel və istirahət kompleksləri;
- Azərbaycan ərazisində turizmin bir çox növlərinin inkişafı üçün əlverişli relyefin mövcudluğu;
- Xəzər dənizi sahillərində turistləri cəlb edən əlverişli iqlim və relyefin mövcudluğu;

Qeyd olunan məqamlardan səmərəli istifadə olunması ölkə üçün strateji hədəflərdən biri olmalıdır. Çünki nəticə etibarı ilə turizm sənayesi dünyada öz gəlirliliyi və rentabelliliyi ilə öz sözünü deyir. Xarici dövlətlərin hər il milyardlarla dollar gəlir götürdüyü bu sektor düzgün və səmərəli qurularsa eynilə ölkəmizə də müəyyən zaman sonra yüksək gəlirlər gətirə və paralel olaraq tədiyyə balansı

tarazlığının təmin olunmasında aktiv və ya əhəmiyyətli hesablardan birinə çevrilə bilər.

Müvafiq analizə əsasən, burada həmçinin zəif tərəflər mövcuddur ki, bu da Azərbaycanda turizmin aktiv inkişafına mane olmaq imkanına malikdir. Bunlara aşağıdakı xüsusiyyətləri aid etmək olar:

- Ölkənin müharibə vəziyyətində olması;
- Milli qoruqlara və parklara həm nəzarətin zəif olması həmdə qeyri-qanuni fəaliyyətin burada mövcudluğu;
- Ölkəmizdə ətraf mühitlə bağlı qanunvericilik bazasının zəifliyi və daha təkmil qanunvericilik bazasının yaradılmasına ehtiyac duyulması;
- Turizm komplekslərinin yaradılmasına bamayaraq hələ də kifayət qədər olmaması;
- Otel və turizm müəssisələrinin əksərən ölkə paytatında cəmlənməsi və digər turizm regionlarında yeni müəssisələrin yaradılmasına ehtiyacın olması;
- Regionlarda müvafiq infrastrukturun beynəlxalq standartlarla müqayisədə yetərli olmaması;

Azərbaycanda xarici turizm gəlirlərinin artırılması üçün həyata keçirilən tədbirlər bilavasitə qeyri-neft sektorunun müsbət istiqamətdə dəyişməsinə xidmət edir. Çünki qeyri-neft sektorunun sahələri içində turizm ən gəlirlilərdən hesab olunur. Xarici turizm gəlirlərinin artırılması və bunun fonunda turizmin inkişafı ölkənin tədiyyə qabiliyyətlilik seəviyyəsini yüksəltəklə yanaşı makroiqtisadi vəziyyətin müsbət yöndə dəyişməsinə ciddi təkan verir. Işsizlik kimi makroiqtisadi problemin həllinə yardım edən turizm sektoru köklü və planlı şəkildə inkişaf etdirilərsə kifayət qədər dayanıqlılığa malikdir.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Ümumi olaraq ilk növbədə qeyd etmək gərəklidir ki, balansdakı göstəricilər əsasında cari il ərzində ölkənin apardığı əksər iqtisadi əməliyyatlar haqqında gərəkli statistik informasiya əldə etmək mümkündür. Eləcə də tədiyyə balansının cari vəziyyəti ilə əlaqədar hər hansı bir ölkənin idxal-ixrac əməliyyatları da daxil olmaqla makroiqtisadi sistemi haqqında kifayət qədər aydın fikir yürüdülə bilər. Dünya ölkələrinin təcrübəsi araşdırılarkən əsas gəlinən nəticə biryönlü istiqamətdə inkişaf edən və etdirilən iqtisadiyyatın nə qədər riskli olduğunu göstərir. Beynəlxalq təcrübədə bu əksərən xammal ixracına əsaslanır.

Tədiyyə balansının tənzimlənməsini təmin etmək üçün həyata iqtisadi yönümlü tədbirlər İEÖ üçün demək olar ki, ikinci planda yer tutur. ABŞ da daxil olmaqla İEÖ-in tədiyyə balanslarna nəzər yetirdikdə bir çox məqamlarda kəsr hallarına rast gəlinir. Bununla belə balans göstəricilərində öz əksini tapan bu rəqəmlər müvafiq ölkələrdə iqtisadi göstəricilərin pisləşdiyini ifadə etmir. Nəticə olaraq burada artıq balans sərhədləri bitir. Səbəb isə çox sadədir. Belə ki, tədiyyə balans göstəriciləri iqtisadi əməliyyatların bütün tərəflərini özündə əks etdirmir. Bu səbəblərdən dolayı müvafiq milli iqtisadiyyatların kifayət qədər geniş şəkildə diversifikasiyalaşdırılmış iqtisadi sistemləri bu ölkələrin yüksək inkişafa çatmalarının ən əsas sübutudur.

Beləliklə nəticə etibarı ilə deyilməlidir ki, Azərbaycanda tədiyyə balansının formalaşdırılmasında sahib olduğu resurslar mühüm yerə malikdir. Milli iqtisadi sistemin formalaşmağa başladığı ilkin mərhələdə tədiyyə balansı göstəricilərində ciddi çatışmamazlıqlar müşahidə olunsa da sonradan karbohidrogen ehtiyatlarının ixracı ilə əlaqədar yaranan iqtisadi böyümə də balans göstəricilərində mövcud olan çatışmamazlıqların aradan qalxmasında əsas rolu oynamışdır. Müasir iqtisadi modellərdə bir növ iqtisadi xarakter və ya təzahürat rolunu oynayan tədiyyə balansı və onun alt-qruplarının əhəmiyyəti ölkəmizdə ilbəil artmaqda davam edir.

Sonda müvafiq sahə üzrə aparılan tədqiqatlarda əsas gəlinən nəticə odur ki, tədiyyə balansının ayrı-ayrı hesablarında tarazlığın təmin olunması üçün neft və qaz ehtiyatlarının ixracından asılılıq mütləq şəkildə azaldılmalıdır. Mövcud asılılığın son illərdə azalmasının qeydə alınmasına və gələcək dönəm üçün də eyni tendensiyanın

proqnozlaşdırılmasına baxmayaraq hələ də xammal ixracından əldə olunan gəlirlərdən asılılıq qalmaqda davam edir. Bu isə öz növbəsində hazırda da davam etməkdə olan islahatların nə qədər zəruri olduğunu və iqtisadi sferada aparılaaq islahatların nə qədər köklü aparılmasının zəruri olduğunu aydın şəkildə ifadə etmiş olur.

Aparılan araşdırmalar nəticəsində tədiyyə balansı da daxil olmaqla diversifikasiya olunmuş iqtisadi modelin yaradılması üçün aşağıda qeyd olunan təkliflər nəzərə alına bilər:

1. Ölkəyə cəlb edilən investisiyaların qeyri-neft sektoruna yönəldilməsinin stimullaşdırılması üçün əlverişli infrastruktur və ixtisaslı kadrlar ilə yanaşı iqtisadi və arbitraj məhkəmələrində şəffaflığın maksimal dərəcədə təmin edilməsi. Bu öz növbəsində hər hansı sanksiya və ya təzyiqlə üzləşən xarici investorun layiqli şəkildə müdafiə olunmasına, mübahisəli məsələlərə obyektiv münasibət bildirilməsinə və ümumilikdə müvafiq sferada güvənli mühitin yaradılmasına səbəb olur.

2. Turizmin inkişafı üçün ölkəmizdə turistik xidmət təklif edən sahələrdə qiymətlərin səviyyəsinin aşağı salınması. Qonşu ölkələr ilə müqayisədə qiymətlər kifayət qədər yüksəkdir. Bu isə daxili mənbələrin də xaricə yönəlməsinə səbəb olur. Qeyd olunmalıdır ki, turizm gəlirləri artmaqdıqca və gələn insanların sayında artım olmadıqca müvafiq sektorun kənar investisiyalar hesabına daim inkişafı səmərəsiz və mümkünsüzdür.

3. Qeyri-neft ixracının artırılması üçün ilk növbədə idxalın əvəzləşdirilməsinin təmin olunması və ixrac bazarlarının tapılması. Ölkəmizdə bir sıra hallarda ixracın diversifikasiyalaşdırılması kimi geniş fikirlər səsləndirilsə də idxalın əvəzləşdirilməsi yönündə aparılan işlər bir çox hallarda ləngiyir. Tədiyyə balansı göstəricilərində də idxalın yüksək həcmini görmək mümkündür. İqtisadi təhlükəsizliyin təminatı üçün ilk növbədə idxaldan asılılığın aradan qaldırılması mütləqdir. Əlavə olaraq ixracın stimullaşdırılması üçün ən əsas məqam müvafiq bazarların tədqiq olunmasıdır. Çünki gərəkli tələbat olmadan qeyri-neft ixracının artırılması uzunmüddətli dönəm üçün mümkün deyildir.

4. Tədiyyə balansının tarazlığının təmin edilməsində neft gəlirlərindən, daha dəqiq desək ARDNŞ-dən transfertlərin gələcək dönəm üzrə azaldılması üçün alternativ vasitələrdən istifadə edilməsi. Yəni ölkə daxilinə investisiya yatırmaqla bərabər xarici mənbələrə düzgün və düşünülmüş şəkildə birbaşa və dolayı investisiyaların qoyulması iqtisadi səmərə baxımından əlavə gəlir mənbəyi kimi hesab olunur. Ölkə tərəfindən bu istiqamətdə bir sıra addımlar atılsa da gələcək dönəm üçün müvafiq fəaliyyətin genişləndirilməsi səmərəli ola bilər.

5. Ümumilikdə iqtisadi diversifikasiyanın həyata keçirilməsi və balans tarazlığının təmin olunmasının səmərəliliyi sərf olunan sərmayə və vəsaitlərlə düz mütənasibdir. Buna müvafiq olaraq gəlirlərin düzgün sərf olunması və daha çox investisiya üçün iqtisadi addım kimi büdcə xərclərinin azaldılmasını da qeyd etmək mümkündür. Son illərdə bu istiqamətdə bir sıra işlər görülür və aparılan islahatlar davamlı və dayanıqlı olmaqla yanaşı sonda uzunmüddətli dönəm üçün yüksək iqtisadi nəticələrin əldə olunmasına səbəb olmalıdır. Bunun üçün də qənaət nəticəsində əldə olunan vəsaitlər tədqiqat işində qeyd olunan iqtisadi diversifikasiya baxımından təhlil olunmuş sahələr üzrə də sərf edilə bilər.

6. Aparılan araşdırmalara əsasən demək mümkündür ki, qeyri-neft ixracının artırılması üçün ilk növbədə rəqabətədavamlı ixrac qabiliyyətliliyinin təmin olunması gərəklidir. Ölkəmiz üçün bu əsasən dövlət tərəfindən ayrılan investisiyalar hesabına həyata keçirilir. Ancaq dünya təcrübəsində müvafiq proses əksərən özəl sektorda formalaşır və daha yüksək səmərə vermiş olur. Bu nöqteyi nəzərdən ölkəmiz üçün də bu mərhələdə ən əsas məsələ sahibkarlıq subyektlərinin inkişafı üçün əlverişli mühitin yaradılmasıdır. Bu sahədə də dövlət tərəfindən bir sıra addımlar atılmışdır. Ancaq əlavə olaraq burada əsas nüans məhsul ixracını həyata keçirən və xarici bazarlara çıxan sahibkarların ölkə xaricində dəstəklənməsidir. Yəni xarici bazarlarda təmsil olunan yerli biznes subyektləri də öz üzərlərində dövlət dəstəyini hiss etməlidirlər.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

### Azərbaycan dilində


1. Azərbaycan Resublikasının Vergi məcəlləsi. Maddə-13.2.5. Səh. 24.

2. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

3. "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı". Azərbaycan Respublikası Prezidentinin 2014-ci il 26 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir.

4. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" haqqında Azərbaycan Respublikası Prezidentinin 27 fevral 2014-cü il tarixli 118 saylı fərmanı.

5. "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi". Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

6. A.Orucov, C.Kərimov, Ü.Qələndərova, Ə.Əhmədova (2016). "Beynəlxalq İqtisadi Münasibətlər". Bakı. Səh. 75.

7. A.Əliyev, İ.Dadaşov, A.Şəkərəliyev (2003). "Dünya İqtisadiyyatı". Bakı 447. Səh. 349.

8. Azərbaycan Turizm və Menecment Universiteti. "Turizm və Qonaqpərvərlik tədqiqatları" (2015). Bakı. Səh. 9.

9. D.Vəliyev A.Əsədov (2012). "Beynəlxalq İqtisadiyyat". Bakı. Səh. 258.

10. E.Bağırzadə (2013). "Qeyri-rəsmi iqtisadiyyatın leqallaşdırılmasının əsas istiqamətləri". Ümumi iqtisadiyyat iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya .Bakı .Səh. 87-89.

11. Ə.H.Ələkbərov, M.Ə.Vəliyev, S.M.Məmmədov (2010). "Beynəlxalq İqtisadi Münasibətlər". Bakı. Səh. 250.

12. "Xarici investisiyalar və qeyri-neft ixracının təşviqi strategiyası"(2015-2020)

13. İ.Abbasov, T.Əliyev (2017). "Qeyri-neft sənayesinin iqtisadiyyatı". Bakı.

Səh.104.
14. İ.İbrahimov, K. Kərimov (2017) . “Sənayedə investisiya və innovasiya fəaliyyəti”. Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı Biznes Universiteti. Bakı. Səh.10.
15. Qərb Universiteti. Elmi Xəbərlər (2017). “İctimai və texniki elmlər seriyası” .Say 1. Səh. 96.
16. M.C.Atakişiyev, R.N.Nurəliyeva, H.N.Abbasova (2012)., “İnvestisiya fəaliyyətinin təşkili”. Bakı, səh.,14.
17. “Odlar Yurdu Universitetinin Elmi Və Pedaqoji Xəbərləri .The Scientific and Pedagogıcal News Of Odlar Yurdu University”. V.Ə.Nəzərov (2011). “Azərbaycan Respublikasında tədiyyə balansının tənzimlənməsi sisteminin təkmilləşdirilməsi yolları”. Bakı. Səh. 18-22.
18. R.İ.Xasbulatov (2015). “Beynəlxalq İqtisadi Münasibətlər”. Bakı. Səh.119.
19. Tədiyyə balansının tərtibi haqqında metodoloji izahat. www.cbar.az.

**Türk dilində**

1. B. Erdil Şahin (2011). “Türkiye’nin cari açık sorunu”. Ekonomi Bilimleri Dergisi Cilt 3, No 2.
2. H. Seyidoğlu (2009). “Uluslararası İktisat: Teori, Politika ve Uygulama”, XVII. Baskı, İstanbul. Səh. 316-321,441-485.
3. S.Rıdvan Karluk (2009). “Uluslararası Ekonomi: Teori ve Politika”, VII. Baskı, İstanbul. Səh. 169, 444-456

**İngilis dilində**

1. Ashraf Mishrif and Harun Kapetanovic. “Dubai’s Model of Economic Diversification”. King’s College London, UK (2018). Chapter 5. Səh. 89-93.
2. Daniele Schiliro (2011). “Diversification and development of the UAE's economy”.Department SEAM, University of Messina. Səh. 2-6.
3. Dubai Economic Council (2011)
4. M.Rasulova, S.Aybar, F.Qasimli (2015). “Economic Diversification and policy

in Azerbaijan”. Səh 40.
5. Morten Anker, Daniel Buikema Fjærtoft, Jouko Rautava, Heli Simola and Laura Solanko (2009). “Russia, Finland and Norway: Economic Essays”. Səh. 4.
6. Nadeem A. Burneya, Kamiar Mohaddesb, Ahmad Alawadhiay, and Marwa Al-Musallama (2017). “The Dynamics and Determinants of Kuwait’s Long-Run Economic Growth”, Kuwait Institute for Scientic Research. Səh. 4.
7. Paul Krugman (2012). “International Economics” Ninth edition. Princeton University.Səh. 306, 424-478.
8. Stephanie Schmitt-Grohe, Martın Uribe (2014). “International Macroeconomics”. Last uptated. Səh. 37.
9. U.S. Trade in Goods and Services (2017) – “Balance of Payments (BOP) Basis”. Səh. 16-25.

## İnternet resursları

1. www.azpromo.az
2. www.census.gov
3. www.cbar.az
4. www.worldbank.org
5. www.stat.gov.az
6. www.iqtisadiisilahat.org
7. www.e-qanun.az

# ƏLAVƏ 1.

**Cədvəl 1. Müstəqillikdən sonrakı illərdə Azərbaycanda tədiyyə balansı:**

| Göstəricilər | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Cari Hesab | -52 | -769 | -2,021 | -2589 | 167 | 3,775 | 9,000 | 16,454 | 10,417 | 15,021 | 17,156 | 14,882 | 13,080 | 10,431 | -223 | -1,364 | 1,685 | 6,051 | 4,365 |
| Xarici ticarət balansı | 614 | 482 | -98 | 161 | 3,300 | 7,813 | 15,205 | 23,013 | 14,827 | 19,712 | 24,339 | 22,181 | 21,383 | 18,928 | 5,812 | 4,206 | 6,115 | 9,841 | 8,533 |
| Malların ixracı | 2,079 | 2,305 | 2,625 | 3,742 | 7,649 | 13,004 | 21,242 | 30,563 | 21,056 | 26,375 | 34,394 | 32,374 | 31,703 | 28,260 | 15,586 | 13,210 | 15,152 | 20,794 | 19,868 |
| Neft-qaz sektoru | 1,110 | 1,176 | 1,337 | 1,779 | 6,883 | 12,075 | 20,190 | 29,144 | 19,970 | 25,108 | 32,872 | 30,701 | 30,004 | 26,627 | 14,088 | 12,050 | 13,679 | 19,176 | 18,017 |
| Digər sektorlar | 970 | 1,129 | 1,288 | 1,964 | 766 | 928 | 1,052 | 1,419 | 1,086 | 1,267 | 1,522 | 1,673 | 1,699 | 1,633 | 1,498 | 1,160 | 1,473 | 1,618 | 1,851 |
| Malların idxalı | -1,466 | -1,824 | -2,723 | -3,582 | -4,349 | -5,191 | -6,036 | -7,550 | -6,230 | -6,663 | -10,055 | -10,193 | -10,320 | -9,332 | -9,774 | -9,004 | -9,037 | -10,953 | -11,335 |
| Neft-qaz sektoru | -139 | -336 | -1,109 | -1,623 | -1,927 | -1,752 | -1,292 | -1,065 | -700 | -838 | -1,135 | -1,044 | -1,167 | -1,438 | -2,404 | -2,329 | -1,342 | -1,746 | -1,881 |
| Digər sektorlar | -1,326 | -1,488 | -1,613 | -1,959 | -2,423 | -3,439 | -4,744 | -6,485 | -5,530 | -5,825 | -8,920 | -9,149 | -9,153 | -7,894 | -7,370 | -6,675 | -7,695 | -9,207 | -9,454 |
| Xidmətlər Balansı | -375 | -936 | -1,615 | -2,238 | -1,971 | -1,924 | -2,131 | -2,343 | -1,613 | -1,733 | -2,996 | -2,923 | -4,189 | -6,090 | -4,228 | -3,155 | -3,379 | -2,062 | -2,616 |
| Neft-qaz sektoru | -327 | -845 | -1,511 | -1,908 | -1,658 | -1,603 | -1,883 | -1,970 | -1,205 | -1,240 | -1,595 | -2,098 | -2,566 | -4,059 | -3,063 | -2,741 | -3,102 | -1,712 | -1,839 |
| Digər sektorlar | -48 | -91 | -104 | -329 | -313 | -321 | -248 | -373 | -408 | -493 | -1,401 | -825 | -1,623 | -2,031 | -1,165 | -414 | -277 | -350 | -777 |
| Nəqliyyat | 5 | 39 | 9 | -83 | -139 | -102 | 57 | 112 | -140 | -156 | -191 | -228 | -167 | 130 | 508 | 176 | -77 | -297 | -350 |
| Tikinti | -181 | -559 | -1,020 | -1,364 | -1,489 | -1,254 | -1,425 | -1,332 | -601 | -172 | -399 | -241 | -1,504 | -3,862 | -3,497 | -2,945 | -2,417 | -1,277 | -1,002 |
| İlkin gəlirlər | -367 | -384 | -442 | -700 | -1,645 | -2,680 | -5,080 | -5,266 | -3,519 | -3,467 | -4,861 | -4,326 | -4,121 | -2,581 | -2,028 | -2,472 | -1,760 | -2,459 | -2,061 |
| Neft-qaz sektoru | -371 | -382 | -437 | -619 | -1,647 | -2,652 | -5,110 | -5,269 | -3,307 | -3,166 | -4,623 | -4,128 | -4,127 | -3,085 | -2,071 | -2,586 | -1,847 | -2,849 | -2,805 |
| Digər sektorlar | 4 | -3 | -5 | -82 | 2 | -28 | 30 | 3 | -212 | -300 | -238 | -198 | 6 | 504 | 43 | 114 | 87 | 390 | 744 |
| Daxilolmalar | 42 | 38 | 53 | 66 | 242 | 280 | 327 | 1,495 | 551 | 676 | 1,018 | 1,092 | 1,028 | 1,674 | 1,258 | 921 | 1,285 | 1,631 | 1,590 |
| Ödənişlər | -409 | -422 | -495 | -766 | -2,066 | -2,961 | -5,406 | -5,862 | -4,071 | -4,143 | -5,878 | -5,418 | -5,149 | -4,254 | -3,286 | -3,393 | -3,045 | -4,090 | -3,651 |
| Təkrar gəlirlər | 76 | 70 | 134 | 188 | 483 | 566 | 1,005 | 1,050 | 722 | 509 | 674 | -50 | 7 | 174 | 221 | 57 | 709 | 731 | 509 |
| Fiziki şəxslərin pul baratları | 10 | 14 | 77 | 127 | 364 | 513 | 918 | 1,016 | 660 | 498 | 633 | -40 | 1 | 186 | 240 | 75 | 677 | 718 | 503 |
| Daxilolmalar | 44 | 163 | 154 | 191 | 491 | 663 | 1,191 | 1,416 | 1,182 | 1,338 | 1,771 | 1,852 | 1,580 | 1,708 | 1,182 | 564 | 1,020 | 1,079 | 934 |
| Ödənişlər | -35 | -148 | -78 | -65 | -127 | -150 | -274 | -399 | -522 | -840 | -1,138 | -1,892 | -1,579 | -1,522 | -942 | -489 | -343 | -361 | -431 |
| Kapital hesabı | 0 | 0 | 0 | 0 | 0 | 0 | 9 | 1 | 0 | 0 | 1 | -7 | -13 | -7 | -44 | -40 | 100 | 2 | -19 |
| Maliyyə hesabı | -318 | -1,080 | -2,362 | -3,029 | -527 | 1,731 | 5,758 | 2,638 | 6,028 | 3,597 | 4,038 | 8,094 | 6,489 | 3,419 | 9,026 | 2,761 | 201 | 3,191 | -135 |
| xaricə yönəldilmiş birbaşa investisiyalar | 0 | 326 | 934 | 1,204 | 1,220 | 706 | 287 | 556 | 326 | 232 | 533 | 1,192 | 1,490 | 2,209 | 3,260 | 2,574 | 2,564 | 1,761 | 2,432 |
| - portfel və digər investisiyalar | 173 | 101 | 45 | 252 | 937 | 1,041 | 1,646 | 3,906 | 5,738 | 5,757 | 6,305 | 10,673 | 10,281 | 9,483 | 10,461 | 4,671 | 2,855 | 3,025 | -1,181 |
| Azərbaycana cəlb olunmuş birbaşa investisiyalar | 813 | 2,025 | 3,949 | 4,698 | 4,476 | 4,469 | 4,289 | 3,982 | 2,899 | 3,347 | 4,445 | 5,290 | 6,291 | 8,049 | 7,483 | 7,324 | 5,714 | 4,109 | 4,275 |
| - Cəlb olunmuş investisiyaların repatriasiyası | -593 | -632 | -723 | -1,163 | -2,796 | -5,070 | -9,105 | -3,972 | -2,427 | -2,787 | -2,999 | -3,288 | -3,662 | -3,636 | -3,438 | -2,824 | -2,848 | -3,156 | -3,222 |
| - Neft bonusu | 6 | 0 | 59 | 22 | 1 | 17 | 68 | 3 | 1 | 2 | 20 | 2 | 2 | 17 | 2 | 0 | 1 | 450 | 451 |
| - Portfel və digər investisiyalar | 265 | 115 | 56 | 928 | 1,003 | 599 | 923 | 1,811 | -437 | 1,830 | 1,334 | 1,767 | 2,651 | 3,843 | 648 | -16 | 2,351 | 192 | -118 |
| Balanslaşdırıcı maddələr | 0 | -115 | -137 | -56 | -86 | -327 | -354 | -1,767 | -1,697 | -962 | -762 | -1,826 | -2,737 | -2,811 | -2,037 | 3,625 | 387 | 646 | 662 |
| Ehtiyat aktivlərinin dəyişməsi, | 266 | 196 | 204 | 385 | 608 | 1,717 | 2,898 | 12,050 | 2,691 | 10,462 | 12,357 | 4,955 | 3,841 | 4,194 | -11,330 | -540 | 1,971 | 3,508 | 5,143 |

**Mənbə:** Azərbaycan Respublikasının Mərkəzi Bankı. www.cbar.az.

## Cədvəllərin siyahısı

Cədvəl 1. Müstəqillikdən sonrakı illərdə Azərbaycanda tədiyyə balansı ............79

Cədvəl 2. 2014-2019-ci illər ərzində tədiyyə balansının dəyişimi .......................40

## Diaqramların siyahısı

Diaqram 1. İllər üzrə ölkənin ÜDM-nin dəyişimi (AZN-ilə) ..............................42

Diaqram 2. İllər üzrə ölkənin ÜDM-nin dəyişimi (Dollar-ilə) ............................43

Diaqram 3. Müstəqillikdən bəri Azərbaycanın ticarət dövriyyəsinin həcmi (mlrd. ABŞ dolları ilə) ………………………………………………………… 58

Diaqram 4. 1995-2016-cı illər ərzində Azərbaycana qoyulmuş investisiyalar (mlrd. ABŞ dolları) .........................................................................................62

Diaqram 5. 1995-2016-cı illər ərzində iqtisadiyyata yönəldilən xarici və daxili investisiyaların dəyişimi ........................................................................63